Dr. PAŞA YAQUB

# BİOMETRİK SİRKULYAR PROQRAM

Dr.PAŞA YAQUB

# BİOMETRİK SİRKULYAR PROQRAM

Bakı–2023

Paşa Yaqub. **“Biometrik sirkulyar proqram”**
Bakı, “Zərdabi Nəşr” MMC. 2023. 144 səh.

*Əziz oxucu! Qarşınızdakı “Biometrik sirkulyar proqram” doktor Paşa Yaqubun sayca 38-ci kitabıdır. Burada müəllif müxtəlif xəstəliklərin elmə məlum olmayan sirlərindən bəhs edir, bu sirləri bilməklə heç bir dərman vasitəsi işlətmədən xəstəlikdən qurtulmağın yollarını göstərir. Həmçinin, insanın üzləşdiyi maddi-mənəvi sıxıntılardan qurtulmaq yollarını təqdim edir. “Biometrik sirkulyar proqram” bəşəriyyətin qurtuluş proqramıdır.*

*Kitab həkimlər, tibb unversitetlərinin tələbələri, eləcə də elmin müxtəlif sahələrində çalışan ağıl sahibləri üçün nəzərdə tutulub.*

$Y \frac{4605120494-11}{0105-2023}$ Qrifli nəşr

© P. Yaqub, 2023

# İNSANDA PARALEL ALƏMƏ ÇIXIŞ NÖQTƏLƏRİ VAR

Bu gün insanların əksəriyyəti xarici informasiya məkanına (*mənbəyinə*) çıxmaq üçün internet xidmətindən istifadə edir. Sual yaranır: insanın surəti olaraq yaradılan kompyuterdə xarici informasiya aləminə (*internetə*) çıxış varsa, bəs əslində (*insanda*) niyə olmasın? Və bir sual da yaranır: Əslində olmayan bir şey surətə düşə bilərmi? Xeyr! Elə isə kompyuterdə sıxdığımız ***"www"*** nöqtəsini insanda axtarmaq lazım deyilmi?

Fikrimizi aydınlaşdırmaq üçün, diqqətinizi çoxlarımızın bildiyi, amma, dərinliyinə varmadığımız bir fakta yönəltmək istəyirəm. Kamil insan olan Həzrət Məhəmməd əleyhissalamın həyatı ilə tanış olanlar belə bir epizodu xatırlayırlar ki, ilk vəhyi gətirən Həzrət Cəbrayıl üç dəfə "Oxu" dedi və hər dəfə eyni cavabı aldı: "Oxuya bilmirəm". Sonra isə Mələk Peyğəmbəri sıxdı və Peyğəmbər oxumağa başladı. Maraqlı deyilmi? Anatomik və bioloji cəhətdən bizdən heç nə ilə fərqlənməyən əcdadımızı sıxdıqdan sonra indiyədək tanımadığı bir əlifbanı oxuyur. Bəs bu hal indi niyə mümkün olmasın? Bəlkə mümkündür, biz bilmirik?

İnsan orqanizmində təbabətə məlum olan minlərlə nöqtə vardır ki, onlardan "mesaj göndərməklə" istənilən daxili orqanın tonusunu (enerjisini) artırmaq və onun pozulmuş fəaliyyətini tənzimləmək, komanda vermək mümkündür.





Bəs ruhumuza necə? Ona hansı nöqtədən "mesaj göndərmək", komanda vermək, onu hansı Ali Enerji və İnformasiya Mənbəyinə "qoşmaq" mümkündür? Uzun müddət elmi-ladun axtarışlarından sonra nəhayət, Allahın bəxş etdiyi elmlə bu nöqtələri üzərimdə tapa bildim. Məlum oldu ki, sayı üç olan bu nöqtələri hər əlimizin üç barmağı ilə basarkən (sıxarkən) barmaqlarımız fəzada **"www"** formasını alır. Verilən "komanda" nəticəsində ruhumuz paralel aləmə – informasiya və enerji məkanına "çıxıb", öz Mənbəyi ilə təmas yarada bilir. İctimailəşməsi Allah-taala tərəfindən qəti (!) qadağan olunan bu nöqtələri basan (sıxan) şəxsin bəsirət gözü açılır və o, paralel aləmdə gedən prosesləri müşahidə edə, dünyanı idarə edən mələklərin ("Quran"da onlara işləri düzüb-qoşan mələklər deyə and içilir) nurunu ziyarət edə bilir...

Bu hikməti dərk etdikdən sonra, artıq Məhəmməd əleyhissalamla Həzrət Cəbrayıl əleyhissalam arasında baş verən əhvalatın da sirrini anlamaq olur. Yəni, məlum olur ki, mələk onun əslində lazımi nöqtələrini (kompyuterdə olduğu kimi) sıxmaqla, beyinə komanda vermiş və gərəkən şöbəni (oxu: proqramı, faylı) aktivləşdirmişdir.

Elm sübut etmişdir ki, müasir insan beynin imkanlarının (proqramlarının) çox cüzi bir hissəsindən istifadə edə bilir. Bizə məlumdur ki, ruh (ana bətnində) insan bədəninə gələrkən, onda hədsiz sayda proqramlar yüklənmiş halda gəlir. Bu proqramlardan biri də "Quran"dır. Hətta araşdırmalarımız zamanı o da məlum oldu ki, konkret şəxsin gərəkən nöqtələrini sı-

xıb, beynin "Quran" olan şöbəsini aktivləşdirmək mümkündür.

### *İnsan "@" işarəsi ilə öz enerjisini ünvanlaya bilər*

Bildiyimiz kimi, insan həyəcanlı (qorxulu) informasiya qəbul etdikdə, bu həyəcana ilk reaksiyanı mədə və bağırsaq verir. Yəni, mədədə spazma (sıxılma) yaranır və bağırsağa sancı ötürür. Bu hal insanın alt kopiyası olan kompyuterdə də özünü aydın göstərir. Belə ki, insan anatomiyasına diqqətlə fikir versək, xəbəri ilk qəbul edən orqanın – mədə və bağırsağın quruluşunun "**@**" formasında olduğunu aydın görmək olar. Maraqlıdır ki, kompüter də internetdən (informasiya mənbəyindən) qəbul etdiyi informasiyanı "**@**" (!) işarəsi altında qəbul edir və ötürür.

Araşdırmalarımız göstərir ki, insandakı üç nöqtəni hər əlin üç barmağı ilə birləşdirməklə (www) istənilən vaxt bəsirət gözünü açıb, paralel aləmdə olan nuru ziyarət etmək mümkündür. O ki, qaldı mədənin üstündə olan "**@**" nöqtəsini sıxıb, ətrafa «komanda» verməyə, bundan yalnız Allahın icazəsi ilə, həm də yalnız bir dəfə 1999-cu ilin dekabrında istifadə edilib (həqqi yəqinlik hasil olması üçün). Komandanın ünvanı isə Yerin cazibəsindən kənarda olan sputnik ötürücü stansiyası olub. Verilən komanda nəticəsində sputnikin fəaliyyəti bir dəqiqəlik dayandığından, Yerdə bütün rabitə, informasiya və translyasiyalar bir dəqiqəlik dayandı. O vaxt bu qeyri-adi hadisə barədə





yayılan informasiyalar çox müəmmalı oldu. Yəni, xəbərlərdə deyildi ki, sputnik yerdən dayandırıldı. Amma, necə dayandırıldı, həmin vaxt ona necə komanda verildi, bu barədə hələ də izah verilməyib (hadisənin elmi izahı artıq qarşınızdadır).

Və nəhayət, aqillərin "kəşf", cahillərin isə "fantaziya" adlandıracağı bu yazını, ikincilərin üstünlük təşkil etdikləri bir dövrdə davam etdirməyə dəyərmi? Elə isə burada mən **nöqtəni sıxıram** (hər mənada)...

## MƏHƏBBƏT HİSSİ AKUMULYATOR FUNKSİYASINI YERİNƏ YETİRİR

"Quran"ın **16**-cı surəsi **"Bal arısı"** adlanır. Qeyd edim ki, ana arı öz balasını **16** gün südlə bəslədiyindən, onun haqqında olan surə də **16** rəqəmi ilə nömrələnib. Sözügedən surədə arının misalında insanlara məhəbbət aşılanır: Bal–arının gülə olan məhəbbətinin nəticəsində yarandığı üçün həm Qərbdə, həm də Şərqdə məhəbbət rəmzi sayılır. Məhəbbət yandırıcı hiss olduğundan, bu söz **"yanmaq", "alovlanmaq"** sözü ilə yanaşı işlədilir. Bu hikmət kimya elmində də özünü eyni rəqəmlər altında büruzə verir. Belə ki, Mendeleyev cədvəlinin **16**-cı elementi olan kükürd məişətimizə **yandırıcı** bir vasitə kimi daxil olub. Həmçinin məhəbbət insana yaşamaq həvəsi, enerji (ruh) verdiyi kimi, kükürdün oksidləşməsindən yaranan sulfat turşusu da ($H_2SO_4$) akkumulyator istehsalında istifadə edilməklə, məişətimizə **enerji mənbəyi** kimi daxil olub.

Məhəbbətdə iki tərəf iştirak edir və biri olmadan o biri "yanmaz". Bu hal kimya elmində də özünü eynilə büruzə verir. Belə ki, **16**-cı element olan **Kükürd** atom kütləsi **16** (!) olan **Oksigensiz** yanmır. Ən maraqlısı da odur ki, Kükürdlə Oksigenin birləşməsində Kükürdün energetik səviyyələr üzrə elektronları **2 – 8 – 6** formasında yerləşir. Bunu da bütöv oxuduqda görürük ki, "Quran"ın səhifələrinin sayına işarədir ("Quran" nazil olandan ta XVIII əsrə qədər harada və nə vaxt çap olunmasından asılı olmayaraq **286** səhifədə yerləşdirilib; bu barədə növbəti fəsillərdə danışacağıq). Qeyd edim ki, **286** ədədinin əbcəd hesabı ilə cəmi (2 + 8 + 6) **16**-ya bərabərdir ki, bu da "Quran"ın insanlara məhəbbət aşıladığını bir daha sübut edir:

***"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda*** *(bu yaradılışda)* ***düşünən bir qövm üçün ibrətlər vardır!"*** *Quran, 30:21.*

Atom kütləsi **16** olan və yanmanı təmin edən Oksigenin sıra nömrəsini (8) Kükürdün məhəbbət rəmzi olan sıra nömrəsinə **- 16**-ya vurduqda (8 x 16) alınan **128** ədədi **«Bal arısı»** surəsinin ayələrinin cəmini göstərir və elementlərlə surələr arasında olan əlaqəni bir daha təsdiq edir.

Diqqətinizi bal arısında olan digər xüsusiyyətin insanlarda özünü göstərməsinə cəlb etmək istəyirəm. Yuxarıda qeyd etdim ki, bal arısı gözəllik rəmzi olan gülə məhəbbət bəsləyir və ancaq onlarla təmasda olur. Xatırladım ki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Arının gülə olan məhəbbətinin nəticəsində **bal** yarandığı kimi, insanın da (kişinin) qadına olan məhəbbətinin nəticəsində **bal**(a) yaranır və hər ikisi şirindir. Çünki ikisi də məhəbbətdən yaranır. **"Bala baldan şirindir"** məsəli də məhz bu hikmətdən doğur. Allah bal arısını həm də ailə, dövlət və ordu qurmaq üçün insanlara nümunə yaradıb. Çünki bal

arısı ailəsi öz zəhmətkeşliyi, çalışqanlığı, ciddi nizam-intizamı, təmizkarlığı və faydalılığı ilə bütün canlılardan üstündür. Məhz buna görə də Allahın məhəbbətini qazanaraq adına surə nazil olmuşdur. Buradan aydın olur ki, həmin keyfiyyətləri özündə cəmləşdirən istənilən insan həm cəmiyyətin, həm də Allahın məhəbbətini qazana bilər.

Bal arısı haqda əlavə olaraq, bir maraqlı məqamı da qeyd edim ki, erkək arı **16** tək xromosoma, dişi arı isə, **16** cüt xromosoma malikdirlər.

***"Siz bir-birinizi sevin ki, Mən də sizi sevim"*** *Allah-taala.*

Yeri gəlmişkən, qeyd edim ki, Allahın məhəbbətini qazanmağın yollarından biri də elmdir. Bu yolda çalışan insan (tələbə) hər kitabdan bir qədər elm (şirə) toplayır və nəticədə onun da əməyi **"bal"**la qiymətləndirilir.

Qeyd edim ki, Rəbbim elmi və imanı çox olan bəndəsini digərlərindən daha çox sevir. Bunu Loğman Peyğəmbərin simasında aydın görmək olur. Belə ki, Allah-taala Kitab verdiyi bir çox peyğəmbərlərin adına "Quran"da surə göndərməsə də, ancaq təbabət elmi bəxş etdiyi bəndəsi Loğmanın (Salam olsun!) adına 31-ci surəni göndərdi.

Bu fakt Rəbbimin elm adamlarına olan məhəbbətinin təzahürüdür.





## 13 ƏDƏDİ İNSANI NİYƏ HƏYƏCANLANDIRIR?

Quranın **13**-cü surəsi ***"Göy Gurultusu"*** adlanır. Göy gurultusunun enerji prosesi olduğu və həyəcan yaratdığı hamıya məlumdur. Surədə deyilir:

***"Göy gurultusu Onun şaninə tariflər deyir. O, ildırımlar göndərib*** *(kafirlər)* ***Allah barəsində mübahisə edərkən, onlara istədiyini vurar. Allahın cəzası şiddətlidir!"*** (13:13).

Maraqlıdır ki, **13** ədədindəki hikmət kimya elmində də özünü büruzə verir. Belə ki, Mendeleyev cədvəlindəki **13**-cü (!) element **Alüminiumdur.** Elektrik ötürmə qabiliyyəti yüksək olduğundan, alüminium energetika (!) sənayesinin özəyini təşkil edir.

**13** rəqəmi həm "Quran"da, həm də **fizikada** həyəcan rəmzi sayılır (göy gurultusu insanda da həyəcan yaradır). Təsadüfi deyildir ki, hidrogen atomunun enerji qəbul etməmiş (həyəcanlanmamış) yükü **13** EV-dur. Hidrogen atomu enerji qəbul etdikdə həyəcanlanır və yükünü ötürməklə boşalır.

İnsanlar arasında bəd xəbərin tez yayılması da həyəcanlanma ilə bağlıdır. Belə ki, bəd xəbərin enerji yükü mənfi olduğundan, onu qəbul edən insan həyəcanlanır və yükünü ötürməyə çalışır. Bu halı atomun və təbiətin həyəcanlanması (göy gurultusu) ilə müqayisə etdikdə, çox böyük oxşarlıq görünür. Həmçinin təbiət öz həyəcanını (yükünü) yağışla boşaltdığı kimi, insan da göz yaşı ilə boşaldır.

Həyəcanlanma ilə bağlı diqqətinizi başqa bir maraqlı məqama da cəlb etmək istəyirəm. Yəqin çoxlarınız fikir vermiş olar: insanda həyəcan yarananda bu həyəcana ilk reaksiyanı bağırsaq verir. Yəni, bağırsaqda kəskin sancı yaranır. **Biologiya** elmi təsdiq etmişdir ki, hər bir insanda bağırsağın uzunluğu **13** (!) metrdir.

Yeri gəlmişkən qeyd edim ki, Mendeleyevdən qabaq yaşamış bir çox kimya alimləri elementlərin dövri cədvəlini yaratmağa çalışsalar da, ömürlərinin sonuna qədər buna nail ola bilməmişlər. Bu cədvəli necə kəşf etməsi barədə suala cavab verərkən, Mendeleyev bildirmişdir ki, cədvəl ona Bakıda olarkən, yuxuda vəhy yolu ilə göstərilmişdir. Səhər tezdən oyanan alim, ona yuxuda vəhy olunan cədvəli kağıza köçürmüşdür. Lakin cədvəldəki bəzi suallara nə özü, nə də ondan sonra gələn alimlər cavab tapa bilməmişlər. Nəzərinizə çatdırım ki, bu və digər kitablarımda oxuduğunuz kimyəvi hesablamalar da bu sətirlərin müəllifinə həmin yolla (Mendeleyevə öyrədilən kimi) öyrədildi və kimyaçılar indiyədək cədvəldə axtardıqları sualların cavabını məhz bu hesablamalarda tapa bilərlər...





## İNSAN ANATOMİYASI NİYƏ 220 SÜMÜYÜN BİRLƏŞMƏSİNDƏN YARANDI?

***"Allah Kainatı riyazi dillə yaratmışdır".***
*Qalileo Qaliley*

Bildiyimiz kimi, kainat fizikanın qanunları (fiziki qanunlar) ilə idarə olunur. Yəni, İlahi sistemdə enerjinin paylanması ilə, fizikada enerjinin paylanması qanunları üst-üstə düşür.

Məsələn, “Quran”da **36**-cı surə *YA SİN* adlanır. İlyas Peyğəmbərə müraciətlə müqəddəs kitabda *"İlyasin"* deyilməsi, bu sözün *"kamil insan", "Peyğəmbər"* sözünün sinonimi olduğunu deməyə əsas verir.

Bildiyimiz kimi, peyğəmbərlər və kəramət sahibləri Allah-taala ilə bəndələri arasında enerji ötürücüsü funksiyasını yerinə yetirirlər. Fizikada isə bu funksiyanı transformatorlar yerinə yetirir. İndi onlar arasında olan riyazi oxşarlıqlara nəzər salaq.

Kamil insanın anatomik quruluşunda **5** duyğu üzvü, **5** oma, **5** bel fəqərəsi; həmçinin baş-beyində **5** şöbə vardır və gündə **5** dəfə ibadət edir. Sadaladığım **5** amili özündə cəmləşdirən kamil insanın – kəramət sahbinin “Quran”dakı rəmzi **36**-dır (*YASİN*).

Maraqlıdır ki, transformatorda da **5** vəziyyət olmaqla, hər vəziyyətdə **36** (!) sarğı olur.

Bildiyimiz kimi, Peyğəmbərin qəbul etdiyi enerji (vəhy) gizli səs, siqnal formasında olur. O, bu siqnalı sözə ÇEVİRMƏKLƏ insanlara çatdırır. Həm də, ha-

mısını deyil, onların şüuru səviyyəsində (həzm edə biləcəyi qədər) ötürür.

Maraqlıdır ki, transformatorun da iş prinsipi eynən bu cürdür. "*Transformasiya*" - ÇEVİRMƏ deməkdir və funksiyası mənbədən qəbul etdiyi yüksək gərginlikli enerjini alçaqgərginlikli enerjiyə (220) çevirib, mənsəbə *(cihazlara)* ötürməkdən ibarətdir.

Bildiyimiz kimi, transformatorlar - *yüksəldici* və *alçaldıcı* olmaqla - iki qrupa bölünür.

**Yüksəldici** transformatorların vəzifəsi qəbul etdikləri enerjini artıraraq ötürməkdən ibarətdir. Onlara nəinki cihaz birləşdirmək, heç yaxınlaşmaq da mümkün deyildir. İnsanı məsafədən vurur. Onun üçün də belə transformatorlar məhəllələrdən kənarda qoyulur və onlarla əlaqə alçaldıcı transformatorun vasitəsi ilə qurulur.

İlahiyyat sistemində bunun misalı vəhy gətirən mələklərdir ki, adi insanların onlarla əlaqəsi nəinki mümkün deyildir, hətta uzaqdan belə onu görməsi ilə mələyin enerji və informasiya yükünə tab gətirə bilməzlər (xatırladım ki, Həzrət Cəbrayıl tərəfindən vəhy Peyğəmbərimizə çox vaxt məhəllədən kənarda – Hira dağında nazil olardı).

**Alçaldıcı** transformatorlar isə, məhəllə (oxu: *cəmiyyət*) daxilində yerləşdirilməklə, yuxarıda qeyd etdiyim kimi, qəbul olunan yüksəkgərginlikli enerjini azaldaraq, cihazların (oxu: *insanların*) tutumuna uyğun – **220**-yə çevirərək, ötürürlər.

İlahi sistemdə bunun misalı peyğəmbər və kəramət sahibləridir ki, qəbul etdikləri vəhyin bir hissəsini özlərində saxlamaqla (informasiya yükünü azaltmaqla) insanların beyin tutumuna (şüur səviyyəsinə) uyğun olaraq cəmiyyətə ötürürlər.





İlahi sistemdə və fizikada enerjinin saxlanması və paylanmasındakı bənzərlik tək bunlardan ibarət deyildir. Belə ki, məişətimizdə istifadə etdiyimiz bütün cihazların üzərində bir qayda olaraq **220** ədədi həkk olunmuşdur.

Maraqlıdır ki, həmin **220** ədədi enerji (ruh) daşıyıcısı olan insanın da üzərinə həkk olunmuşdur. Belə ki, hər bir insanın anatomik quruluşunun **220** (!) sümüyün birləşməsindən yarandığını artıq anatomiya elmi təsdiq etmişdir (bax: anatomiya kitabına).

Diqqətinizi başqa bir maraqlı məqama da cəlb etmək istəyirəm. Fiziklərdə belə bir haqlı sual yaranacaq ki, peyğəmbərlər və kəramət sahibləri də bioloji cəhətdən bizim kimi insanlar olduğu halda, niyə onlar mələyin informasiya və enerji yükünə tab gətirə bilir, başqa insanlar tab gətirə bilmir?

Bu maraqlı sualın da cavabını yenə fizikanın qanunları ilə vermək mümkündür. Belə ki, adətən transformatorların tutumunu artırmaq üçün onu açıb, içindəki sarğıları artırmaqla *(genişləndirməklə)* buna nail olurlar.

Kamil insanlarda da eynən bu cürdür – vəhy qəbul etməzdən öncə onların qəlbində genişlənmə prosesi gedir. Yəni, onların enerji və informasiya götürmə qabiliyyəti artırılır. Bu barədə "Quran"ın ***"Açılıb genişlənmə"*** (94) surəsində belə deyilir:

***"Məgər biz sənin köksünü açıb genişləndirmədikmi?!"*** *Quran, 94:1.*

***Söz ardı:*** qəlbində açılıb - genişlənmə prosesi getməyən bir şəxsin bu mövzunu şərh etməsi mümkünsüz olardı.

## TESTER CİHAZINDAKI FUNKSİYALAR İNSANDA DA VAR

Yuxarıda qeyd etdik ki, Ulu Yaradan Kainatı fizikanın qanunları ilə idarə edir. Odur ki, əvvəlki yazılarımızda peyğəmbərlərin (o cümlədən, kəramət sahiblərinin) cəmiyyətin transormatoru funksiyasını yerinə yetirdiyi barədə hesablamalar vermişdik. Bu yazımızın mövzusu isə, **tester**dir.

Fiziklər bu aparatı yaxşı tanıyırlar. Fizik olmayanlar isə, bu aparatın adını bilməsələr də, özünü çox görüblər. Belə ki, televizor, kompyuter və s. cihazları təmir edən ustaların demək olar ki, hamısının stolunun üstündə tester aparatı olur.

Aparatın çoxsaylı funksiyaları vardır. Belə ki, o həm cihazın daxilində problemi (qırılmış detalı) müəyyən edir, həm də dəyişən (qalxıb-enən) cərəyanı sabit (düzxətli) cərəyana çevirir.

Qeyd edim ki, cihazda olan bu problem enerji (ruh) daşıyıcısı olan insanda da bir çox hallarda özünü biruzə verir. Yəni, insanın halı və yaxud bir məsələyə, bir şəxsə münasibəti gah yaxşı, gah da pis (dəyişkən) olur.

Hələ ta qədimdən - son 50-60 ilə (tibb elmi inkişaf edənə) qədər bu cür problemlərlə qarşılaşan insanlar yaşadıqları ərazidə olan kəramət sahiblərinə (ilkin dövrlərdə peyğəmbərlərə, sonralar Allah dostlarına) üz tutar, dərdlərini onlara danışar və onların xeyirduası, nəfəs vasitəsi ilə ötürdükləri enerjinin təsirindən özlərində sağlam, xoş əhval (oxu: sabit cərəyan) hiss edərdilər və xəstəlikdən sağalardılar.





Araşdırmalarımız göstərir ki, peyğəmbərlərin və digər kəramət sahiblərinin bu funksiyası fizikada tester cihazının funksiyası ilə üst-üstə düşür…

Mövlanə Cəlaləddin Rumi bu cür enerji ötürən insanları mənəvi həkimlər adlandırır və onları maddi həkimlərlə (tibb işçiləri ilə) belə müqayisə edir:

*"O zahir həkimlər başqadır, onlar ürəyə nəbzi tutaraq baxırlar və insanın cismini, əczalarla müalicə edirlər.*

*Mənəvi həkimlər isə, nəbzi tutmadan ürəyə baxırlar və Allahın bəxş etdiyi elmlə (elmi-lədunla) insanın ruhunu müalicə edirlər. Onların dəlilləri kəşf, ilham və sirri-İlahidir".*

Qeyd edim ki, insan ruhunda baş verən qeyri-sabit hallar və xəstəiklər neqativ enerjinin təsirindən yaranır və qorxu, həyəcan, qarabasma, baş, çiyin, oynaq, sinir ağrıları, depressiya və s. xəstəliklərlə özünü biruzə verir.

Bu kimi əlamətləri olan adamların adətən həyatda işləri düz getmir, sağlamlıqlarında, məişətlərində və xoşbəxtliklərində onları daim izləyən problemləri həll etməkdə aciz (çarəsiz) qalırlar (xalq arasında buna qara zolağa düşmə də deyirlər). Belə adamların səhhətində yaranan problemləri maddi həkimlər (tibb işçiləri) əczalarla aradan qaldırmaqda çətinlik çəkirlər; dərmanlarla müalicələr effekt vermir. Çünkü birinci səbəb (neqativ enerji), sonra nəticə (xəstəlik) aradan qaldırılmalıdır.

Təəssüf ki, müasir tibb elmi (bütün digər elmlər kimi) yarımçıq olduğundan və insanda olan ruhu (enerji sistemini) nəzərə almadıqlarından, səbəbə qarşı deyil, nəticəyə qarşı mübarizə aparırlar. Ona görə də insanlarımızın çoxu uzun illər, hətta bəzən ömrü boyu xəstəxana yollarında qalırlar…

Son vaxtlar həkim olaraq iş təcrübəmizdə bu cür hallarla çox qarşılaşırıq və xəstəliyi aradan qaldırmaq üçün ilk növbədə xəstədəki neqativin növünü, səbəbini, daxilolma vaxtını və yolunu təsbit edirik. Daha sonra biometrik sirkulyar proqram vasitəsi ilə pasiyenti neqativ enerjidən təmizləyirik ki, bu vaxt ondakı dəyişən cərəyan sabit cərəyana çevrilir - tester cihazında olduğu kimi. Daxili enerjisi sabitləşmiş insan elə ilk seansdaca bütün ağrıların yox olduğunu və rahatlandığını etiraf edir. Beləliklə, pasiyentdə nə qədər ağır xəstəlik olmuş olsa belə, bir neçə seansa xəstəliklərdən və digər maddi-mənəvi sıxıntılardan azad olur.





## İNSAN ANA BƏTNİNDƏ NİYƏ 286 GÜN QALIR?

Biologiya elmi insanın ana bətnində 280 günə yarandığını bildirir. Əslində isə, insanın ana bətnində yaranış prosesi **286** gün çəkir.

Belə ki, cütlüklər görüşəndən sonra, toxumun ana bətninə çatması **6** gün + bətndə normal inkşaf **280** gün = **286** gün.

Araşdırmalarımız göstərir ki, bu, təsadüfi olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir. Bu qanunauyğunluğu anlamaq üçün aşağıdakı hadisələrə nəzər salaq.

İnsanlar ən çox Günəş və Ay (Qəməri) təqvimindən istifadə etməklə, ildə iki dəfə təqvim dəyişməsini qeyd edirlər: 21 martda və 31 dekabrda. Bu iki bayram arasında qalan günlərin sayı da (Novruz bayramından sayılmaqla) bir qayda olaraq **286** gündür ki, bu da insanın yarandığı günlərin sayına uyğundur.

Maraqlıdır ki, İslamın iki böyük bayramı – **Qurban** və **Ramazan** bayramları arasında qalan günlərin sayı da bir qayda olaraq (Qurban bayramından sayılmaqla), **286** gündür.

Burada diqqət çəkən digər məqam ondan ibarətdir ki, “Quran”ın orjinalı da 286 səhifədən ibarətdir. Yəni, XVIII əsrə qədər (ərəb ölkələrində İslama baxış dəyişənə qədər) çap olunan və Kəbədə, eləcə də dünyanın müxtəlif muzey və kitabxanalarında saxlanılan bütün “*Quran*” kitabları **286** səhifəyə yerləşdirilib.

"Quran"ın 2-ci surəsi olan ***"İnək"*** surəsinin də **286** ayədən ibarət olması təsadüfi deyildir. Belə ki, inəyin anatomik quruluşunun **286** sümüyün birləşməsindən yaranmasını artıq elm də təsdiq etmişdir.

"Quran"a andiçərkən, yaxud, tövbə edərkən üç dəfə təkrarlanır. Bunu riyazi dilə çevirsək: 286; 286; 286. Bunları topladıqda isə, **858** ədədi alınır:

**286 + 286 + 286 = 858**

Elmi-lədun hesablamalarımız göstərir ki, bütün astronomik hadisələr (Günəş və Ay tutulmaları) 286 ədədinin üç misli olan **858** ədədi altında təkrarlanır. Bunu sübut edən və astronomiya elmində etdiyimiz ən böyük kəşflərdən olan iki cədvəli növbəti səhifədə diqqətinizə çatdırırıq.





**858 gün fərqlə baş verən Ay tutulmalarının cədvəli**

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 09.01.2001 | 858 | 16.05.2003 | | | | |
| 05.07.2001 | 858 | 09.11.2003 | 858 | 14.03.2006 | | |
| 30.12.2001 | 858 | 05.05.2004 | 858 | 07.09.2006 | | |
| 24.06.2002 | 858 | 28.10.2004 | 858 | 03.03.2007 | 858 | 07.07.2009 |
| 24.04.2005 | 858 | 28.08.2007 | 858 | 31.12.2009 | | |
| 17.10.2005 | 858 | 21.02.2008 | 858 | 26.06.2010 | | |
| 16.08.2008 | 858 | 21.12.2010 | 858 | 25.04.2013 | | |
| 09.02.2009 | 858 | 16.06.2011 | 858 | 19.10.2013 | | |
| 06.08.2009 | 858 | 10.12.2011 | 858 | 15.04.2014 | | |
| 04.06.2012 | 858 | 08.10.2014 | 858 | 11.02.2017 | | |
| 28.11.2012 | 858 | 04.04.2015 | | | | |
| 25.05.2013 | 858 | 28.09.2015 | 858 | 31.01.2018 | 858 | 5.06.2020 |
| 23.03.2016 | 858 | 28.07.2018 | 858 | 30.11.2020 | | |
| 16.09.2016 | 858 | 21.01.2019 | 858 | 26.05.21 | | |
| 10.01.2020 | 858 | **16.05.2022** | | | | |
| | | | | | | |

***858 gün fərqlə baş verən Günəş tutulmalarının cədvəli***

| Tutulmanın tarixi | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 21.07.2001 | 858 | 23.11.2003 | 858 | 29.03.2006 | 858 | 01.08.2008 |
| 14.12.2001 | 858 | 19.04.2004 | | | | |
| 10.06.2002 | 858 | 14.10.2004 | | | | |
| 04.12.2002 | 858 | 08.04.2005 | | | | |
| 31.05.2003 | 858 | 03.10.2005 | 858 | 07.02.2008 | 858+858 | 13.09.2015 |
| 22.09.2006 | 858 | 26.01.2009 | 858 | 02.06.2011 | | |
| 19.03.2007 | 858 | 22.07.2009 | 858 | 26.11.2011 | | |
| 11.09.2007 | 858 | 15.01.2010 | 858 | 21.05.2012 | | |
| 11.07.2010 | 858 | 14.11.2012 | 858 | 20.03.2015 | | |
| 04.01.2011 | 858 | 10.05.2013 | | | | |
| 01.07.2011 | 858 | 03.11.2013 | 858 | 09.03.2016 | | |
| 29.04.2014 | 858 | 01.09.2016 | 858 | 06.01.2019 | | |
| 24.10.2014 | 858 | 26.02.2017 | 858 | 02.07.2019 | | |
| 11.08.2018 | 858 | 14.12.2020 | | | | |
| 26.12.2019 | 858 | 01.05.2022 | | | | |
| 10.06.2021 | 858 | 14.10.2023 | | | | |





## *İnsan orqanizminin astronomik hadislərlə uyarlığı var*

Hələ astronomiya elmi yaranmamışdan qabaq kahinlər Günəş və Ay tutulmalarını əsrlər boyu qeydə almış və onların sayı üzərində təhlillər aparmışlar. Uzunmüddətli təhlillərdən sonra müəyyən olunmuşdur ki, astronomik hadisələr dövrlərə bölünür və hər dövr 18 il, 11 gün, 8 saatı, və yaxud **6585** sutkanı əhatə edir. Sonradan astronomiya elmi yarandı və astronomlar bu dövrü "**Saros dövrü**" adlandırdılar.

Araşdırmalarımız göstərir ki, bütün Günəş və Ay tutulmaları bir qayda olaraq **6585** gün fərqlə təkrarlanır. Bunu sübut edən cədvəlləri təqdim edirik:

**6585 gün fərqlə baş verən Ay tutulmaları**

| S/№ | Tutulmanın tarixi | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|
| 1. | 10.01.2001 | 6585 | 21.01.2019 |
| 2. | 05.07.2001 | 6585 | 17.07.2019 |
| 3. | 30.12.2001 | 6585 | 10.01.2020 |
| 4. | 26.05.2002 | 6585 | 05.06.2020 |
| 5. | 24.06.2002 | 6585 | 05.07.2020 |
| 6. | 16.05.2003 | 6585 | 26.05.2021 |
| 7. | 05.05.2004 | 6585 | 16.05.22 |
| | Və s | | |

**6585 gün fərqlə baş verən Günəş tutulmaları**

| S/№ | Tutulmanın tarixi | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|
| 1. | 14.12.2001 | 6585 | 26.12.2019 |
| 2. | 04.12.2002 | 6585 | 13.12.2020 |
| 3. | 31.05.2003 | 6585 | 10.06.2021 |
| 4. | 24.11.2003 | 6585 | 04.12.2021 |
| 5. | 19.04.2004 | 6585 | 01.05.2022 |
| 6. | 14.10.2004 | 6585 | 25.10.2022 |
| | Və s | | |

Hər "Saros dövrü"ndə Bir qayda olaraq **71** dəfə astronomik xəbərdarlıq (Günəş və Ay tutulması) baş verir. Bu **71** tutulmanın da bir qayda olaraq **28**-i Ay, **43-**ü isə, Günəş tutulması olur.

Elmi-lədun hesablamalarımız göstərir ki, buradakı **71** ədədi Yerin dərya hissəsinə işarədir (yerin 71 %-i sudan, 29 %-i isə, qurudan ibarətdir).
*Burada diqqət çəkən digər məqam ondan ibarətdir ki, insan orqanizminin də 71 faizi su, 29 faizi isə, quru maddədən ibarətdir.*

Dəryadan söhbət düşəndə gözlərimiz önünə ilk növbədə gəmi və Nuh gəlir. Təsadüfi deyil ki, "Quranın" *«Nuh»* surəsinin sıra nömrəsi də **71**-dir ki, bu da həm dəryalara, həm də "saros dövrü"ndəki **71** tutulmaya işarədir.

**71**-ci surə **28** ayədən ibarətdir ki, bu da «Saros dövrü»ndə olan **28** (!) ay tutulmasının açarıdır:

**71 – 28 = 43**





düsturu isə bir astronomik dövrdə **43** (!) dəfə baş verən Günəş tutulmasının açarıdır.

## *Astronomik hadisələrin təyyarə qəzalarına təsiri*

Yeri gəlmişkən, astronomik hadisəlr təyyarə qəzalarına da təsir edir. Hesablamalarımız göstərir ki, qəzaya uğrayan hər bir təyyarənin üstündəki marka Ay tutulmasından keçən günün sayını göstərir. Məsələn, 30.12.2001-ci il tarixli Ay tutulmasının 727-ci günü "Boeing-727" markalı təyyarə qəzaya uğrayıb. Həmin tutulmanın 737-ci günü isə, "Boeing-737" qəzaya uğrayıb (daha ətraflı aşağıda tərtib etdiyimiz cədvəldə)

**Təyyarə qəzalarının Ay tutulmaları ilə əlaqəsini sübüt edən cədvəl**

| Sıra №-si | Ay tutulmasının tarixi | Aradan keçən günlərin sayı | Qəzaya uğrayan təyyarənin markası | Qəzanın baş verdiyi yer | Qəzanın baş verdiyi tarixi |
|---|---|---|---|---|---|
| 1 | 30.12.2001 | 727 | "Boeing-727" | Afrika | 26.12.2003 |
| 2 | 30.12.2001 | 737 | 737 | Afrika | 03.01.2004 |
| 3 | 08.09.2005 | 737 | 737 | Perm | 14.09.2008 |
| 4 | 17.08.2008 | 747 | 747 | Səudiyyə | 04.09.2010 |
| 5 | 19.10.2013 | 737 | 737 | Riqa-Brüssel | 26.10.2015 |
| 6 | 25.05.2013 | 737 | 737 | Moskva (Domededovo) | 30.05.2015 |
| 7 | 19.10.2013 | 200 | "Bombardier CKJ-200" | Los-Anceles | 12.05.2015 |
| 8 | 15.04.2014 | 286+286 | Boeing-777 | Xabarovski | 08.11.2015 |
| 9 | 11.08.2018 (Günəş tutulması) | 200 | "Golfstrim G-200" | Sermetovo | 26.02.2019 |
| 10 | 06.01.2019 | 777 | Boeing-777 | ABŞ (Kolorado) | 21.02.2021 |

## ƏSƏB XƏSTƏLİYİNİN SİRLƏRİ

Həkim olaraq neçə illərdir ki, ruhi-əsəb xəstələri ilə (o cümlədən autizm sindromlu, əqli geriliyi olan uşaqlarla) işləyirəm. Təcrübəmdən bilirəm ki, bu cür xəstəliklərin yaranma səbəbi ilk növbədə xəstənin anasıdır (sizə qəribə gəlsə də belədir!). Yəni, ana hələ gənc olanda, (xəstə uşağı dünyaya gətirməzdən qabaq) ona neqativ enerji ötürülür. Bu enerji ilk vaxtlar onu gecələr diksindirir, qorxu, həyəcan, panika... yaradır. Baş, çiyin, onurğa və s ağrıları olur. Süd vəzilərində və analıq orqanlarında müxtəlif problemlərdən (kistalar, mastapatiya, miomatik düyünlər...) biri, yaxud, bir neçəsi yarana bilir. Qorxulu yuxular (ilanlar, vəhşi heyvanlar...) görür. Yuxuda boğulmalar, qarabasmalar, yatarkən üstünə ağırlıq çökdüyünü hiss edir, depressiv hallar keçirir. Lakin, bunların fərqinə varmır. Nəhayət, bütün bu neqativ əlamətlərlə birlikdə, hamiləliyi səbəbsiz ağlamalarla, əsəbi halda başa vurur və dünyaya neqativ enerjiyə yoluxmuş uşaq gətirir. Uşaq əsəbi böyüyür, çox hallarda skalyozu və s problemləri olur. Bu cür gərgin keçən hamiləlikdə çox hallarda əsəbi, yaxud, autizm sindromlu, əqli geriliyi olan uşaqlar doğulur.

Bəzi hallarda bu problemlər uşaqlıq dövründə görünmədikdə yetkinlik yaşına çatan kimi bütün problemləri çox yüksək qabarır, əsəblərini cilovlaya bilmir.... Ana hələ də başa düşmür ki, günahkar onun viruslu (neqativ enerji dolmuş) bətnidir; doğmaqda davam edir. Bu cür anaların ən çox birinci doğulan uşağında əsəb problemi olur. Həmin birinci uşaq illərlə psixatr müalicəsi alsa da faydası olmur...





...Birinci uşağı doğandan sonra ana bir qədər rahatlanır. Çünki, bədənindəki neqativ enerjinin çox hissəsini birinci uşaqla bərabər atır – yəni, ilk övlada ötürür. Sonrakı hamiləliklərində səbəbsiz ağlamır, az əsəbləşir... Doğulan sonrakı uşaqlarda problem nisbətən az olur. Lakin, birinci uşaq ya autizmli olur, ya da bir az böyüyəndən sonra başlayır anasını ağlatmağa... Yəni ana hamiləlik dövründəki kimi səbəbsiz ağlamasa da, birinci doğduğu uşağa baxıb ağlayır. Uşağın o qədər böyük dərdləri olur ki, ana ona baxıb daim içində ağlayır. Amma, nə edəcəyini bilmir. Tibb elmindən, kimyəvi dərmanlardan başqa heç bir vasitə haqqında doğru düzgün məlumatı yoxdur, artıq heç nəyə inanmır. Bir qədər psixotrop dərmanlardan yedizdirir... Dərmanların təsirindən uşaq daha da süstləşir, sevgi hissi olmur, key kimi gəzir, ya da bir küncdə oturur, bir çox hallarda hormonal dəyişiklik baş verdiyindən cinsini tanımır. Dərmanını kəsəndə isə, əsəbləşib, valideynlərini döyür...

Böyüdükcə güclənir və idarəolunmaz vəziyyətə gəlir... Nəhayət, bizim haqqımızda eşidib, qəbulumuza gəlirlər. Öncə qeyd edim ki, bu cür əsəb (yaxud autizm sindromlu) xəstələr ilk seanslarda bizi yaxın buraxmaq istəmirlər, mümkün qədər müqavimət göstərməyə çalışırlar. Bunun səbəbi odur ki, ilk gəldiklərində onlarda neqativ enerji çox güclü olur. Biz onunla biometrik sirkulyar proqram vasitəsi ilə işlə-

dikcə ötürdüyümüz müsbət enerji ondakı mənfi enerji ilə toqquşur. Xəstə iki əks enerjinin arasında qalıb sıxılır. Bu hal onu əsəbləşdirir. Ancaq bu hal (sıxılma) hər seansda bir qədər azalır. Getdikcə onun bədənində neqativ enerji azalır (kiçilir), müqavimət və sıxılma da azalır. Beləliklə, üç seansdan sonra xəstə bizə müqavimət göstərmir; əksinə, seans almağa can atır. Ona görə də valideynlər bir qədər səbirli olub, bizə vaxt tanımalıdırlar. Xəstənin yox, həkimin sözünü əsas götürüb, məsləhətlərimizə qulaq asmalıdırlar. Belə etsələr, ruhi-əsəb dispanserlərində nə qədər xəstə varsa, hamısını az vaxtda sağaltmaq mümkündür (amma, hanı elə ağıllı, dünya görüşü olan valideyn?) Ağıllı və dərrakəli valideyin bilərdi ki, ruhi xəstəliyin tibbə aidiyyəti yoxdur. İnanmırsınızsa əsəb dispanserindən çıxanlarla maraqlanın, görün son əlli, yüz ildə oradan çıxanlardan bir iş-güc sahibi olan, ailə dolandıran olubmu? Görəcəksinizki olmayıb. Deməli burada heç bir əsəb xəstəsi  müalicə olunmayıb. Elə isə, hansı ağılla, məntiqlə öz övladnızın sağlamlığını onlara etibar edirsiniz?

Uşaqların ruhi-əsəb xstəlikləri ilə doğulmasına səbəb cəmiyyətin (özəlliklə də qadınların) enerji sahəsində maariflənməməsidir. Maariflənsəydilər niyə səbəbsiz ağladıqlarının, qarabasmalarının və s yuxarıda sadaladığım halların nəyin əlamətləri olduğunu, necə aradan qaldırmaq lazım olduğunu bilərdilər. Onda uşaqları da əsəbi doğulmazdı və indi onlara baxıb ağlamazdılar... Bu kitabı yazımaqda məqsədimiz insanları bu sahədə maarifləndirməkdir.





## ONURĞA ORQANİZMİN ANTENİDİR

Son vaxtlar insanlar arasında onurğa xəstəlikləri kəskin şəkildə artmışdır. Demək olar ki, hər ailədə azı bir nəfərin skalyoz, kipoz, fəqərələrarası diskin sürüşməsi, kirəcləşməsi, yırtıq və s onurğa xəstəliklərinin birindən əziyyət çəkməsi şübhəsizdir. Sual yaranır: niyə son dövrlər onurğa xəstəlikləri bu qədər artıb? Araşdırmalarımız göstərir ki, onurğa orqanizmin anteni funksiyasını yerinə yetirir. Necə ki, televiziya, radio, telefon və s cihazlar onlara ötürülən dalğaları antenlər vasitəsi ilə qəbul edirlər, orqanizm də Kainatdan gələn enerji dalğalarını məhz onurğa vasitəsi ilə qəbul edir, oradan bədənə paylanır. Kainatdan həm mənfi, hm də müsbət enerji dalğaları gəlir. Son dövrlər insanlar günah işlərlə daha çox məşğul olduqlarından, biri-birlərinə həsəd, paxıllıq etdiklərindən, pis nəzərlə baxdıqlarından, onlardan daha çox neqativ enerji ayrılır və qarşılarındakı insana ötürülür (müsbət enerji günahsız, nəfissiz insanlardan ayrılır ki, bunların da sayı cəmiyyətdə çox azdır). Bu cür neqativ enerji axımını ilk qəbul edən üzv onurğa olduğundan, onda ilk növbədə ağrılar, sonra isə, disk sürüşməsi, kirəcləşmə, yırtıq və s yaranır. Adətən, insanlar onurğadakı bu fəsadların mahiyyətinə varmayaraq, ağrıkəsicilərdən istifadə etməklə, yaxud, cərrahi  müdaxilə ilə problemi ötüşdürməyə çalışırlar. Nəticədə onurğadakı neqativ enerji digər orqanlara keçir. Bu vaxt bəzi hallarda beldəki ağrılar dayanır, amma, digər orqanlarda

yaranan xəstəliklər onurğadakından daha ciddi olur. Belə ki, bu mərhələdə insanda limfa şişləri, böyrək xəstəlikləri, poliplər, prostatın böyüməsi və s xəstəliklər müşahidə olunmağa başlayır. Xərçəng xəstələri arasında apardığımız araşdırmalar göstərir ki, bu xəstəlikdən əziyyət çəkənlərin böyük əksəriyyəti daha əvvəl onurğa (bel) ağrısından əziyyət çəkiblər. Eləcə də qadınlar arasnda geniş yayılmış süd vəzi və analıq orqanlarının xəstəlikləri (kista, mastopatiya, miomatik düyünlər və s) də onurğa ağrılarından sonra yarandığı aydın olur ki, bu da neqativ enerjinin onurğadan sonra həmin orqanlara ötürülməsi səbəbindəndir.



Biometrik sirkulyar proqram əsasında araşdırmalarımız göstərir ki, bütün bunlardan əlavə, onurğaya daxil olan neqativ enerji həm də oradan keçən sinirləri sıxır. Buradan keçən sinirlər yeddi qat təbəqənin içərisində yerləşir. Neqativ enerji fəqərələrdə sürüşmə, yırtıq yaratdıqda buradan keçən sinir sisteminin üstündəki qatlardan biri, yaxud, bir neçəsi zədələnir. Nəticədə insanda əsəb, sinir ağrıları və yaxud, miqren yaranır. Bu ağrıların tibbi müalicəyə tabe olmaması





da onların neqativ enerjidən yaranması barədə söylədiklərimizi bir daha təsdiqləyir. Onurğada toplanmış neqativ enerji həmçinin, insanda yorğunluq, halsızlıq, depressiya, yuxu pozğunluğu, panikatak, nevrozların, qıç ağrılarının, oynaqlararası qişanın yeyilməsi və s xəstəliklərin yaranmasına səbəb olur. Tibb elmində neqativ enerjiyə təsir edən vasitə kəşf olunmasa da, bizim yaratdığımız biometrik sirkulyar proqramla qısa vaxtda neqativ enerjidən təmizlənmək və yaranmış xəstəlikləri sağaltmaq mümkündür.

Son dövrlərdə Aərbaycanda sağala bilməyən xəstələrin bir qismi xaricdəki klinikalara üz tuturlar. Onların böyük əksəriyyəti qayıdanda tam sağaldıqlarını deyirlər. Amma, bir neçə aydan sonra onların səhhəti ilə maraqlansanız görəcəksiniz ki, həmin tanışınızın sağalmış xəstəliyi, yaxud, digər bir orqanı kəskin şəkildə xəstədir və yenidən xaricə müalicəyə getməyə hazırlaşır.

Sual yaranır: necə olur ki, insan xaricdən sağalaraq qayıdır, amma, bir neçə aydan sonra əvvəlkindən daha kəskin xəstələnir? Yuxarıda qeyd etdik ki, bütün xəstəliklərin səbəbi (fundamenti) neqativ enerjidir. Bu enerji orqanizmə onurğa vasitəsi ilə daxil olur. Ona görə də onurğanı orqanizmin anteni adlandırdıq. Xəstə insan müalicə üçün (və s məqsədlə) ölkəni tərk edəndə yaşadığı yerdən bir neçə min km uzaqlaşdıqda kəmiyyət dəyişikliyi keyfiyyət dəyişikliyinə keçir. Mobil telefonumuz Wi-Fi-dən uzaqlaşanda dalğaları tuta bilmədiyi kimi onurğa da əvvəlki (evdəki) dalğaları tuta bilmir. Beləliklə, əlaqə kəsilir. Bir qədər ora-

da qalıb, müalicə aldıqda asanlıqla sağalır. Ancaq yaşadığı yerə qayıdan kimi, yenidən həmin enerji dalğalarının təsirinə məruz qalır və əvvəlki proses (neqativ enerjinin hansısa orqanın üzərinə toplanması) təkrar baş verir. Nəticədə bir neçə aydan sonra həmin şəxs əvvəlkindən daha kəskin vəziyyətlə üzləşir.

Sizə bir sirri də açım ki, müalicə üçün xaricə üz tutan xəstələr heç həkimə getməyib, sadəcə 21 gün ərzində orada yaşasalar, bu müddətdə görəcəklər ki, ağrıları keçdi və özlərini çox sağlam və gümrah hiss edəcəklər. Amma, evlərinə qayıdandan sonra yenə də eyni problemi yaşayacaqlar. Bu cür halı gündəlik həyatınızda sizin hər biriniz yaşayırsınız, ancaq mahiyyətinə varmırsınız. Belə ki, yaşadığınız şəhərdən, yaxud kənddən çıxıb, uzaq bir bölgədə olan qohumunuzun evinə qonaq gedəndə görürsünüz ki, evinizdə olan ağrılar (baş, bel və s) burada qaldığınız müddətdə baş vermir. Evinizə qayıdanda həmin ağrıların təkrar baş verdiyini görürsünüz. Çoxunuz bunu havayla, iqlimlə əlaqələndirirsiniz. Əslində isə, bu, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə səbəb olmasındandır. Yəni, evinizdə sizə təsir edən neqativ dalğaların uzaqda həmin formada təsir edə bilməməsi səbəbindəndir.

Amma, elə bilməyin ki, xaricə gedən adamlar bu neqativ enerjinin dalğalarından birdəfəlik qurtula bilirlər. Əsla yox! Onların problemləri sadəcə keyfiyyət cəhətdən başqa bir mərhələyə keçir. Yəni, burada ağrıyan orqanları daha ağrımır. Orada başqa orqan ağrımağa başlayır. Yaxud, insan başqa bir (maddi, mənəvi, şəxsi həyat, ailə münaqişəsi...) problemi yaşamağa





başlayır. Araşdıranda görürük ki, məkanı dəyişdikdən sonra neqativ enerji insana başqa bir formada təsir etməyə (mane olmağa) başlayır... Bütün bu sirləri ona görə izah etdim ki, insanlar xəstələnərkən Dünyanı fırlanmaqdansa, ətək-ətək pullar xərcləməkdən, ağır cərrahi əməliyyatlara girməkdənsə, elə öz ölkəsində biometrik sirkulyar proqram vasitəsi ilə neqativ enerjidən təmizlənsə və ildə bir-iki dəfə havasını, suyunu dəyişsə həmin insanda heç vaxt xəstəlik olmaz və uzunömürlü olar.

Həkim olaraq məsləhət görərdik ki, onurğa ağrısı olan insanın paltarından, yatağından sağlam adamlar istifadə etməsinlər. Əks halda həmin ağrılar sağlam adamda da görünməyə başlayır. Bu neqativ enerjinin paltar, yataq vasitəsi ilə ötürülməsi ilə əlaqədardır. Bunu nəzərə alıb, gərək ailəli qadınlar boşanmışların paltarından, yatağından istifadə etməsinlər. Çünki, boşanmaların 90 faizindən çoxu neqativ enerjinin təsirindən baş verir ki, bu enerji də geyim və yataq əşyaları vasitəsi ilə insana təsir edir, ailə problemləri ilə üz-üzə qoyur...

## BİOMETRİK SİRKULYAR PROQRAMLA XƏRÇƏNGİN MÜALİCƏSİ MÜMKÜNDÜR

Bu gün bəşəriyyətin başı üzərində xərçəng adlı bir kabus dolaşmaqdadır. Tibb elmi insanları bu kabusdan qorumaqda aciz qalıb. Statistik məlumatlara görə 2021-ci ildə Azərbaycanda 13.500 nəfərə bədxassəli şiş diaqnozu qoyulub. Bu rəqəmi günə bölsək gözlərimiz önündə daha dəhşətli mənzərə yaranır: tibb müəssisələrində hər gün 35 nəfərə bu sağalmaz xəstəliyin diaqqnozu qoyulur. Başqa ölkələrlə müqayisədə, Azərbaycan kimi kiçik bir dövlətdə bu çox böyük göstəricidir və həyəcan təbilini çalmağın vaxtıdır.

### *Xərçəng xəstəliyi nədən yaranır?*

Tibb elmi bu xəstəliyin süni qidalardan yarandığını iddia edir. Elədirsə sual yaranır: ailədə olan məsələn, beş nəfərin hamısı eyni qidalarla qidalanırsa, eyni sudan içirsə, niyə ailənin hamısında deyil, ancaq birində xərçəng yaranır? Buradan aydın olur ki, xəstəliyin yaranmasında qidalanma əsas faktor olmayıb, sadəcə katalizator rolunu oynayır.

Həkimlik təcrübəmiz və araşdırmalarımız göstərir ki, əslində xərçəng şişini yaradan səbəb Kainatdan, cəmiyyətdən, insanlardan (ümumiyyətlə, ətraf aləmdən) gələn neqativ enerjilərdir. Yuxarıda qeyd etdiyimiz kimi, bu enerji ilk olaraq onurğada toplanır və ağrılar, protuziya, yırtıq və s problemlər yaradır. Tibbi müdaxilə edilərək müxtəlif mazlar, dərmanlar... vurulduqca neqativ enerji onurğadan daxili orqanlara doğru hərəkət edir. Bu enerji hansı orqanın üzərində toplanırsa, həmin orqanın funksiyası pozulur. Beləliklə, orqan neqativ enerjidən təmizlənməsə bir müddətdən sonra burada müxtəlif növ şişlər yaranır. Bu şişlər bəzən xoşxassəli, bəzən isə, bədxassəli (xərçəng) olur. Yeri gəlmişkən, qeyd edək ki, qadınların süd vəzilərində və analıq orqanlarında tez-tez rast gəlinən kistalar, miomatik düyünlər, endometroz... da kənardan orqanizmə daxil olan neqativ enerjinin həmin orqanlarda toplanması səbəbindən yaranır...





### *Doğurdanmı, xərçəngin dərmanı yoxdur?*

Hazırda tibb elmi xərçəngin qarşısını almaq üçün (daha doğrusu inkişafını ləngitmək üçün) cərrahi müdaxilədən və bəzi kimyəvi terapiyyadan istifadə etməsinə baxmayaraq, bir neçə ildən sonra şişlər metastaz verərək digər orqanlara yayılır. Beləliklə, bu xəstəliyin tibbi yolla müalicəsinin olmadığı qənaətinə gəlinir.

Bizim tətbiq etdiyimiz biometrik sirkulyar proqram isə, bunun tam əksini göstərir. Bu proqramla ilk öncə orqanizm neqativ enerjidən təmizlənir. Daha sonra şişlər əridilməyə başlayır. Elə başlanğıcdan xəstənin ağrıları azalmağa, əsəbi sakitləşməyə, yuxusu normallaşmağa başlayır. Seanslar davam etdikcə şiş

kiçilərək, bir neçə aya tamamilə yox olur. Təcrübəmizdən məlumdur ki, üçüncü dərəcəyə qədər xərçəng şişləri çox asanlıqla əriyərək, bir neçə aya tamamilə yox olur. Dördüncü dərəcədə xəstəlik metastaz verdiyinə görə şişləri  tamamilə yox etmək çətin olur (bəzən mümkün olmur). Lakkin bu halda da biometrik sirkulyar proqram vasitəsi ilə xəstənin bədənində olan bütün ağrıları, əsəbi, qorxu və həyəcanı yox etmək, yuxunu normallaşdırmaq mümkündür.





## MENDELEYEV CƏDVƏLİ NİYƏ SAXTALAŞDIRILDI?

Mendeleyev sağ olarkən onun tərtib etdiyi cədvəldə "Nyutoniyum" adlı element olmuşdur. Mendeleyevin ölümündən (1907) sonra onun tərtib etdiyi Elementlərin Dövri Sistemi saxtalaşdırıldı və həmin element cədvəldən çıxarıldı. Sübut üçün kitabxanaların fondunda 1906 ci ildə nəşr olunan "Kimyanın əsasları" kitabına (8-ci nəşr) baxmaq kifayətdir. İndiki cədvəllərdən fərqli olaraq, həmin cədvəldə sıfır qurupu vardır və bu qurupda yeganə element "Nyutoniy"dir (indiki cədvəllər birdən (Hidrogendən) başlayır).

**Подлинная, нефальсифицированная Таблица Д. И. Менделеева**
**«Периодическая система элементов по группам и рядам»**
**(Д. И. Менделеев. Основы химии. VIII издание, СПб., 1906 г.)**

| | группы элементов | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ряды | 0 | I | II | III | IV | V | VI | VII | VIII | | |
| 0 | Ньютоний | | | | | | | | | | |
| 1 | Короний | Водород **H** 1,008 | — | — | — | — | — | — | | | |
| 2 | Гелий **He** 4,0 | Литий **Li** 7,03 | Бериллий **Be** 9,1 | Бор **B** 11,0 | Углерод **C** 12,0 | Азот **N** 14,01 | Кислород **O** 16,00 | Фтор **F** 19,0 | | | |
| 3 | Неон **Ne** 19,9 | Натрий **Na** 23,05 | Магний **Mg** 24,36 | Алюминий **Al** 27,1 | Кремний **Si** 28,2 | Фосфор **P** 31,0 | Сера **S** 32,06 | Хлор **Cl** 35,45 | | | |
| 4 | Аргон **Ar** 38 | Калий **K** 39,15 | Кальций **Ca** 40,1 | Скандий **Sc** 44,1 | Титан **Ti** 48,1 | Ванадий **V** 51,2 | Хром **Cr** 52,1 | Марганец **Mn** 55,1 | Железо **Fe** 55,9 | Кобальт **Co** 59 | Никель **Ni** 59 |
| 5 | | Медь **Cu** 63,6 | Цинк **Zn** 65,4 | Галлий **Ga** 70,0 | Германий **Ge** 72,5 | Мышьяк **As** 75 | Селен **Se** 79,2 | Бром **Br** 79,95 | | | |
| 6 | Криптон **Kr** 81,8 | Рубидий **Rb** 85,5 | Стронций **Sr** 87,6 | Иттрий **Y** 89,0 | Цирконий **Zr** 90,6 | Ниобий **Nb** 94,0 | Молибден **Mo** 96,0 | — | Рутений **Ru** 101,7 | Родий **Rh** 103,0 | Палладий **Pd** 106,5 |
| 7 | | Серебро **Ag** 107,93 | Кадмий **Cd** 112,4 | Индий **In** 115,0 | Олово **Sn** 119,0 | Сурьма **Sb** 120,2 | Теллур **Te** 127 | Иод **I** 127 | | | |
| 8 | Ксенон **Xe** 128 | Цезий **Cs** 132,9 | Барий **Ba** 137,4 | Лантан **La** 138,9 | Церий **Ce** 140,2 | — | — | — | — | — | — |

Kimyəvi işarəsi “X” olan bu element cədvəlin yuxarı sol küncündə yerləşirdi. Bu maddəyə alimlər "Dünya efiri" də deyirdilər. Cəvəldə “Efir” “Hidrogen”dən əvvəl yazılmışdı; sıfır qrupuna, sıfır sırasına daxil edilmiş yeganə element idi. Atom çəkisi 0,4 olan bu element əsl enerji daşıyıcısıdır.

“Efir”in hissələri atomları, molekulları formalaşdırır, amma, kimyəvi reaksiyalarda iştirak etmir. Efir - maddənin bir hissəsidir (belə deyək ki, ruhudur, enerjisidir).

Mendeleyevin vəfatindan (1907) sonra, bəşəriyyətin tərəqqisini (əsasən də elmi tərəqqisini) istəməyən mafiyoz qüvvələr cədvəl üzərində dəyişiklik edib, Nyutoniyum (“Efir”) elementini oradan xaric etdilər və “sıfır” qrupunu ləgv etdilər. Beləliklə də, bir çox sirləri bəşəriyyətdən qizlətmiş oldular. Ona görə də müasir cədvəldə “Efir” görsənmir. Çünkü “0” qrupu mövcud deyil.

Bu cür saxtalaşdırma kimya, fizika, biologiya və tibb elmlərinin gələcək inkişafına zərbə vurmaqla, sivilizasiyanın tərəqqisini dayandırdı. Hazırda məktəblərdə və Ali təhsil müəssisələrində (o cümlədən tibb universitetlərində) Mendeleyev cədvəli yarımçıq tədris olunur ki, bu da açıq saxtakarlıqdan başqa bir şey deyildir.

Böyük alim Nikola Tesla (1856–1943) “Efir”dən energi alınmasının mümkünlüyünü sübut etdi. Alim bu elementin sirrini bilməklə, daimi işləyən mühərrik yaratdı. Daha sonra, enerjinin naqilsiz paylanmasını kəşf etdi. Bu da onun karyerasının sonunu gətirdi: hoteldə qaldığı otaqda müəmmalı şəraitdə ölü tapıldı. Dərhal onun otağından bütün əlyazmalarını, elmi işlərini kəşfiyyat xidməti yoxa çıxardı.





Oxucuda sual yaranacaq ki, “Efir” (Nyutoniyum) elementi və onun faydaları bəşəriyyətdən niyə belə ciddi-cəhdlə gizlədilir?

Səbəb budur ki, element Kainatın enerjisini, ruhunu təşkil edir. “Efir”in varlığını, onun sirrini bilmədən Kaninatı, yaradılışı dərk etmək mümkünsüzdür. Bu gün bəşəriyyəti istismar edən böyük güclərə (mafiyalara) insanların dərrakəli olması maraqlı deyil. Çünki, ağıllı, dərrakəli insanı istismar etmək çətindir.

Həmçinin, daimi işləyən mühərriklərin həyata tətbiq edilməsi enerji resurslarına nəzarət edən mafiyaların marağına uyğun deyildir.

Eləcə də bütün xəstəlikləri bu elementin vasitəsi il dərmansız sağaltmaq dərman istehsalı ilə məşğul olan böyük şirkətlərə (mafiyalara) də sərf etmir.

### *“Efir” enerjisi bütün xəstəliklərin dərmanıdır*

Yuxarıda qeyd etdiyimiz kimi, Elementlərin Dövri Sistemindən “Efir”in (Nyutoniyumun) çıxarılması kimya, fizika və biologiya elmlərinin inkişafının qarşısını aldığı kimi, tibb elminə də böyük zərbə vurdu. Tibb elmi adını çəkdiyim elmlərə bağlı olduğundan, onlar kimi yarımçıq qaldı.

Təcrübəmiz göstərir ki, “Efir” elementinin sirlərini dərindən bilməklə, bundan bütün xəstəliklərin, o cümlədən xərçəng, parkinson, epilepsiya, dağınıq

skleroz və digər tibbin sağalmaz hesab etdiyi xəstəlikləri uğurla müalicə etmək mümkündür. Qeyd edək ki, neçə illərdir bizim yaratdığımız və sağlamlığa tətbiq etdiyimiz biometrik sirkulyar proqramı da bu elementin sirlərini bilməklə yaratmışıq. Bu illər ərzində on minlərlə insan bu proqramla şəfa tapıb, yaxud, həyatda onu izləyən maddi-mənəvi sıxıntılardan xilas olub.





## NEQATİV ENERJİ İNSANA NECƏ YÜKLƏNİR?

Biometrik sirkulyar proqrama görə bütün xəstəliklərin özülünü (fundamentini) neqativ enerji təşkil edir. Yəni, xəstəliyi binaya bənzətsək, onun fundamenti neqativ enerjidir (bəd nəzərlər, magik təsirlər və s.). Xəstə həkimə müraciət edərkən onu diaqnostik aparatlardan keçirib, diaqnoz qoyurlar və "binanı" sökməyə (xəstəliyi müalicə etməyə) başlayırlar. "Fundament"ə (neqativ enerjiyə) qədər "sökülmə" çox uğurla gedir; bura çatdıqda isə, müalicə dayandırılır. Çünkü, tibb elmi və diaqnostik aparatlar neqativ enerjini görməkdə acizdir. Beləliklə, xəstə özünü sağalmış hiss edir və aparatlar, analizlər də onun sağlamlığını təsdiq edir (bu, çayır bitkisinin gövdəsini kəsib, kökünü saxlamağa bənzəyir). Beləliklə, xəstə sağlam halda evə buraxılır.

Lakin, "fundament" (neqativ enerji) orqanizmdə qaldığından, az müddət keçəndən sonra xəstəlik təkrar (bəzən daha kəskin formada) dirçəlməyə başlayır. Belə hallarda pasiyent təkrar həmin klinikaya yox, başqa klinikaya, yaxud xaricə üz tutur və yenə də eyni halla qarşılaşır... Beləliklə, karusel yaranır...

Bütün bunların səbəbi insanların Kainatdan, ətraf aləmdən gələn enerjiləri dərk etməməsi, onları nəzərə almamasıdır.

Araşdırmalarımıza görə keçən əsrin 80-ci illərindən sonra şeytani dövr başladı. Həimn vaxtdan cəmiyyətdə

"vergi verilən" adamların sayı həddən artıq artmağa başladı. Onların böyük əksəriyyəti falçı və cadugərlər idi. İnsanlar bunun fərqinə varmadan (qanmazcasına) onların qapısına axışdılar. Hətta, onların qəbuluna düşmək üçün günlərlə qapısında növbə gözləyirdilər. İnsanlar baxmadılar ki, Allah-təala həmin sehirbazlar (falçı və cadugərlər) haqda "Quran"da belə buyurur:

"Onlar Süleymanın səltənətinə dair şeytanların oxuduqlarına (sehr kitablarına) uydular. Süleyman bu kitablara uymadığı (pis məqsədlə istifadə etmədiyi) üçün kafir olmadı, lakin şeytanlar bildikləri sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki o iki mələk: "Biz Allah tərəfindən göndərilmiş imtahanıq (sınağıq), sən gəl kafir olma!" – deməmiş heç kəsə sehr öyrətmirdilər. Bununla belə cadugərlər yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar (cadugərlər) ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar belə şeyləri satın alanların (Allahın kitabını şeytan əməlləri ilə mübadilə edənlərin) axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!" Quran, "İnək" surəsi, 102.

Ayədən göründüyü kimi, Süleymanda belə bir kitab olmuş və cinləri həmin kitabda yazılmış dualarla buyurmuşdur. Lakin, Süleyman Peyğəmbər dünyasını dəyişdikdən sonra həmin kitab sonrakı nəsillərin əlinə keçmiş, onlar da kitabda yazılanlardan ər-arvad (yaxud, qohumlar, dostlar...) arasına nifaq salmaq və digər fitnə-fəsad məqsədlər üçün istifadə etməkdədirlər... Təəssüf ki, bu gün həmin kitab bir çox mollaların və cadugərlərin stolüstü kitabıdır. Bunun nəticəsidir ki, bu gün cəmiyyətimizdə boşanmaların və psixi xəstəliklərin (autizm, əqli gerilik, şizofreniya və s), ziyanlı vərdişlərin sayı görünməmiş həddə çatmışdır. Bəzi evlərdə əşyaların tez-tez sirli şəkildə yoxa çıxması (az vaxtdan sonra həmin əşyalar elə yerdə tapılır ki, ora bəlkə min dəfə baxılmışdı), kəndlərdə kütləvi hal alan sirli yanğınlar da bunun əlamətlərindəndir.





Sehirin (cadunun) digər əlamətləri insanda baş, boyun ağrıları, immunitetin azalması (nəticədə cürbəcür xəstəliklərin baş qaldırması), əsəbilik, yuxusuzluq, qorxulu yuxular görmə, qarabasma, yuxuda diksinmə, depressiya və s. kimi özünü biruzə verir. Bu cür hallarda insan özünə qapanır, həyat eşqi, məhəbbət hissi ölür, qəlbində ətrafdakılara qarşı nifrət hissi baş qaldırır. Beləliklə, sevdiklərindən uzaqlaşmağa çalışır (ağır hallarda intihara meyilli olur).

Virus kompyuteri necə dondurursa, fayl və proqramları necə silirsə, neqativ enerji də insanın həyatını (fəaliyyətini) elə dondurur və qəlbindəki məhəbbət hissini silir (əvəzində nifrət, şübhə, panika... kimi ziyanlı "fayl"lar yazır).

Təssüf ki, bu gün cəmiyyətimizin böyük əksəriyyəti bu və ya digər formada ötürülən neqativ enerjinin təsirinə məruz qalıblar və istirab içində qıvrılırlar (bəzilərinin ailəsi dağıllıb, bəziləri ağır xəstəliyə düçar olub, bəzilərinin ruzisi kəsilib...). Lakin, düşdükləri

vəziyyəti düzgün qiymətləndirə (anlaya) bilmirlər. Çoxusu bunu Allahdan görür və oturub gözləyirlər. Əksəriyyəti heç çıxış yolu da axtarmırlar (onların əvəzində yaxınları narahat olurlar). Çıxış yolu axtaranlar da çox vaxt yenə də falçı və cadugərlərə üz tuturlar. Halbuki, onu bu vəziyyətə salan elə həmin cadugərlərdir. Onlara üz tutmaqla insanlar yüklərinin üzərinə öz əlləriylə daha bir yük qoyub, vəziyyətlərini daha da ağırlaşdırırlar. Falçıların verdikləri düyünlənmiş sap və s əşyalar evə gətirilən kimi, evdəki bakirə qız uşaqlarının və hamilə qadınların halı pisləşir. Çünki, həmin sap və əşyalara neqativ enerji yüklənmiş olur. Uran elementi qoyulmuş otaq necə radiyasiyaya məruz qalarsa və oradakı insanları necə xəstələndirərsə, falçı və cadugərlərin verdiyi əşyalar ailəyə elə neqativ enerji buraxır, sakinləri xəstələndirir, uğursuzluğa düçar edir... İlk növbədə bakirə qızlara və hamilə gəlinlərə təsir edir. Qızlarda onurğa və digər orqanlarda (əsasən süd vəzlərində) ağrılar baş qaldırır, menstrurasiya pozulur, bir müddətdən sonra analıq orqanlarında kista, polikistoz, miomatik düyünlər... yaranır. Hamilələrdə isə, bu enerji əsəbə, stresə, depressiyaya səbəb olur ki, bu da bətndəki uşağın gələcəkdə əsəbi olmasına, əqli geriliyinə, autizmə və s xəstəliklərinə səbəb olur. Analar övladlarının bu cür xəstə doğulmasını istəmirlərsə, falçı və cadugərlərdən uzaq durmalıdırlar. Kimdənsə onlara neqativ enerji gəlibsə (yuxarıdakı əlamətləri varsa), tez bir zamanda bu enerjidən təmizlənməlidirlər ki, həm özləri, həm də dünyaya gələcək övladları sağlam olsunlar.





## BİOMETRİK SİRKULYAR PROQRAM NECƏ YÜKLƏNİR?

Elm *zahiri* və *batini* olmaqla, iki qurupa bölünür. Zahiri elmlər məktəbdə müəllimdən və kitabdan öyrənildiyi halda, batini elm əksinə, müəllimdən öyrənilməz. Buna ***elmi-lədun*** deyilir.

***Lədun*** sözü ərəbcə "***dərin qat***" mənasını verməklə, elmin dərin qatlarına işarə anlamını verir. Bu, tək zəhmətlə (oxumaqla) əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla (hissiyyatla) qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər kəramət sahibləri bu cür elmə malik olublar və sirlər üzərindən pərdələri məhz bu elmlə qaldırıblar.

Bu barədə böyük Alim və mütəfəkkir Deylemi belə buyurub: *"Elmi-lədun Allah-taalanın sirlərindən olan bir sirdir. Onun hökmlərindən olan bir hökmdür. Dilədiyi qulunun qəlbinə salar"*.

"Sülük-ül-Uləma" adlı əsərdə keçən bir hədisi-şərifdə: *"Elmlərdən eləlri vardır ki, onları ancaq mərifətullaha sahib olanlar bilirlər. Onlar bu elmlərdən xəbər verdikləri zaman mərifətullaha sahib olmayanlardan başqası onları inkar etməz"* – buyrulmuşdur.

Hadimi həzrətləri: *"Mərifətullah bilgiləri kəşflə və ilhamla hasil olur. Müəllimdən öyrənilməz"* – demişdir.

*Elmi-ladun* barəsində "Quran"ın bir ayəsində belə buyrulur:

***"Şübhəsiz ki, Yəqub onu*** *(vəhylə)* ***öyrətdiyimiz***

***üçün bir elm sahibi idi. Lakin insanların əksəriyyəti** (Allahın sevib-seçdiyi zatlara vəhy, ilham yolu ilə elm öyrətməsini)* ***bilməz!"*** Quran, 12:68

Biometrik sirkulyar proqram elmi-lədun qrupuna daxil olan, şəfa proqramı olaraq, insan ruhuna İlahidən yüklənir. Bu yüklənmədən sonra insan sirlər aləminə daxil olaraq, kəşflər etmək, şəfalandırmaq, insanı mənəvi böhrandan çıxarmaq kimi qabiiyyətlərə sahib olur və bu istiqamətdə cəmiyyətə fayda verməyə başlayır...

***Biometrik sirkulyar proqram əsasında aşağıdakı xəstəlikləri və çətinlikləri aradan qaldırmaq mümkündür:***

- Bütün növ qorxular, fobyalar;
- Həzm sistemi xəstəlikləri;
- Zərərli vərdişlərdən (narkomaniya, alkoqolizm və s.) xilas olmaq;
- Uroloji xəstəliklər (böyrəkdəki bütün problemlər – kristalların əridilməsi, enuroz, sistit, gecələr tez-tez sidiyə çıxma və s.);
- Autizm;
- Epilepsiya;
- Skalyoz, osteoxondroz, kipoz, protuziya, yırtıq və s. onurğa xəstəlikləri;
- Təhsildə və işdə uğursuzluq;
- Bütün növ depressiyalar;
- Cinsi disfunksiyalar (zəiflik, həvəssizlik və s.);
- Hormon pozuntuları;
- Həyəcan (panik atak);





- Sayrışan hallar nevrozu;
- Sinir sistemi xəstəlikləri;
- Bütün növ nevrozlar və əsəb xəstəlikləri;
- Yuxusuzluq;
- Parkinson xəstəliyi;
- Şizofreniya;
- Miqren;
- Zob;
- Göz xəstəlikləri;
- Miasteniya (əzələ zəifliyi);
- Sevgisizlik, inamsızlıq, işdə və şəxsi həyatdakı uğursuzluqlar;
- Dəmirov və s. dəri xəstəlikləri, allergik yaralar...;
- Bütün növ ağrılardan və neqativ enerjilərdən xilas olmaq;
- Sonsuzluq;
- Xərçəng;
- Koronavirusa yoluxma və ondan geriyə qalan əlamətlərin (iybilmə, dadbilmə və s) bərpası;
- Analıq orqanlarının xəstəlikləri - endometroz, kistalar, miomalar, fibrozlar, folikulların partlamaması, uşaqlığın sallanması və s.
- Osteoparez və digər sümük xəstəlikləri;
- Ürək-damar xəstəlikləri;
- Zöhrəvi xəstəliklər (siflis, QİÇS və s)
- Bakteroloji xəstəliklər

və s

## ÇƏRŞƏNBƏLƏRİN MAHİYYƏTİ BUDUR

Bildiyimiz kimi, çərşənbələrin sayı - Su, Torpaq, Yel (hava) və Od (enerji) - olmaqla, dörddür.

Araşdırmalarımız göstərir ki, tariximizdən gələn bu ənənə insanın yaradılış ünsürləri ilə üst-üstə düşür. Belə ki, insan - torpaq, su, hava və ruh (enerji) olmaqla - dörd ünsürdən yaranıb.

Həmçinin, təbiət də - yaz, yay, payız, qış olmaqla, dörd fəsildən ibarətdir.

Eləcə də Kainat - Şərq, Qərb, Şimal və Cənub olmaqla, dörd cəhətdən ibarətdir.

Allah-taalanın nazil etdiyi səmavi kitabların sayı da - "Tövrat", "Zəbur", "İncil" və "Quran" olmaqla - dörddür.

Müqəddəs "Qurani-Kərim"də Kainatın altı gündə (bazar günündən başlamaqla, Cümə günü başa çatıb) yaranması qeyd olunmuşdur. İki günə Yer, iki günə isə, insanların qidalanması üçün Yer üzərində olanlar (ruzilər) yaradılmışdır. Sonrakı iki gündə isə, göydə olanlar yaradılmışdır:

**"Doğrudanmı siz Yeri iki gündə** (!) **yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki, aləmlərin Rəbbidir!"**

**"O, Yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və Allahdan ruzi istəyənlər üçün bərabər olaraq Yer əhlinin ruzisini dörd** (!) **gündə müəyyən etdi".** "Quran", "Müfəssəl izah" surəsi, 9-11.

"Quran" ayəsi ilə hesabladıqda, ruzinin yaranması həftənin ikinci və üçüncü (çərşənbə axşamı və çərşənbə) günlərinə düşür. Odur ki, mərasimlər də bu günlərdə keçirilir.





## MEYVƏNİ YUXARIDAN DƏRİN

Ağacın yuxarı hissəsi Günəş şüası ilə daha zəngin olduğundan, meyvənin dəymişi, şirini ağacın yuxarısında olur. Bağa girən naşıdırsa, özünə əziyyət verməyib, ağacın əl-ətəyindən, gün görməmiş, yarıkal meyvələrdən qırıb, ağzını büzə-büzə yeyir.

Arif adam isə, canına bir qədər cəfa verib, ağacın təpəsindəki Günəş şüası ilə zəngin, yetişmiş meyvəni dərir və "bəh-bəh"lə yeyir...

İnsan cəmiyyəti də bağa bənzəyir - yetkin, kamil insanlar cəmiyyətin fövqündə durduqlarından, bir qədər əlçatmaz görünürlər. Adətən naşı (qanmaz) adamlar ailə qurarkən cəmiyyətin "əl-ətəyindən" "dərirlər" və çox keçmir ki, dərdiklərinə də peşman olurlar. Günləri ah-vayla keçir...

Aqil insan isə, nə qədər çətin olsa da, cəmiyyətin fövqündəki kamil insanla ailə qurmağa çalışır ki, bir ömür ləzzət alsın. Siz də aqil olun və həmişə meyvəni yuxarıdan dərməyə çalışın.

## İNSANA SEVİNC VƏ KƏDƏR LİMİTİ AYRILIB

***Uzunömürlülüyün sirri limitə qənaət etməkdədir***

Elmi-lədun araşdırmalarımız göstərir ki, Ulu Yaradan tərəfindən insana həyatda qalmaq üçün zamanla yanaşı, sevinc və kədər limiti də ayrılır. Bunlar bir-birinin içərisində və ayrılmaz olduqlarından, sevinc və kədər olmadan zamanı yaşamaq mümkün deyildir. Bunu "Quran"ın aşağıdakı ayəsindən görmək olur:

*"Əgər Allah insanlara xeyiri tezliklə istədikləri kimi, şəri də o tezlikdə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu..."* "Yunis" surəsi, 11-ci ayə.

Ayəyə şərhçilər tərəfindən müxtəlif formalarda təfsirlər verilsə də, əslində burada insan üçün əzəldən müəyyən edilmiş sevinc və kədər limitinə işarə verilir.

Müqayisə üçün deyək ki, hər bir təşkilatın normal fəaliyyəti üçün, ilin başlanğıcında müəyyən bir maliyyə limiti ayrılır. Əgər təşkilat bu limitin hamısını ilin əvvəlində xərcləyib qurtararsa, sonrakı aylarda fəaliyyət göstərə bilməz. Odur ki, normal fəaliyyət göstərmək üçün, illik limit kvartallara və aylara bölünərək xərclənir.

İnsan ömrü də buna bənzəyir. Dünyaya gələrkən bizə sevinc və kədər limiti ayrılır. İnsan zamanı bu limit olmadan yaşaya bilməz. Bunların tezliklə xərclə-





nib qurtarması insan ömrünün bitməsinə səbəb olur. Yuxarıdakı ayədə Allah məhz buna işarə vurur. Yəni, ömrümüzün əvvəlində çox sevinc yaşamaq istəyiriksə, bunu sonrakı illərin hesabına edə bilərik. Zaman sevinc və kədərsiz mövcud olmadığına görə, həmin limiti xərclənmiş illərə çatdıqda artıq insan yaşaya bilməz (necə ki, təşkilat maliyyəsiz fəaliyyət göstərmir). Bu da ömrün gödəlməsinə və tez bitməsinə səbəb olur. Limitə qənaət edənlər isə, çox yaşayırlar.

Yeri gəlmişkən, qeyd edim ki, limit məsələsi insanın daxili orqanlarına da aiddir. Məsələn, insan orqanizminin nasosu funksiyasını yerinə yetirən ürək, təxmini hesablamalara görə ömür boyu 2,5 milyard dəfə döyünür. Bu, bir insanın ürəyinə ayrılmış limitdir. Bu limit başa çatdıqda ürək dayanır və insanın həyatı bitir.

Bəs necə olur ki, bir insan əlli, digəri isə, yüz il yaşayır? Araşdırmalarımız göstərir ki, bu, ürəyin döyünmə sürətindən asılıdır. Yəni, 2,5 milyard döyünmə limitini ürək əlli ilə başa çatdırarsa, insan 50 yaşında, yüz ilə başa çatdırırsa, 100 yaşında ömrünü tamamlayar.

Biometrik sirkulyar proqrama görə çox yaşayan insanlar buna əsəblərinin sakit olması ilə nail olurlar. Çünki, əsəb sakit olduqca, ürək normal döyünür və ona ayrılmış limiti daha uzun müddətə başa vurur. İçki və digər zərərli vərdişləri olan insanlarda ürək döyüntüsü yüksək olduğundan, ömürləri gödək olur. Həmçinin, ailədə həyat yoldaşı deyingən və əsəbi

olarsa, bu da əks tərəfin ürək ritminin sürətlənməsinə və ömrünün gödəlməsinə səbəb olur. Odur ki, çalışın əsəbləşməyin və əsəbi adamlardan da uzaq gəzin.

İnsanda əsəbi və gərginliyi, ürək döyüntüsünü, həyəcanı yaradan gizli səbəblərdən biri də orqanizmə daxil olmuş neqativ enerjidir. Həmin enerjini biometrik sirkulyar proqram vasitəsi ilə bədəndən təmizlədikdə insanda heç bir əsəb gərginliyi və həyəcanlanma baş vermir ki, bu da ömrün uzanmasına səbəb olur.





## ƏLLƏR BELƏ DANIŞIR

Təsəvvür edin ki, bir nəfər öz düşməni ilə biyabanda rastlaşır və bıçağını çıxararaq, düşmənini qətlə yetirir. Həmin bıçağı qolu gəldikcə biyabanlığa tullayır, əlini də su kanalında yuyaraq, heç bir iz buraxmadan evinə gəlir...

Meyit tapılır. Həmin öldürəni şübhəli şəxs qismində saxlayırlar. Lakin əldə sübut olmadığından, şübhəli qətli boynuna almır. Bütün təzyiqlərə, işgəncələrə baxmayaraq, dil-dil ötür ki, mən öldürməmişəm, sübut edin!...

Bir gün biyabanda həmin bıçaq birinin (polisin, yaxud biçinçinin....) qarşısına çıxır və dərhal müstəntiqə təhvil verilir. Barmaq izləri ekspertizaya verilir və sübut olunur ki, izlər şübhəliyə məxsusdur. Müstəntiq bıçağı sellafon torbada stolunun üstünə qoyur və tapşırır ki, şübhəlini gətirin. Şübhəli gəlir oturur müstəntiqin qarşısında. Müstəntiq torbanın ucundan qaldırır, bıçağı müttəhimə göstərir. Müttəhimin dünənə qədər bülbül kimi ötən dili artıq susur. Dilin danışmağa ehtiyacı qalmır. Çünki, artıq əl DANIŞIR. Əl danışanda dil susur, qiyamət günündəki kimi (bundan sonra müttəhimin "o dünyası" - türrmə həyatı başlayır).

Bura qədər kriminal dildə izah etdik. İndi keçək riyaziyyata. Yəni, mövzunu riyazi dildə davam etdirək.

### *Quranda barmaq izləri*

İnsanın anatomik quruluşunda olan saysız-hesabsız

hikmətlərdən biri də barmaq izləridir. Dünya yaranandan nə qədər insan gəlib-getsə də, heç birinin barmaq izləri biri-birinə bənzəməyib. Quranda bu mövzuda cəmi bir ayədə söhbət açılır. Bildirilir ki, qiyamət günü insanlar dirildilərkən, həmin izlər olduğu kimi bərpa olunacaq və əməlləri ona həmin izlərlə sübut olunacaq:

***"Bəli, Biz onun barmaqlarını** (barmaq izlərini) **da düzəltməyə qadirik!"*** Quran, 75:4.

Gəlin indi sizinlə birlikdə Quranın birinci ayəsindən başlayaraq, 75-ci surənin 4-cü ayəsinə (barmaq izlərinə) qədər sayaq. Həmin barmaq izlərindən bəhs edən yeganə ayəyə çatanda görəcəyik ki, bu, Quranın **5555**-ci ayəsidir.

*Deyəcəksiniz ki, nə olsun?*

İndi də gəlin iki əlimizi və iki ayağımızı yanaşı qoyub, barmaqlarımızı sayaq: **5555** (!) ədədini gördünüzmü?!

Bu da "Qiyamət" (75) surəsinin 4-cü ayəsini göstərirmi?:

***"Bəli, Biz onun barmaqlarını** (barmaq izlərini) **da düzəltməyə qadirik!"*** Quran, 75:4. (**5555**-ci ayə.)

Elə isə, susaq! Bundan sonra nə isə danışmağa, yazmağa ehtiyac yoxdur. Çünki, artıq əllər riyazi dildə də danışdı və haqqı təsdiqlədi!

Unutmayın ki, ən yüksək vəzifəlimizdən tutmuş, dağdakı çobanımıza qədər hamımızın əlləri belə danışacaq (həm bu dünyada, həm o dünyada)! Odur ki, əməllərimizə diqqət edək. Çalışaq ki, barmaq izlərimiz ancaq gözəl əməllərin üzərində qalsın.





## GÜL BECƏRMƏYİN İNSAN XARAKTERİNƏ TƏSİRİ

**Gül əkin, gül becərin!** Bu tövsiyə Nostradamusun kitabında yer alıb və bu cümlənin alt qatında çox böyük mənalar gizlənir. İndi biz sizinlə birlikdə bu mənaların seyrinə dalacağıq.

İnsan oğlunun məşğul olduğu sahə mütləq onun xarakterinə təsir edir. Bunu adi həyatda, istənilən peşə sahiblərinə diqqətlə nəzər saldıqda aydın görmək mümkündür. Bu mənada insan hər gün vaxtının bir neçə saatını gül bəsləməyə sərf edərsə, bir neçə ildən sonra güldə olan zərifliyi, gözəlliyi, təravəti, ətri həmin adamın xarakterində müşahidə etmək mümkündür *(yəqin bu səbəbdən idi ki, Osmanlı dövlətinin qanunlarına görə hər bir qəssab ilin bir ayını gülçülük təsərrüfatında işləməyə məcbur edilirdi).*

Nostradamus bu deyimlə qadınları da nəzərdə tuta bilərdi. Çünki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Onlarla da təmas insana (kişiyə) nəvaziş, incəlik təlqin edir (qadın olmayan kollektivlərdə həmişə kobudluq hökm sürür).

Nostradamus bu deyimlə övladlara da işarə vura bilərdi. Çünki, onlar da bizim gül balalarımızdır və onlarla da təmas insanın xarakterinə müsbət təsir edir. Övladın qoxusu hər bir valideyn üçün əvəzolunmaz ətirdir.

Fürsəti qaçırmayın - gül əkin, gül becərin..

## CƏMİYYƏTİN ÇÜRÜMƏSİ İLƏ NARIN ÇÜRÜMƏSİ BƏNZƏR PROSESDİR

***"İçərinizdə insanları yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar** (bu camaat), **həqiqətən nicat tapmış şəxslərdir".** "Quran", 3:104.*

Son dövrlər Azərbaycanda müşahidə edilən mənəvi aşınma cəmiyyəti sürətlə çürütməkdədir ki, bu da hər bir düşünən insanı narahat edir. Yeri gəlmişkən, insan təbiətin bir üzvü olduğundan, cəmiyyətimizdə baş verən çürümə prosesini təbiətin digər sahələrində gedən çürümə ilə müqayisə edək. Onu da qeyd edək ki, Allah yaratdığı bütün heyvan və bitkiləri insanlara nümunə olaraq yaratmışdır. Məsələn, "Quran"ın "Bal arısı" surəsində açıq-aşkar göstərilir ki, Biz bal arısını dövlət, ordu, ailə qurmaq və onları idarə etmək üçün insanlara nümunə yaratdıq. Eləcə də bir çox meyvələr kollektiv yaşamaq və birgəyaşayış qaydalarına əməl etmək üçün insanlara nümunədir. Məsələn, götürək narı. Narın dənələri cəmiyyətin fərdlərinə işarədir. **Allah hər bir gilənin qidasını kapilyarlar vasitəsi ilə özünə çatdırdığı kimi, hər bir bəndəsinin də ruzisini özünə çatdırır.** İnsanın nardan öyrənəcəyi, nümunə götürəcəyi çox ibrətlər vardır. Təəssüflər olsun ki, cahilliyimiz öyrənməyimizə, gördüyümüzdən ibrət almağımıza imkan vermir. Ağıl sahibi olsaydıq, görərdik ki, narın dənələri özlərinə gələn ruziyə qane olurlar və digər gilənin ruzisinə şərik olmurlar (qidasını mənimsəmək üçün biri-digərini əzmirlər). Bununla da birgəyaşayış qaydalarına əməl etməklə, kamillik (yetişkənlik) mərhələsinə çatırlar.





İnsan cəmiyyətində isə, bu nizama demək olar ki, əməl olunmur. İnsanların böyük əksəriyyəti cahil və nadan olduqlarından, özlərinə gələn ruzi ilə kifayətlənməyib, başqalarının da var-dövlətini mənimsəmək üçün onları əzməklə məşğuldurlar. Buna nail olduqdan sonra isə, əzən fərd özündən daha güclü fərd tərəfindən əzilir və bu proses dayanmadan davam edir... Bu əzilmələr, sıradan çıxmalar məhz birgəyaşayış qaydalarına (yaradılış qanunalarına) əməl etməməyin, gördüyümüzdən ibrət almamağın nəticəsidir.

### *Cəmiyyətdə gedən çürümə prosesini bu cür dayandırmaq olar*

Narda ibrət alınası digər məqam onun daxilində - təbəqələr arasında olan pərdələrdir. Təcrübə göstərir ki, narın daxilində çürümə ilk növbədə pərdədən başlayır: pərdə çürüyüb qurtardıqdan sonra dənələr (oxu: fərdlər) çürüməyə başlayır. İnsanlar bundan ibrət götürüb cəmiyyətin müxtəlif təbəqələri arasında pərdələri qoruyub saxlamalıdırlar.

Məhz bu səbəbdən yaşadığımız cəmiyyətdə gedən çürümə prosesini narda gedən çürümə ilə müqayisə etdik. Təəssüflər olsun ki, bu gün dünyada aparılan məqsədyönlü siyasət nəticəsində yaşadığımız cəmiyyətdə pərdələr demək olar ki, götürülüb. Pozğun həyat tərzi və açıq-saçıqlıq təbliğ edilərək, insanların həyat

normasına çevrilib. Bu da cəmiyyətin mənəvi çöküşünə və Allahın qəzəbinə səbəb olmuşdur. Bu barədə Rəbbim "Qurani-Kərim"də belə buyurur:

*“Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (və yaxud Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o (Şeytan) və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin dostları etdik.*

*Onlar bu cür ədəbsizlik etdikləri zaman: “Atalarımızı belə gördük. Bunu bizə Allah əmr etmişdir”, - deyirlər. De: “Allah ədəbsizlik əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?”* 7:27-28.

Açıq-saçıqlığı tənqid etdiyimiz zaman elə bilməyin ki, biz bütün qadınların çadraya bürünüb evdə oturmalarını təbliğ edirik. Əsla yox! Təcrübə göstərir ki, çadraya bürünməmiş də qadın abır-həyasını, ismətini qoruya bələr. Sadəcə, ciddi və əxlaqlı qadınlar geyim tərzinə görə digər (bardakı) qadınlardan fərqlənməlidirlər. Yəni, insan küçədə qarşısına çıxan qadının geyiminə baxarkən, onun əxlaqlı, yaxud, əxlaqsız (sahibli, yxud, sahibsiz) olduğunu hiss etməlidir. Allah da “Quran”da bizlərə məhz bu mesajı verir. Belə ki, örtünməklə bağlı olan ayədə məhz belə buyurulur:

*“Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin övrətlərinə de ki, evdən çıxdıqda cariyələrə oxşamasınlar deyə, örtüklərini örtsünlər. Bu, onların tanınması (cariyə deyil, azad qadın olduqlarının*





*bilinməsi) və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhm edəndir!” “Quran”, 33:59.*

Bu ayə o vaxt nazil oldu ki, müharibədə əsir alınan və iman gətirməyən qadınlar vardı ki, onlar hüquqsuz olduğundan küçədə onlara sataşırdılar. Bəzən elə olurdu ki, cahil insanlar küçədə mömin (hüquqlu) qadına da sataşırdılar (onları cariyələrdən ayırd edə bilmədikləri üçün). Bütün bu yaramazlıqların baş verməməsi üçün yuxarıdakı ayə nazil oldu ki, mömin (sahibli) qadınlar öz geyim tərzlərinə görə əsir alınmış (sahibsiz) qadınlardan fərqlənsinlər. Bu fərqlilik o vaxt ancaq baş örtüyü ilə ola bilərdi. Çünki, o dövrün qadınları hamısı uzun libas geyinirdilər. Onları ancaq baş örtüyü ilə bir-birindən (azad qadını cariyədən) fərqləndirmək olardı.

İndiki dövrdə isə, cəmiyyətimizdə əsir (cariyə) qadınlar olmasa da, küçə qadınları (bar qadınları) kimi qəbul edilən bir təbəqə mövcuddur ki, onlar öz açıq-saçıq geyimləri ilə başqalarından fərqlənirlər. Təəssüflər olsun ki, cəmiyyətimizdə belə bir tendensiya müşahidə edilməkdədir ki, bəzi ərli qadınlar geyim tərzləri ilə artıq küçə qadınları ilə (sahibsizlərlə) bəhsə girirlər. Beləliklə də küçədə rastlaşdığımız qadınların hansının sahibli, hansının sahibsiz olduğunu müəyyənləşdirmək bir çox hallarda çətinlik törədir. Bu da Allahın qəzəbinə gətirib çıxaran və cəmiyyətin çürüməsinə səbəb olan əlamətlərdəndir. Bunu aradan qaldırmaq üçün yaxşı olar ki, ərli qadınlar və qızlar başlarını bağlamırlarsa, heç olmasa küçə qadınların-

dan fərqlənən (intim yerləri görünməyən) paltar geyinsinlər və özləri ilə naməhrəm kişilər arasında, həmçinin, böyük-kiçik arasında pərdə saxlasınlar. Pərdələr narı çürüməkdən qoruduğu kimi, ailələrimizi, cəmiyyətimizi də çürüməkdən qoruyacaqdır.

Bəzi kişilər elə bilməsinlər ki, çürümə (fahişəlik, pozğunluq...) qonşunun evinə daxil olubsa, daha bunun evinə daxil olmayacaq. Xeyr, elə deyil, cəmiyyəti boşuna nara bənzətmədik. Narda başlayan çürümə pərdələri bir-bir aşıb, digər hissəyə keçdiyi kimi, cəmiyyətin çürüməsi (əxlaqsızlıq) də evlərin divarlarını bir-bir aşıb, bütün evlərə daxil olmaqdadır (artıq cəmiyyətdə bu proses çox sürətlə gedir). Sonda cəmiyyətimiz tamamilə çürümüş, heç nyə yaramayan bir duruma düşə bilər. Biometrik sirkulyar proqrama görə çürümənin qarşısını almağın ən asan yolu cəmiyyətin təbəqələri arasında götürülmüş pərdələri yenidən bərpa etməkdir. Digər pərdə insanların geyimidir ki, buna hər bir ailə başçısı nəzarət etməlidir. Kişilər çalışmalıdır ki, həyat yoldaşı, qızı küçəyə çıxarkən geyimləri bar qadınlarının geyimindən fərqlənsin və onların sahibli olduqları bilinsin. Hər birimiz belə etsək, onda cəmiyyətdə çürümənin qarşısı alınar, ailəmiz, namusumuz qorunmuş olar.





## CAHİL İNSAN KAL ƏNCİR KİMİDİR – DİYİRLƏNİB KÖKÜNDƏN UZAQLAŞAR

Yuxarıdakı yazımızda cəmiyyətdə gedən mənəvi aşınma, çürümə prosesini narın çürüməsi ilə müqayisə etdik. Bildiyimiz kimi, cəmiyyətin çürüməsi, mənəvi aşınma ilk növbədə gənclərə təsir edir və onların yetkinləşməsinə mənfi təsir göstərir. Son dövrlər gənclərin milli-mənəvi dəyərlərdən sürətlə uzaqlaşması və Avropanın parıltılı həyatına meyillənməsi də məhz bununla əlaqədardır.

Bunu əncir ağacının meyvələri ilə müqayisə etmək olar. Bildiyimiz kimi, əncirin meyvələri həm kal, həm də dəymiş olarkən tökülürlər. Fərq ondadır ki, yetişmiş əncirlər ağacın kökünə düşüb orada öz toxumları ilə yenidən cücərdiyi halda, kal meyvələr tökülərkən diyirlənib ağacın kökündən uzaqlaşırlar. Ətrafımızdakı insanlara dərindən nəzər salsaq, eyni mənzərəni görərik: yetkin insanlar əslinə, kökünə, milli dəyərlərə sadiq qaldıqları halda, cahillər bütün bu dəyərlərdən nəinki uzaqlaşırlar, hətta dəyərlərə qarşı mübarizə aparmağa başlayırlar. Nəticədə mənəvi aşınma sürətlənir və cəmiyyət çürüməyə doğru gedir.

Araşdırmalarımız göstərir ki, bütün bunlar təsadüfən baş verməyib, məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasət dünyaya sahiblənmək istəyən beynəlxalq mafiyalar tərəfindən həyata keçirilir. Bu gün dünyanı əslində mafiyalar idarə edirlər; olkələrdəki hakimiyyətlərin hər biri bu mafiya zəncirinin bir

həlqəsidir. Onlar ən böyük zərbəni xalqın mənəviyyatına, əxlaqına vururlar. Bunu da KİV-də (televiziyalarda, qəzetlərdə, saytlarda) əxlaqsız müğənniləri və s. bu qəbildən olanları önə çıxararaq, insanların gözünə soxmaqla, pozğunluğu təbliğ edən serial və filmləri nümayiş etdirməklə insanların tərbiyəsinə, əxlaqına sağalmaz yaralar vururlar. Əxlaqı pozuq insanlar isə, o qədər cılızlaşar ki, öz dəyər-qiymətni bilməz və heç vaxt böyük ideyalar, amallar, bəşəri dəyərlər uğrunda mübarizə aparmazlar (indiki kimi). Belə insanlar özlərini çox ucuz satarlar ki, bu da mafiyalara sərf edən bir vəziyyətdir. Bütün bunlara görə bu gün Azərbaycanda əxlaq faciəsi hökm sürür...

Onu da qeyd edək ki, dünyanı yönləndirən mafiyalar demokratiyanı, haqq-ədaləti ancaq avropalılar üçün nəzərdə tutublar. Onlar Azərbaycan və digər şərq ölkələrinə ancaq xammal bazası kimi baxırlar. Ona görə də bu cür dövlətlərə sözəbaxan, özlərinə tabe olan rəhbərlər təyin edib, onların əli ilə sərvətləri talamaqla məşğuldurlar.

Taladıqları haram sərvətlərdən kiçik bir hissəni də həmin dövlətlərin siyasi cəhətdən fəal kəsiminə qrant adı ilə ötürürlər ki, onlar səslərini kəssinlər və xalq üçün yalançı bir ümid yerinə çevrilsinlər. Siyasi partiyaların qorunub saxlanması ölkədə yalançı bir demokratiya imici yaradır. Həm də xalqın fəal hissəsi başqa ideyalar (dəyərlər) ətrafında birləşməyə meyl etmirlər. Hamı ümidini siyasi təşkilatlara bağlayır. Beləliklə, millətin ümidlərini də nəzarət altında saxlayırlar.





Onu da bilməliyik ki, ictimai-siyasi fəalların bir qisminə qrant ayıran fondların rəhbərləri Dünyada qadın ticarətinə rəhbərlik edirlər. Belə çirkli pulların bir hissəsini də Azərbaycandakı siyasi hərəkatlara ötürdüklərinə görə buradakı xalq hərəkatı haramlaşdı, çirkaba bulaşdı. Mafiyalar bunu qəsdən etdilər. Çünki, onlar bilirlər ki, müqəddəs ideyaların qarşısını almağın əsas yolu onu haramlaşdırmaq, çirkaba batırmaqdır. Ona görə də son dövrlər aparılan mübarizələr heç bir effekt vermir.

Araşdırmalarımız göstərir ki, cəmiyyəti mənəvi cəhətdən aşındıran, çürüdən səbəblərdən biri də qanunların yaradılış qanunları ilə uzlaşdırılmamasıdır. Belə ki, qanunverici orqanlarımız heyvanlar haqqında qanun qəbul edərkən, onların bütün xüsusiyyətlərini (cütləşmə dövrü, balalama dövrü, ovlanma dövrü və s.) nəzərə aldıqları halda, insanlar üçün qəbul etdikləri qanunda bu xüsusiyyətlər nəzərə alınmır. Bildiyimiz kimi, bütün dövrlərdə və cəmiyyətlərdə qadınların sayı kişilərinkindən daim üstün olur. Bundan əlavə, qadın cinsindən olanlar ən geci 14-15 yaşdan sonra yetkinliyə çatırlar və ailə qurmağa can atırlar (və yaxud bioloji tələbatlarını ödəməyə meyilli olurlar). Qadınlarda hətta, 70-80 yaşda da ailə qurmaq şansı yaranarsa, bu onlarda problem yaratmır (fiziki cəhətdən buna qabil olurlar). Kişilərdə isə, belə deyildir. Onlar adətən 20 yaşdan sonra ailə qurmağa meyl edirlər (əgər maddi imkanları yol verirsə). 60 yaşdan sonra isə, kişinin ailə qurması fiziki cəhətdən nadir hallarda mümkün olur. Bütün bu və digər (kişilərin

ruzi dalınca səfər etmələri, hərbiyə və s. getmələri) faktları nəzərə alanda görürük ki, bütün cəmiyyətlərdə ailə qurmaq istəyən qadınlarla kişilər (tələblə təklif) arasında ən azı üç-dörd dəfə fərq olur. Yəni, ailə qurmağa qabil olan hər bir kişiyə azı 3-4 qadın düşür. Məhz buna görə də hər şeyi qabaqcadan görən və problemləri nəzərə alan Rəbbim bir kişiyə zərurət yaranarsa, dördə qədər qadınla evlənməyə icazə verir:

*"... Sizə halal olan (bəyəndiyiniz) qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın! Əgər onlarla ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər azad qadın və ya sahib olduğunuz kənizlə evlənin. Bu, ədalətli olmağa daha yaxındır".* "Qadınlar" surəsi, 3-cü ayə.

İndi gəlin görək qanunverici orqanlar bu yaradılış qanunlarını nəzərə alırlarmı? Nəzərə alsaydılar, hər halda cəmiyyətimizi çürüdən hallar (fahişəlik, zinakarlıq, qadın ticarəti və s.) bugünkü kimi tüğyan etməzdi.

Oxucuda haqlı sual yaranacaq ki, parlamentlər niyə insanlar haqqında qanun qəbul edərkən onların bioloji xüsusiyyətlərini nəzərə almırlar? Almayanda bu cür pozğun həyatla qarşılaşırıqsa, bəs alsalar nə baş verərdi?

Araşdırmalarımız göstərir ki, bu gün dünyada qadın ticarətinə nəzarət edənlər Avropada oturan və beynəlxalq fondlara rəhbərlik edənlərdir. Onlar demokratiya adı altında ikinci, üçüncü qurup ölkələrin parlament seçkilərinə qrant ayırmaqla, yaxud öz nüfuzlarından istifadə edərək birbaşa idarəçilərə təsir etmək-





lə, qanunların yaradılış qanunları (insanın bioloji xüsusiyyətləri) ilə uzlaşdırılmasına qətiyyən imkan vermirlər. Çünki bu halda "tələblə təklif" bərabərləşər, qadın artıqlığı yaranmaz. Beləliklə də dünyada qadın ticarətinə böyük zərbə dəyər (qadınların sayı artıq olmasa və onlar öz tələbatlarını ödəməyə yollar axtarmasalar, qadın ticarətinə şərait yaranmaz).

Heç özünüzə sual vermisinizmi niyə Avropa və oradan yönləndirilən (təsir dairəsində olan) dövlətlərin qanunlarında bir kişinin saysız-hesabsız qadınlarla (yaxud qadının çoxlu kişilərlə) qeyri-rəsmi şəkildə (vətəndaş nikahı adıyla) birgə yaşamasına icazə verildiyi halda, niyə rəsmi (qeydə alınmış) şəkildə buna icazə verilmir? Bu, ona bənzəmirmi ki, ağacdakı meyvəni oğurluq yeyə bilərsən, amma, icazəli (halal) yeyə bilmərsən (?). Bu, anormallıq deyilmi?

Fikir verirsinizmi, bu gün parklarda, barlarda və s yerlərdə azyaşlı (hətta, 14-15 yaşlı) qızlar oğlanlarla istədikləri intim, seksual hərəkətləri edirlər, heç bir hüquq mühafizə, yaxud QHT nümayəndəsi onlara yaxınlaşıb, bu hərəkətləri etmək üçün yaşlarının çatıb-çatmadığını soruşmurlar. Yeri gələndə deyirlər ki, bu, onların hüququdur. Amma, biz televiziyaların xəbərlər proqramlarından tez-tez izləyirik ki, hansısa rayonda 18 yaşı tamam olmayan (hətta, bir neçə ay əskik olan) qıza toy etmək istəyəndə bütün hüquq mühafizə orqanları, qeyri hökumət təşkilatları, ailə hüquqları ilə məşğul olan komitənin işçiləri... dəstə-dəstə həmin rayona gedib, qızın toy çadırını dağıdırlar, toyun baş

tutmasına imkan vermirlər (toy baş tutarsa bəyi həbs edirlər)... Bir anlığa təsəvvür edin ki, toy çadırı dağıdılan həmin cütlük toy gecəsi edəcəkləri hərəkəti hansısa bir parkda, bulvarda, barda, mehmanxanada... etsəydilər (necə ki, çoxları edir), onların qarşısını alan olacaqdımı? Olmayacaqdı. Necə olur ki, hər gün çöldə-bayırda, camaatın gözü qarşısında edilən və insan hüququ sayılan hərəkətləri toydan sonra (halal yolla) etməyə icazə vermirlər? Səbəb yaşın çatışmamasıdırsa, parkdakıların yaşı daha azdır.

Əslində bunun bir neçə səbəbi vardır. Səbəblərdən biri odur ki, əgər yetkinlik dövrünə çatmış insanların bioloji təlabatlarını rəsmi qaydada (halal yolla) ödəməyə icazə verilərsə, bekar (ərsiz) qadınların sayı azalar və bu da qadın ticarətinə, qadın alverinə zərbə vurar (!). Bu hal qadın ticarəti ilə məşğul olan beynəlxalq mafiyaların (hansı ki, onlar bütün ölkələrin QHT-lərinə və bəzi dövlət qurumlarına qrant ayırırlar) marağına uyğun deyildir. Odur ki, maliyyələşdirdikləri təşkilatları belə hallara qarşı səfərbər edirlər.

Digər səbəb odur ki, 18 yaşa qədər qızlara rəsmi (halal) yolla təlabatını ödəməyə imkan verilməyəndə, məcbur qalıb həmin təlabatı zinakarlıqla ödəyirlər. Beləliklə, istəmədən günaha batırlar. Günaha batan insan Allahdan uzaqlaşar və ona nə qədər haqsızlıq, zülm edilsə də səsini, fəryadını Allah eşitməz. Bu yolla xalqın çox hissəsi qəsdən günaha batırılır ki, onları istismar etmək, əzmək asanlaşsın... Bu gün bütün dünyada yeridilən bu siyasətin adı Dəccalizm siyasətidir. Toy çadırlarının dağıdılması, azyaşlı uşaqların





parklarda pozğun həyat tərzinə həvəsləndirilməsi, cinsi azlıqarın irəli çəkilərək, televiziyalarda geniş reklam edilməsi... bunlar hamısı Dəccalizm siyasətinin tərkib hissəsidir. Bu gün biz (və bütün bəşəriyyət) bunun acılarını yaşamaqdayıq.

Amma, insanlarımız (əsasən də qadınlarımız) nəzərə alsınlar ki, Allah hər bir çətinlikdən çıxmaq üçün yollar qoyub. Yəni, sizin bəyəndiyiniz kişi ilə nigahınıza dövlət qanunları rəsmi icazə vermirsə (qeyri-rəsmi əlaqəyə icazə verir), onda heç olmasa, əlaqənizi Allahın Kitabına uyğun qurun: (ən azı) dörd nəfər etibarlı şahid tutun və onların qarşısında ər-arvad olduğunuzu elan edin və üzərinizə şəriətə müvafiq ər-arvadlıq məsuliyyəti götürün. Bu cür nikahı dövlət tanımasa da, heç olmasa Allah dərgahında qəbul ediləcək və siz bir-birinizə halal olacaqsınız. Bu, nə qədər yaxşı olmasa da, hər halda zinakarlıqdan, soyunub canlı yayıma çıxmaqdan, günaha batmaqdan, yalançı siğədən, qorxu və həyəcan keçirməkdən çox yaxşıdır. Həm də yaşadığımız cəmiyyəti mənəvi aşınmadan və çürümədən qorumuş olarsınız.

*"... İçərinizdən iki ədalətli şahid tutun. Siz də, ey şahidlər! Allah üçün doğru şahidlik edin! Bununla Allaha və axirət gününə iman gətirənlərə öyüd-nəsihət verilir. Kim Allahdan qorxsa, Allah ona hər çətinlikdən bir çıxış yolu əta edər".* "Quran", "Boşanma" surəsi, 2-ci ayə.

## BAR VERƏN AĞAC ƏKİN

***“Biz onların** (kafirlərin) **yurdunu viran qoyub, yerində yulğun bitirərik”.*** *"Quran".*

Aqil insanlar həmişə bar verən ağac əkərlər ki, gələcək nəsillər onların zəhmətindən fayda görsünlər və onlara rəhmət oxusunlar.

Cahillər isə, bunun fərqinə varmazlar, barsız ağac əkərlər. Bu da onların paxıllığını, qəlbi darlığını büruzə verər. Yəni, cahillər istəməzlər ki, əkdikləri ağacın meyvəsini gələcəkdə kimsə yesin.

Son dövrlər küçələrə həmişə barsız ağaclar əkilir. Ən pisi də odur ki, enliyarpaqlı yox, iynəyarpaqlı ağaclar əkirlər. Bu ağacların ətrafa nə qədər neqativ enerji ötürdüyünü bilsəniz, heç buralarda yaşamaq istəməzsiniz. Bunu öz üzərinizdə aydın hiss etmək istəyirsinizsə, iynəyarpaqlı ağacın (el arasında bunlara “yolka” deyirlər) kölgəsində olan kafedə oturub bir çaynik çay için. Özünüzdə baş ağrısı, yorğunluq hiss edəcəksiniz. Enliyarpaqlı ağacların kölgəsi isə, əksinə, yorğunluğu çıxarır, insana rahatlıq gətirir. Meyvə ağacının kölgəsində isə, daha xoş əhval-ruhiyyə hiss etmək mümkündür.

Bunu onunla müqayisə etmək olar ki, küçədə bəzi adamlar qarşımıza çıxanda əhvalımız korlanır (baxmayaraq ki, onların bizə bir pisliyi keçməyib), bəzi adamlardan isə, bizə xoş əhval gəlir (onların bizə yaxşılığı dəyməsə də). Ağaclar da belədir – bəziləri xoş





təsir etdikləri halda, digərləri (iynəyarpaqlılar) neqativ təsir edir.

Bu hal kimyəvi elementlərdə də özünü büruzə verir. Belə ki, dövri cədvəldəki elementlərdən çoxu ikili xassəyə malikdirlər – qarşılaşdıqları elementdən aslı olaraq gah mənfi, gah da müsbət xassə nümayiş etdirirlər.

Qeyd edək ki, insanlarda, bitkilərdə və kimyəvi elementlərdə müşahidə olunan bu xüsusiyyət heyvanlarda da özünü qabarıq büruzə verir. Məsələn, yolda gedərkən qarşımıza bir ceyran, yaxud maral şıxsa necə sevinəriksə (baxmayaraq ki, onlardan bizə maddi fayda gəlməyəcək), ilan, yaxud vəhşi heyvan çıxsa o qədər qorxub, narahat olarıq... Bir ox insanlar həyətlərinə barsız ağac əkirlər, sonra da gedib marketdən siçan, əqrəb, donuz geni daşıyan meyvələri alıb gətirib övladlarına yedizdirirlər. Dərk etmirlər ki, o meyvələri yeyən uşaqlar tədricən valideynlərinin yox, meyvədəki heyvan genlərinin daşıyıcısına çevrilirlər...

### *Ölüsünə ehsan vermək istəyən 12 ədəd meyvə ağacı əksin*

Meyvə ağacından söz düşmüşkən, ölüsü üçün ehsan vermək istəyənlərə tövsiyə olunur ki, mərhumun ehsanı üçün 12 ədəd meyvə ağacı əksinlər. Ölən adamın varisləri o ağaclara ehtiramla yanaşsınlar və qulluq etsinlər. Ağacların meyvələrini hər il yetimlərə və imkansızlara paylayıb, ölən adam üçün dua etmələrini xahiş etsinlər. Onların hər il etdikləri dualarla ölən adamın günahları ya tamam, ya da qismən ba-

ğışlanır (çünki, valideyn dünyasını dəyişsə də, övladın etdiyi yaxşı əməllər valideynin əməl dəftərinə yazılır və öləndən sonra da savab qazandırır).

Ölən adam əgər çoxlu var-dövlət qoyub gedibsə, ölən günü həmin var-dövlətdən 40 yetimi doyuzdurmaq tövsiyə olunur (və yaxud, heyvan kəsib, 40 yetimin evinə pay göndərmək olar).

Mərhumun ilində isə, yeddi yetim doyuzdurmaq tövsiyə olunur.

Mərhum yuxunuza girirsə, üç yetim doyuzdurun.

Söz ardı: ancaq yetimlərə (və yoxsullara) verilənlər Allah dərgahında ehsan olaraq qəbul edilir.





## İÇKİNİ BELƏ TƏRGİTDİM

Uşaqlığım və gəncliyim sovet dövrünə təsadüf etdiyindən, etiraf edim ki, həmin zamanlarda mən də hamı kimi cahillik dövrümü yaşamışam.

Belə ki, hələ 5 yaşımda atamı itirdiyimdən və başqa qardaşım olmadığından, faktiki olaraq evin kişisi sayılırdım. Bu, mənə bəzi mənəvi sıxıntılar yaşatsa da, azadlıq və müstəqillik baxımından tam sərbəstlik verirdi. Ona görə də orta məktəb və sonrakı dövrlərdə dostlarla keçirdiyimiz bütün gecələr, bayram tədbirləri və s. bir qayda olaraq bizim evdə keçirilərdi (bacılarım ər evinə köçdüyündən və anam da (Allah ona rəhmət eləsin!) qoca olduğundan bizim evimiz sinif yoldaşlarım və dostlarım üçün ən əlverişli məkan idi.

Evimiz kəndin qırağındakı boyük gölün kənarında yerləşdiyindən, buradakı gözəl təbiət mənzərəsi dostlarımın daim diqqət və marağını çəkmiş, onlar üçün sevimli istirahət məkanı olmuşdur. Həyətimizdə hər cür meyvə ağacları vardı. Bir spirt çəkən aparat da düzəltdirmişdim, yay-payız aylarında altı daim yanardı…

Odur ki, həyətimizdəki həm gözəl təbiət mənzərəsi, həm də gözəl "təbiət neməti" qonaq-qaranın bolluğuna səbəb olardı…

Onu da deyim ki, həmin dövrdə (elə indi də) kitab həvəskarı idim. Həmin vaxtlar dilimizə tərcümə olunan, yenicə çapdan çıxan "Quran" kitabını da çətinliklə əldə etdim və çox böyük həvəslə mütaliə etməyə başladım.

"Quran"da diqqətimi çəkən məqamlardan biri də şeytanın yaranması haqqında ayələr oldu: *"Biz şeytanı tüstüsüz oddan yaratdıq".*

Maraqlıdır ki, spirt çəkdiyim məqamlarda həmin ayələr gözlərimin qarşısına gəlir və mən həm ŞEYTANIN, həm də SPİRTİN yaranma prosesləri arasında çox böyük oxşarlıq görürdüm. Bu yazımda diqqətinizi həmin *o x ş a r l ı q l a r a* cəlb etmək istəyirəm.

Öncə onu qeyd edim ki, bunların hər ikisi TÜSTÜSÜZ ODDAN (*buxardan*) yaranır.

Xatırladım ki, Həzrət Peyğəmbərimiz: *"Dırnaqlarınızı kəsin ki, onun altında şeytan gizlənir"* – deyirdi. İndi də həkimlər: *"Dırnaqlarınızı kəsin ki, onun altında mikroblar (bakteriyalar) gizlənirlər"* – deyirlər. Maraqlıdır ki, həm şeytanın, həm də mikrobun (bakteriyanın) fəaliyyəti düşdüyü yeri çürüdüb orada fəsad törətməkdən ibarətdir.

Mən spirt çəkmək üçün meyvələri böyük qaba yığıb, ağzını kip bağlayırdım. Oradakı *bakteriyalar* meyvələri çürüdürdü. Həmin qabın altını yandırdıqca, çürüntü TÜSTÜSÜZ ODA (buxara) çevrilir, daha sonra buxar soyuq suyun içərisindəki turbadan keçdikcə, suya çevrilərək şüşə qaba yığılırdı…

Maraqlıdır ki, həmin bu çürümüş meyvənin suyunu (spirti) içdikdən sonra insanın abır-həyası azalır və o, günaha (zinaya, davakarlığa, adam öldürməyə və digər şeytani işlərə) daha çox meyilli olur.

Bütün bu prosesləri gözlərim önündə müşahidə etdikcə və həyatımda bunların fəsadlarını yaşadıqca (içəndən sonra həmişə başıma pis işlər gəlirdi), dərk





etdim ki, mən əslində şeytanı yaradıram və onu qəbul etdikcə də bu varlığın təsiri altına düşürəm…

Odur ki, 24 yaşımdan sonra bu kimi işlərə TÖVBƏ dedim və ondan sonra heç vaxt spirtli içki qəbul etmədim…

***"Səndən içki və qumar haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür!"*** *Quran, 2:219.*

Bu barədə düşünməyə dəyər…

## MÜASİR TELEKOMMUNİKASİYA SƏNAYESİ CİNLƏRİN XİDMƏTİ ÜZƏRİNDƏ QURULUB

### *Cibində CİN gəzdirənlər cinlərin varlığına niyə inanmırlar?*

Günümüzdə bəzi insanlar guya elitar görsənmək üçün özlərini cinlərin varlığına inanmayan kimi göstərməyə çalışırlar. Onlara elə gəlir ki, cinlərin varlığına inanmaq elmə zidd getməkdir və guya cahillik əlamətidir. Daha başa düşmürlər ki, müasir telekommunikasiya sənayesi, mobil telefonlar və teleötürücülər elə cinlərin varlığına görə mövcuddur. Yəni Allah cin tayfasını yaratmasaydı bu gün biz mobil telefonlarla dünyanın o başında olan insanı ovcumuzun içinə qoyub, danışa bilməzdik. Təsadüfü deyildir ki, ölkəmizdə fəaliyyət göstərən mobil operatorlar hamısı cin adları daşıyırlar – CİN, Nar, Sim və s. Cibində CİN gəzdirən və hər dəqiqə onun xidmətindən istifadə edən adamın cinin varlığını danması əslində, savadsızlıqdan, cahillikdən irəli gəlir...

Məşhur "Bir qalanın sirri" filmində "Sim" və "Nar" adlı cinlərdən, onların padşahlarından bəhs edən səhnələri yəqin çoxlarınız izləmisiniz. "Sim" - əlaqə yaradan cinin adıdır; "Nar" isə, od, alov mənasındadır. Qurandan bildiyimiz kimi, Allah cinləri oddan yaradıb.

Yeri gəlmişkən, Quranda Süleyman Peyğəmbərin həyatından bəhs edən bir epizodda onun cinlərin xid-





mətindən istifadə etməsi belə təsvir olunub:

*"Cinlərdən olan* (çox qüvvətli və nəhəng) *bir ifrit dedi: "Sən yerindən* (taxtından) *qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!* (Mənim Bəlqisin taxtını götürüb gətirməyə gücüm çatar. Mən taxtın üzərində olan qızıl-gümüşə, ləl-cavahirata əlimi belə vurmaram, onlardan heç bir şey götürmərəm!)""

*"*(Süleyman taxtın daha tez gətirilməsini istədi). *Kitabdan* (Allahın kitabından, yaxud lövhi-məhfuzdan) *bir qədər xəbəri olan birisi dedi: "Mən onu sənə bir göz qırpımında* (gözünü yumub açınca) *gətirərəm!""* Quran, "Qarışqalar" surəsi, 39-40.

Cinlər Süleymana gətirdiklərini mobil telefon üzərindən gündə min yol bizə gətirmirlərmi? Dünyanın istənilən nöqtəsində olan adamı bir göz qırpında qabağımıza (ovcumuzun içinə) qoymurlarmı?! Elə isə, niyə özümüzü "elit" göstərmək üçün bu xidməti danırıq?

Elmi-lədun bilicisi olaraq, onu da qeyd etməyi lazım bilirik ki, cinlər əslində, fizika elmində dalğa kimi tanınan nəsnədir. Cinlərdə olan dalğaların tezliyi insandakından müqayisəolunmaz dərəcədə yüksək hersdə olduğundan, onların insana görünməsi (elmdə buna hallüsinasiya, loru dildə qarabasma deyilir) insanın sinir sisteminin pozulması ilə nəticələnir. Bunun bənzəri televiziya dalğalarının biri-birini vurub, ekrandan çıxarmasıdır (güclü dalğa zəif dalğanı sıxışdırıb, özü ekrana hakim olur). Bənzər proses insan beynində də gedə bilir – paralel aləmdə olan məx-

luqların (cinlərin) ötürdüyü mənfi (neqativ) dalğalar insan beyninə daxil olur və orada sabitliyi pozur. Dalğanın tezliyi (hersi) yüksək olduqda hallüsinasiya baş verir və insanın sinir sistemi pozulur, ruhi-əsəb (hirs, hers) xəstəlikləri yaranır. Bundan sonra cin insan beyninə hakim olaraq, onu idarə etməyə, istənilən komandanı verməyə başlayır. Bəzi ruhi-əsəb xəstələrinin evə qapanmaları, bəzilərinin öz doğmalarına xəsarət yetirmələri, evləri yandırmaları, intihara cəhd etmələri də bunun əlamətləridir.

Buradan aydın olur ki, Yaradan Quranda "Cinlər" (72) surəsini boşuna göndərməmiş, bu barədə Süleymana verdiyi elmi də təsadüfən verməmişdir. Cinlər Süleymana göstərdiyi xidməti bu və ya digər formada bu gün hər birimizə göstərməkdədirlər. Buna əmin olmağınız üçün, əlinizi cibinizə salıb, "CİN"inizi (yaxud, Simi, Narı) çıxarıb, dərin düşüncəylə (açıq gözlə, bəsirətlə) baxmağınız kifayətdir...

Cinlərin xidməti üzərində qurulan digər texnoloji vasitə ***naviqatordur***. Gündəlik həyatınızda çoxlarınızın istifadə etdiyi bu texnalogiyaya açıq gözlə (bəsirətlə) baxmaq ağlınıza gəlməyib yəqin ki. Çoxunuza elə gəlir ki, naviqatorda danışan səs əvvəldən yazılıb, kompyuterə yüklənmiş səs yazısıdır. Əslində isə, bizə yol göstərən həmin səs əvvəldən yazılmış olsaydı, hazırda getdiyimiz yolun harasında sıxlıq olduğu, harasında polis dayandığını görə bilməzdi (sıxlıq da, polis də müvəqqətidir, gah olur, gah olmur). Təcrübə üçün naviqatorun qabaqcadan bizə xəbər verdiyi polis postundakı polisdən xahiş etsək ki,





on dəqiqəlik yerinizi dəyişib başqa yerdə dayanın. Biz də geri qayıdıb, bayaqkı yoldan təkrar gedək. Görəcəyik ki, naviqatordan gələn səs artıq bizə polisin olduğunu xəbər vermədi. Bu və digər əlamətlər onu göstərir ki, naviqatordakı səs əvvəldən yazılıb qoyulmayıb; canlı olaraq, hazırda bizim hərəkətimizi izləyir və qarşıdakı maneələrdən bizi xəbərdar edir.

Sual yaranır: eyni anda dünyada milyardlarla insanı izləyən, xidmət göstərən bu səs nəyin, hansı varlığın səsidir? Biometrik sirkulyar proqrama görə naviqator da mobil operatorlar kimi, cinlərin xidməti üzərində qurulub və onların dalğalarından istifadə edir. Başqa heç bir varlıq eyni anda bu qədər insanı izləyib, ona yol göstərə bilməz. Onu da qeyd edək ki, bizi əhatə edən paralel aləmdə xeyirə və şərə xidmət edən cinlərin sayı-hesabı bilinməz.

*"Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!""* Quran.

## İNSANİ KEYFİYYƏTLƏR UŞAĞA ANA SÜDÜ İLƏ KEÇİR

***“Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu*** *(bətnində)* ***zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun ana bətnində daşınma və süddən kəsilmə müddəti otuz aydır*** *(9 ay bətndə, 21 ay ana südü ilə bəslənir)****. Nəhayət, insan kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: “Ey Rəbbim! Mənə həm mənim özümə, həm də ata-anama əta etdiyin nemətə şükür etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməlisaleh et. Mən günahlarımdan Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam!”*** *“Qumsal təpələr” surəsi, 15-16.*

Müqəddəs Kitabın bu və digər ayələrində Allah-taala insana yeni doğulan körpənin 21 ay ana südü ilə bəslənməsini tövsiyə edir. Həmçinin, bildirir ki, belə uşaqlar böyüyüb 40 yaşına çatarkən kamil olarlar və həyatı dərk edərək, günahlarına görə tövbə edib, Allaha sığınarlar. Sual yaranır: niyə məhz 21 ay?

Elmi-lədun hesablamalarımız göstərir ki, bu tövsiyyə 21 ədədindəki hikmətlə bağlıdır. Odur ki, bu hikmətə birlikdə nəzər salaq.

Bildiyimiz kimi, həm Yer, həm də Göy yeddi qatdan ibarətdir.

Həmçinin, Allah qarşısında səcdə edən hər bir insana fikir versək, onun yeddi üzvünün – 2 ayaq, 2 diz, 2 əl və 1 alın – yerə toxunduğunu görərik.





Beləliklə, Yer, Göy və Allaha baş əyən kamil insanın qatlarını toplasaq 21 ədədinin alındığını görərik:

$$\mathbf{7 + 7 + 7 = 21}$$

21 ədədi “Quran”ın “Peyğəmbərlər” surəsinin sıra nömrəsi olduğundan, bu ədəd müqəddəs kitabda elm, kamillik və Peyğəmbərlik rəmzi sayılır.

Elmi-lədun araşdırmalarımız göstərir ki, insanda elm və digər insani keyfiyyətlərin (kamilliyin) təməli ana südü ilə qoyulur. Bu təməlqoyma prosesi 21 ay çəkir.

21 ədədi ilə bağlı bir məqama da diqqətinizi yönəldim ki, insan hüceyrələrinin yaşama müddəti 21 gündür. Yəni, orqanizmdə hər gün milyonlarla hüceyrə doğulur ki, onlar 21 gündən sonra ömürlərini başa vurub, yeniləri ilə əvəzlənirlər.

Ona görə də hər şeyi qabaqcadan hesablayan və bilən Ulu Yaradan yeni doğulmuş körpəni məhz 21 ay ana südü ilə qidalandırmağı bir çox ayələrdə tapşırmışdır. Bildiyimiz kimi, “Quran” insanın “texniki pasport”u olaraq göndərilmişdir – necə ki, hər bir alim ixtira etdiyi cihazın işləmə qaydasını göstərən texniki pasport yazar.

Təəssüflər olsun ki, məişətdə işlətdiyimiz cihazlarda problem yaranmasın deyə onun texniki pasportunu tez-tez oxuyub əməl etdiyimiz halda, özümüzün, yaxud övladlarımızın həyatında problem yaranmaması üçün Yaradanımızın bizə göndərdiyi “texniki pasport”u bir dəfə də olsun oxumuruq (yaxud, əməl etmirik).

Odur ki, aparılan araşdırmalar göstərir ki, yeni doğulan körpələrin 80 faizi ana südü ilə deyil, süni qidalarla yemlənirlər. Bunun nə demək olduğunu dərk etmək üçün başqa bir statistikaya nəzər salaq.

Aparılan araşdırmalar zamanı məlum olub ki, ağır cinayət törədən məhkumların 92 faizi belə süni qida ilə bəslənənlər olub!

Buradan belə nəticə çıxır ki, analar öz övladlarına 21 ay süd verməməklə onlarda tərbiyənin, əxlaqın, insan və Vətən sevgisinin, bir sözlə, kamilliyin təməlini qoymamış olurlar. Məhz bu təməlin olmaması səbəbindən gələcəkdə övladlar bu keyfiyyətləri əxz edə bilmirlər və beləliklə, bütün bu insani hisslərdən məhrum olurlar. Nəticədə belə insanların 92 faizi ağır cinayətlər törədirlər.

Buradan belə nəticə də hasil olur ki, analar körpələrin südünü kəsməklə, əslində cinayətkarlığın və gələcək cinayətlərin təməlini qoymuş olurlar!..

İndi bildinizmi bu gün cəmiyyətimizdə ana sevgisi, Vətən sevgisi, böyüyə hörmət və s. insani hisslər niyə qəhətə çıxıb?! Valideyn övlada (və yaxud əksinə), qardaş-qardaşa, qohum-qohuma qonşu-qonşuya qənim kəsilib! İnsanlar əqrəb kimi bir-birlərini sancmağa məqam gəzirlər. Çünki körpəlikdə yedikləri qidaların tərkibi əqrəb, siçan, və s. vəhşi heyvanların geni ilə zəngindir. Bütün bunlar insanlarda genetik dəyişməyə, genetik mutasiyaya səbəb olmuşdur. Bu səbəbdən bu gün insanlarda aqressiya, cinayətə, pisliyə meyllilik daha güclüdür, nəinki insani hisslər.

Bu gün qadınlar arasında sürətlə yayılan süd vəz-





lərində şişlərin yaranması da 21 ay ana südü ilə qidalandırma barədə Yaradanın tapşırığına əməl etməməyin nəticəsidir! Beləliklə, Allahın tövsiyəsinə əməl etməyən analar övladlarının fiziki və mənəvi sağlamlıqları ilə yanaşı, öz sağlamlıqlarını da risk altında qoyurlar.

"Quran"ın "Loğman" surəsində iki il ana südü ilə qidalananların hansı tərbiyələrə malik olduqları barədə belə buyrulur:

*"Biz insana, ata-anasına yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı tövsiyə etdik. Anası onu bətnində çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. Biz insana buyurduq: "Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir!"*

*"Əgər ata-anan bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, bu işdə onlara itaət etmə. Qalan dünya işlərində onlarla gözəl keçin, onlara itaət et".*

*"Loğman öyüd-nəsihətinə davam edərək dedi: "Oğlum, dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın* (daşın) *içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu ortaya gətirər* (onun haqq-hesabını çəkər). *Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), hər şeydən xəbərdardır!"*

*Oğlum! Namaz qıl, insanlara yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə! Bu yolda sənə üz verəcək müsibətlərə döz! Həqiqətən, bu dediklərim vacib əməllərdəndir!"*

*"Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə*

*lovğa-lovğa gəzib dolanma! Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!*

*"Yerişində müvazinətini gözlə* (nə çox yeyin, nə də çox asta get) *və danışanda səsini qaldırma! Çünki ən çirkin səs uzunqulaq səsidir!" "Loğman" surəsi,* 13-19-cu ayələr.

Bütün bunlar bir daha sübut edir ki, analarımız Allahın tövsiyəsinə əməl edərək, körpələrini 21 ay ana südü ilə bəsləməlidirlər. Bu, onların həm özlərinin, həm də övladlarının (fiziki və mənəvi) sağlamlığının qarantiyası olar. Çünki, artıq elm sübut etmişdir ki, insanlıq, mənəvi dəyərlər uşağa məhz ana südü ilə keçir. Bir şərtlə ki, südlə bəslənmə müddəti 21 ay olsun...





## AYIN ÜZƏRİNDƏKİ LƏKƏ DEYİL, XƏRİTƏDİR

*Mənə inanmayan axşam Aya baxsın*

Dünya yaranandan insan oğlu hər axşam Ayın üzərindəki "ləkə"ni görsə də, mənasını anlamadığından, bu barədə cürbə-cür əfsanələr yaratmşlar. Elmi-lədun araşdırmalarımız zamanı məlum oldu ki, bu "ləkə"  əslində bir vaxtlar mövcud olmuş Pangeya adlı materikin xəritəsidir. Coğrafiya elmindən bilindiyi kimi, ilk yaranışda Yer kürəsi cəmi bir materikdən ibarət olub ki, onun da adı Pangeya olub. Həmin materiki əhatə edən okeanın adı isə, Pantalas olub.



"Pangeoist" sözünün mənşəyi, "Pan os" - "tam", "bütöv", "kök" (özül); "geo" - "Yer" mənası verməklə, "bütöv Yer" mənasını bildirir. Bu ideyanın daşıyıcıları pangeyistlər adlanır.

(Bax: Ay və Pangeya materikinin şəklinə)

Zaman keçdikcə həmin Pangeya materiki əvvəlcə iki hissəyə - Lavrasiya və Hondvanaya bölünmüşdür. Hazırda isə, altı materik olduğu hamınıza məlumdur. Necə ki, bir atadan, bir anadan yaranan insanlar millətlərə, xalqlara parçalandılar; daha sonra irqlərə, dinlərə, təriqətlərə... bölündülər və hazırki hallarına gəldilər. Həmin eyni atanın və ananın övladları artıq biri-birlərinə düşmən kəsilərək, bir xalq digərinin, bir din o biri dinin mənsublarının qanını içməyə hazırdır və içirlər də!

Araşdırmalarımız göstərir ki, yaxın vaxtda Dünyada Pangeyizm ideologiyası meydana çıxacaq və bu ideologiya insanlar arasında yaranmış parçalanmanın, qızışan müharibələrin qarşısını alacaq və Yeri əvvəlki halına - bütöv Yer – Pangeya halına gətirəcəkdir.

Pangeyistlər hərəkatının fəaliyyəti ilə Yerdə yaşayan bütün insanlar vahid bir ideya ətrafında birləşərək, bugünkü düşmənçiliyə və müharibələrə son qoyacaq, sülh, əminamanlıq şəraitində yaşayacaqlar.

Bu gün mafiya başçılarının gəlir mənbəyi olan ibadətgahlarda əsas təbliğat onun üzərində qurulur ki, başqa dinlərə (yaxud təriqətlərə) mənsub olan insanlar sizin düşməninizdir və mütləq onları qətlə yetirib, sərvətlərini və yurdlarını əllərindən almalısınız. Onlar əsasən, savadsız, elmsiz, işsiz-gücsüz insanları öz təsiri altına salaraq, onlara maaş vəd verməklə, müharibələrə cəlb edirlər.

Nəticədə, müharibədə iştirak edən tərəflərə həm silahlarını satır, həm əsir götürdükləri insanları (onların daxili orqanlarını) satır, həm də qarətçilikdən, narkotik tranzitindən küllü miqdarda sərvət qazanırlar. Bir çox hallarda müharibədə iştirak edən əsgərlərin maaşlarını və sığortalarını da vermirlər (əsgərlər ölüncə döyüşür, ömürlərini mafiyaların yolunda qurban verirlər).





Bütün bunların qarşısını almaq, insanları din və dövlət mafiyalarının əsarətindən qurtarmaq üçün, Pangeyizm ideologiyası insanlara elmlənməyi və bu mafiyaların quraşdırdıqları ibadətgahlardan “Allah evləri”ndən uzaq durmağı tövsiyyə edəcəkdir. Beləliklə, bu təbliğat bütün dünyaya yayılacaq və insanlar öz əvvəlki hallarına - birlik və sülh hallarına qayıdacaqlar.

Oxucuda sual yaranacaq ki, pangeyizm dövründə insanlar dinsizmi olacaqlar?

Əlbəttə ki, yox! Onlar Yaradanın birliyini qəbul edəcəklər. Öz fəaliyyətlərində elmə, əxlaqa, halallığa və dürüstlüyə - bir sözlə, bəşəri dəyərlərə üstünlük verəcəklər. Sadəcə, indi mövcud olan (mafiyaların nəzarətində olan) heç bir ibadətgaha getməyəcəklər və özləri də heç bir ibadətgah yaratmayacaqlar. Onlar yuxarıda qeyd etdiyimiz kimi, Allahın təkliyini, hər yerdə olduğunu qəbul edəcəklər. Bu səbəbdən onların inancı daha çox bütün kitab verilmiş peyğəmbərlərin babası olan İbrahim Peyğəmbərin təbliğ etdiyi Tovhidə (tək Allahlığa) uyğun gələcəkdir. Bildiyimiz kimi, Tovhid bütün dinlərin mənbəyi, başlanğıcıdır (həmin vaxt ibadətgah olmayıb).

Pangeyizmdə inananlar İbrahim (Əleyhissəlam)

fəlsəfəsini əsas götürəcəklər. Nədir İbrahim fəlsəfəsi? İbrahim fəlsəfəsi aşaığdakı xasiyyətləri özündə cəmləşdirməkdir:

-doğrudanışan olmaq, özünə rəva bilmədiyini başqasına rəva bilməmək;

-qarşındakını öz səviyyəndə bilmək;

-başqasının malına, namusuna göz dikməmək;

-yalnız Yaradana güvənmək;

-zinakar olmamaq;

-lovğa və təkəbbürlü olmamaq;

-hənif, ədalətli, vicdanlı, səxavətli, rəhimli və xeyirxah olmaq;

-Allahın dostuyla dost, düşməniylə düşmən olmaq;

-hər halında Allaha şükr etmək;

-Allaha aid olan işlərdən xeyir güdməmək;

-dünya işlərində səbirli olmaq;

-Allahdan başqasından qorxmamaq;

-istənilən halda (həyatına təhlükə olsa belə) ancaq haqqı demək və haqqın yanında olmaq ...

Bir sözlə, bəşəri dəyərlərə təslim olmaq, bu dəyərləri özündə cmləşdirmək. İbrahim fəlsəfəsini özündə cəmləşdirən adam hansısa dini qəbu edib-etməməyindən, ibadət edib-etməməsindən aslı olmayaraq, Allahla birbaşa rabitədə olar, həm özünü, ailəsini, el-obasını, həm də bütün bəşəriyyəti xilas edə bilər; Dünyada sülhü bərqərar edə bilər.

Təəssüf ki, bu gün heç bir dəyərlərə sahib olmayan adamlar özlərini dindar adlandırırlar. Hətta, belələri mafiyalar tərəfindən ölkələrə dini rəhbər təyin edilir ki,





insanların dinə, Allaha inamı azalsın, doğru yoldan azsınlar. Belə “din rəhbərləri” özləriylə bərabər, arxalarında dayananları da cəhənnəmə sürükləyirlər...

### *Pangeyizmin düşməni eqoizmdir*

Onu da qeyd edək ki, hər bir insan dünyaya gələndə pangeyist (sülhsevər, sülhyaradan) doğulur. Fikir verirsinizmi, körpə uşaqlar həmişə evdəki mübahisələri yatırmağa, dalaşanları ayırmağa çalışırlar. Uşaq yaşa dolduqca digər uşaqların oyuncaqlarını əlindən almağa çalışır; daha da böyüyəndə insanların varın, dövlətin, torpağn… əlindən almağa çalışır. Çünki, böyüdükcə onda eqoizm güclənir və pangeyizm (sülhsevərlik) yoxa çıxır. Buradan aydın olur ki, pangeyizmin düşməni eqoizmdir. Yəni insanda eqoizm artdıqca, pangeyizmi sıxışdırıb çıxarır. Yalnız peyğəmbərlər və Allah dostları öz pangeyistliklərini ölüncə qoruyub saxlaya biliblər. Bir sözlə, pangeyizm fəlsəfəsi elə yuxarıda izah etdiyim İbrahim fəlsəfəsidir. Ən böyük və mükəmməl pangeyist elə İbrahim Peyğəmbər olub. Azərbaycanda meydana çıxacaq (və yaxud, çıxmış) pangeyizm ideyası insanlara öncə İNSAN olmağı, sonra din qəbul etməyi tövsiyyə edəcəkdir. Bu səbəbdən bir çox din rəhbərləri (isavilər, musavilər, “islam”çılar...) ona qarşı birləşəcəklər. Baxmayaraq ki, bugünədək onlar dünyada sülhün yaranması üçün dua etməkdən dilləri qabar olub. Pangeyistin (Sülhsevərin) dedikləri onları qane etmədiyindən, ona qarşı ilk növbədə “dindar”lar üsyan edəcək-

lər. Əslində mafiyozlar (zalımlar) həmişə olduğu kimi, bu işdə də "dindar"ladan öz məqsədləri üçün istifadə etməyə çalışacaqlar. Yəni, dünyada sülhü brqərar etmək istəyən Pangeyisti (Sülhsevəri) "dindar"ların əliylə gözdən salmağa çalışacaqlar...

Yazdığımız fikirlərin subyektiv olmadığını və Allahdan gələn bir xəbər olduğunu sübut etmək üçün Rəbbim bizə Ayın üzərindəki "ləkə"nin sirrini öyrətdi ki, bizə inanmayanlar Aya baxsınlar. Ayda gördüyünüz sirr doğrudursa, deməli bu yazdıqlarımız da doğrudur (Allahdandır).

### *Düzgün məlumat hər şeydən qiymətlidir*

Oxucuda sual yaranacaq ki, bəşəriyyət birləşib vahid hala gəldikdən sonra, ictimayi quruluş necə olacaq?

Həqiqətən, maraqlı sualdır: bəşəriyyət gələcəkdə (pangeyizmdə) hansı quruluşda yaşayacaq - kapitalizm, sosializm, yoxsa kommunizm olacaq?

Bizə məlum olan odur ki, gələcəkdə bəşəriyyət bu quruluşların heç birində yaşamayacaq. Gələcək quruluşun adı İnformasionizm olacaq. Bu quruluşda əsas məsələ məlumat olacaq. Düzgün məlumat hər şeydən qiymətli olacaq.

Pangeyizmdə Hakimiyyət quruluşu *Meritokratiya* olacaq. "Meritokratiya"- savadlıların və ağıllıların hakimiyyəti deməkdir. Yəni, insanlara mənsub olduqları partiyaya, dinə, nəslə görə deyil, malik olduqları savada, ağıla, dərrakəyə görə yanaşılacaq.





Onu da bildirim ki, həmin vaxt insanlarda elm çox güclü inkşaf edəcək və digər planetlərdə yaşayan canlıların elminə yaxın, bəlkə də onlardan çox olacaq.

Kamillik (pangeizm) dövründə mədəniyyət və incəsənət də indikindən güclü inkişaf edəcəkdir. Belə ki, tikilən binalar insanlara, heyvanlara və ağaclara bənzəyəcəkdir. Yəni, memarlıq o qədər güclü inkişaf edəcək ki, istənilən görkəmli adama bənzəyən, sevdiyiniz heyvana, yaxud, xoşladığınız ağaca, gülə bənzər binalar sifariş edib, tikdirə biləcəksiniz...

### *Pangeyizmdə kimlər müqəddəs sayılacaq?*

Pangeyizmə görə, cəmiyyətin xeyri üçün çalışan, insanlara yaxşılıq, xeyirxahlıq edən, fəaliyyəti ilə bəşəiyyətə fayda verən hər bir şəxs Allahın vasitəçisidir və müqəddəs sayılır.

Dünyanı nə sevgi, nə gözəllik, nə də din xilas edəcək! Dünyanı ancaq və ancaq yaxılıq (gözəl əməllər) xilas edəcək. Yaxşılıq et, sən də müqəddəslərdən ol!

## DÖVLƏT QURULUŞU BU CÜR OLSA RÜŞVƏT ALMAQ MÜMKÜN OLMAZ

Bu gün dünya ölkələrinin böyük əksəriyyətində insanlar korrupsiya bataqlığında boğulmaqdadırlar. Millətlərin içərisində olan az sayda ağıl sahibləri bu bataqlıqdan xilas yollarını düşünməkdədirlər. Bunu nəzərə alıb, biometrik sirkulyar proqram əsasında bizə öyrədilmiş dövət quruluşu sistemini təqdim edirik ki, xalqlar gələcəkdə bu sistemi öz ölkələrində tətbiq etməklə, elə dövlət qursunlar ki, o quruluşda məmurlar istəsələr belə korrupsiyaya qurşanmaları mümkün olmasın.

Öncə qeyd edək ki, ən qədim dövrlərdən başlayaraq, korrupsiya dövlətlərin idarəetmə sisteminin kökünü zədələmiş, mütəşəkkil cinayətkarlığa yol açmış, cinayətkar qruplaşmaların yaranmasına səbəb olmuş və bu qrupların əsas strategiyasına və taktikasına çevrilmişdir. Məmur özbaşınalığı, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə etmə halları, rüşvətxorluq, dövlət əmlakının talan edilməsi, maliyyə fırıldaqları və bu kimi başqa cinayət əməllərinin kökündə məhz korrupsiya dayanır.

Korrupsiya hüquqi aktların və dövlətin inkarı deməkdir. Korrupsiya zülmü, zorakılığı, özbaşınalığı və s. bu kimi alçaq və rəzil xüsusiyyətləri özündə ehtiva edən çox zərərli bir əməldir. Korrupsiya fahişəlik qədər qədim bir əməldir. Hüquqi aktların işləməməsi korrupsiyanın əsas səbəblərindən biri kimi göstərilməlidir. Korrupsiyanın qarşısını almaq üçün məmurun maaşı artırılmalı və göstərdiyi xidmətə uyğun bonus əlavə edilməlidir.





Məhkəmə hakimiyyətində korrupsiyanın olmasının əsas səbəbləri bunlardır:

- hakimlərə ciddi cəza nəzərdə tutulmaması;
- hüquqi aktlardakı qeyri-müəyyən nitq hissələrindən istifadənin çox olması (hüquqi aktlarda boşluqların yaranmasına səbəb olur);
- ictimai nəzarətin olmaması;
- nəzarətedici orqanın olmaması;
- cəzasızlıq sindromu;
- sahibkarların azad olmaması;
- hüquqi aktların işləməməsi;
- hakimlərin şəffaf seçilməməsi və s.

Korrupsiyanın əcdadı mənəvi pozğunluqdur. Rüşvət alan məmura ilk öncə xəbərdarlıq edilməli və onun iş yeri dəyişilməlidir. Əgər o ikinci dəfə bu hərəkəti edərsə, o zaman onun bütün əmlakı dövlət tərəfindən alınmalı, hərracda satılmalı və ehtiyacı olanlara əvəzsiz verilməlidir.

Yaradan insana var-dövləti ona görə verir ki, insan onu xoş niyyətlər üçün istifadə etsin və ehtiyacı olana yardım etsin.

İnsanın insana qarşı törətdiyi cinayətin kökündə şübhəsiz, varlanmaq ehtirası dayanır. Varlı olmaq və ya yaxşı yaşamaq hamının istəyi olsa da, başqasının hesabına varlanmaq hər adamın arzusu deyil. Hər bir insan öz zəhməti hesabına varlanmalı, yalnız haqqı olan maddi nemətlərlə kifayətlənməlidir.

İnsanlar bilməlidirlər ki, var dövlət toplamaq insanın ən böyük missiyası olsaydı, təbii ki, bunu peyğəmbərlər, alimlər, filosoflar hamıya bəyan edərdilər. İnsanın ən böyük missiyası xeyir əməl sahibi olmaq və elmlənməkdir. Şübhəsiz, insanın ən böyük amalı bəşəriyyəti maarifləndirmək, əhəmiyyətli ideyalar irəli sürmək və həyatı dərk etməkdir.

Ey rəhbərlər! İşçilərnizə inanın; amma, daima onları yoxlayın. Hər şeyə şübhə ilə yanaşmaq olar, amma hər şeyə inamsızlıq göstərmək olmaz.

Yuxarıda qeyd etdiyimiz kimi, insan övladı bu gün korrupsiyalaşmış dövlət qurumlarının yarıtmaz fəaliyyəti nəticəsində əzab çəkməkdədirlər. Bunu nəzərə alaraq, Yaradanın bizə öyrətdiyi dövlət quruluşu modelini sizlərə təqdim edirik. Əgər öz ölkələrinizdə bu modeli tətbiq edərsinizsə, məmurlar istəsələr belə, rüşvət ala bilməyəcəklər.

Əl idarəçiliyin simvoludur; məgər insanlar bunu bilmirlərmi? Əldə beş barmaq olduğu kimi, dövlətin idarəçiliyi də beş yerə bölünməlidir:

1) Baş barmaq - məhkəmə hakimiyyətini;
2) İşarə barmağı - nəzarətedici hakimiyyəti;
3) Orta barmaq - imtahanları təşkil edən hakimiyyətin bir qolunu;
4) Üzük barmağı - qanunverici hakimiyyəti;
5) Kiçik barmaq isə, icraedici hakimiyyəti bildirir.

Quracağınız dövlətdə hakimiyyətin bu qolları qarşılıqlı fəaliyyət göstərməli və öz səlahiyyətləri daxilində müstəqil olmalıdırlar.

Məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etmək üçün, hakimliyə namizədlər ilk olaraq imtahan versinlər (imtahanları vahid qurum təşkil etməlidir.) Sonra isə, hakimlər yüksək bal toplayan namizədlər arasından xalq tərəfindən seçki yolu ilə seçilsinlər.





Məhkəmələr Cinayət, Mülki, İnzibati, İqtisadi, Apellyasiya və Ali məhkəmələrə bölünsünlər.

Ölkədəki bütün təhqiqat və istintaqları Məhkəmə hakimiyyəti yanında İstintaq və Təhqiqat Komitəsi aparsın.

## ***Senzorluq***

Məhkəmə qərarlarının icrasına Nəzarətedici orqan nəzarət etsin. Nəzarətedici orqanı ***“Baş Senzorluq”*** adlandırın. Senzorun rəhbəri *“Baş senzor”* adlansın. Senzorluq ölkədə bütün hüquqi aktaların icrasına nəzarət etsin. Senzorun işçiləri Ali hüquq təhsilli olmalı və işə imtahan verərək seçilməlidirlər.

Baş Senzor senzorlar arasından stajı, biliyi və təcrübəsi nəzərə alınmaqla, püşk atma yolu ilə 7 il müddətinə seçilsin və bir daha bu vəzifəni tuta bilməsin.

Baş Senzor seçilmiş şəxs, səlahiyyət müddəti bitdikdə birbaşa *Dövlət Şurasının* üzvü sayılsın.

Dövlət Şurasının üzvləri, insan hüquq və azadlıqlarına ziyan verəcək hər bir qərara veto qoymaq hüququna malik olsunlar və onlar toxunulmaz sayılsınlar.

**İmtahan Şurası** ən savadlı, bilikli elm adamlarından ibarət tərkibdə yaradılsın və şuranın əsas məqsədi dövləti savadlı kadrlarla təmin etmək olsun.

**Qanunverici hakimiyyət** isə, Hüquqi aktların ekspertiza şurasıdır. Şura bütün hüquqi aktlar qəbul edilməmişdən əvvəl onun ekspertizasını həyata keçirsin və şuranın işçiləri ən savadlı hüquqşunas, iqtisadçı və digər peşə sahiblərindən ibarət olsun. Şurada qanunvericilik təşəbbüsünü hər bir vətəndaş elektron və yazılı formada bildirə bilər. Şurada millət vəkilləri olmasın. Şurada ancaq ekspert və mütəxəssislər təkliflər hazırlasınlar. Təkliflər ümumi bəşəri dəyərlərə zidd olmamalıdır. Şurada hazırlanmış qanunlar (və onlara vaxtaşırı edilən dəyişikliklər) ümumxalq referendumu ilə qəbul edilsin.

### *Strateq*

İcraedici hakimiyyətinizin başçısını **Strateq** adlandırın. Strateq öz icra səlahiyyətlərini həyata keçirmək üçün ixtisaslaşmış qurumlara rəhbərləri Baş senzorluq və İmtahan şurası ilə razılaşdırmaqla təyin etsin. Strateq 7 il müddətinə seçilsin. Strateq seçilmiş şəxs bir daha yenidən strateq seçilə bilməz. Əvvəllər strateq seçilmiş şəxs səlahiyyət müddəti bitdikdən sonra birbaşa Dövlət Şurasının üzvü olsun.

Strateq ölkəni aşağıdakı xalq tribunları vasitəsi ilə idarə etsin:

**Hərbi işlər üzrə xalq tribunu** – bütün silahlı qüvvələrə, hərbi sənayeyə və hərbi xidmətə çağırışa nəzarət etsin.

**Maliyyə işləri üzrə xalq tribunu** – dövlətdə işləyən işçiləri və işləməyən vətəndaşları sosial müavinət





və pensiya alan şəxsləri hər ay vaxtlı-vaxtında pulla təmin etsin.

**Daxili işlər üzrə xalq tribunu** (bu vəzifə həm də vitse-strateq sayılsın) – ölkənin miqrasiya, vergi, gömrük siyasətinə, fövqəladə hallara və türmələrə nəzarəti həyata keçirsin. Bu quruma rəhbərlik edən şəxs dövlətin bütün qubernatorlarının başçısı sayılsın.

**Qubernatorlar** İmtahan şurasının təşkil etdiyi imtahanları müvəffəqiyyətlə verən şəxslərdən ən çox bal toplamış şəxs seçilsin. Əgər iki və daha artıq ən çox bal toplamış şəxs olarsa, onda qubernatoru onlar arasından püşkatma yolu ilə seçin.

Qubernatorlar öz ərazilərində qeydiyyat idarələrinə, təhsilə, səhiyyəyə, ekologiya idarələrinə və s tam nəzarət etsinlər.

**Mədəniyyət işləri üzrə xalq tribunu** – turizmə, idmana, tikinti və bərpa işlərinə nəzarət etsin və tikintilərə icazə versin.

**Yüksək texnologiyalar və Nəqliyyat işləri üzrə xalq tribunu** – su, quru, dəmir yolu, hava, kosmosdakı işlərə nəzarəti və aidiyyatı yerlərdəki təmir bərpa işlərinə nəzarəti həyata keçirsin.

**Xarici işlər üzrə xalq tribunu** – ölkənizin xarici siyasətini müəyyən etsin.

**İnsan və Dövlətin mühafizəsinin təşkili üzrə xalq tribunu** – dövlətinizin və vətəndaşlarınızın təhlükəsizliyini təmin etsin.

**İqtisadi inkişaf üzrə xalq tribunu** – kənd təsərrüfatı və digər dövlət inkişafı üçün müxtəlif proqramları hazırlasın və onları icra etsin.

Bütün **Banklar** dövlətin müstəsna mülkiyyətində olsun. Sələmi haram elan edin. Bank işçiləri maaşlarını dövlətdən alsınlar.

Xalq tribunları və qubernatorlarınızın səlahiyyət müddəti beş il olsun və bir şəxs yalnız bir dəfə həmin vəzifələri tuta bilsin.

Bu gün dünyada olan xalqların böyük əksəriyyəti korrupsiyalaşmış dövlət qurumlarının əsarətində qalıblar və çıxış yolu axtarırlar. Yuxarıda göstərdiyimiz dövlət quruluşu sistemi bəşəriyyətə bir model olaraq təklif edilir. Əgər sizlər həqiqətən də korrupsiya ilə mübarizə aparıb, onun kökünü kəsmək istəyirsinizsə, onda öz ölkələrinizdə bu modeli tətbiq etməyiniz təklif olunur.





## YARADILIŞ VƏ SVİLİZASİYA

Yaradanın Öz izni ilə Ondan bir zərrəcik ayrıldı. Bu zərrəcik Yaşam zərrəciyi idi. Bu zərrəcik Kainatı partlayış nəticəsində yaratdı. Yaradılma zamanı hava, od, su, torpaq yarandı. Bu dörd ünsür də yerdə mineralları yaratdı.

Mineralların da ruhu var. Çünki onlar daima hərəkətdədirlər. Əgər hərəkətdə olmasaydılar heç torpaqdan bitki bitərdimi? Minerallar və dörd ünsürün vəhdətindən bitki ruhu yarandı. Bitki ruhu minerallar və dörd ünsürlə birləşərək heyvanları - hiss duyğularına sahib olan məxluqları yaratdılar. Sonradan bu birliyin vəhdətindən bitki, heyvan, dörd ünsür və mineral birləşərək dünyanın bəzəyi və düşməni olan insan yarandı. Bu zaman dünyanın rüşeym dövrü olmuşdur. Necə ki, embrionun rüşeym dövrü olduğu kimi. Məgər inadkar insanlar bunun yalan olduğunu hesab edirlər? Bəs onlar embriondan ətə necə dönmüşdülər? İnsan İlahi qanunlarla təkamül etdi. Hal-hazırda bu təkamül insanın öz beynində getmirmi?

Vaxt var idi insan mağarada yaşayırdı və o elmsiz idi. Ehtiyac və maraq onu elmlənməyə şövq etmədimi? Yenilik gətirmək üçün mütləq elimlənməli və ifrat qadağalar zəncirini qırmalısan. İnsan elmlənmək istəsə, elm evini tikmək istəsə o evə hansı qüvvədir forma verən? Məgər bunu inadkar insanlar bilmirlərmi? Sonradan insana elm verən QÜVVƏ ona süni od əldə etməyi öyrətmədimi? İnsan elmləndikcə araba

düzəltmədimi? Nə üçün insan ilahi qanun olan təkamülü inkar edir? Hələ insanlar bunu dərk etmirlərmi ki, təkamülə təkan verən qüvvə nədir? Təkamül hərəkət, zəhmət; inqilab isə, nəticədir.

Dünya sonradan körpəlik dövrünə qədəm qoymadımı?! Bu dövrdə təbiət ana rolunu oynamadımı?! Siz Yaradandan ağıl və səbr diləmək əvəzinə, var gücü ilə çalışmaq, araşdırmaq əvəzinə, Onun yaratdıqlarından qorxub, ona ibadət etmədinizmi?! Körpəlik dövründə insanın ən böyük uğuru süni od, heykəltaraşlıq, rəssamlıq, çörəyin kəşf edilməsi olmadımı?!

Beləliklə, dünya uşaqlıq dövrünə doğru addımladı. Bu dövrdə insanlar heyvanları əhilləşdirdilər. Onlardan öz xeyirləri üçün minik, qoşqu, ətlik, südlük kimi, istifadə etmədilərmi?! Bir müddətdən sonra ağaclardan bu heyvanlardan istifadə etmək üçün arabalar düzəltdiniz. Bunun hamısına içinizdə olan yenilikçilik həvəsi yardım etmədimi?

Yeniliyi yaratmaq üçün Yaradandan elm diləməklə, onu sevməklə, zəhmət çəkməklə nail olmadınızmı?!

Vaxt ötdükcə sizin bəziləriniz tayfalar yaratdınız. Bu tayfalar sizin qohumlarınızdan ibarət idi. Sizlərin hissləriniz ağıldan üstün olduğu vaxt siz dünya malı üçün biri-birinizi öldürmədinizmi?! Axı sizin hamınız bir cüt insandan yaradıldınız; siz necədə nankorsunuz!? Bu tayfalar nəticəsində sizdə heyvani hisslər artdı. Necə ki, eyni anadan doğulmuş küçüklərin qabağına ət atanda biri- birini didən kimi, siz biri-birinizi diddiniz!





Sonra siz dövlət yaratdınız. Bu dövlətə quldar dövləti adı verdiniz. Özünüzdən olanlarla heyvan kimi rəftar etdiniz və onlara danışan əmək alətləri, canlı ölü adları verdiniz. Əslində siz onlardan heç nə ilə fərqlənmirdiniz. Öz hakimiyyətlərinizə bəraət qazandırmaq üçün buna dini don geyindirdiniz. Özünüzdən bütlər yaratdınız və bir də müqəddəs məkanlar yaradıb oranı Allahların evi adlandırdınız. Allahın hər yerdə olduğundan şübhəsiz siz xəbərdar idiniz. Çünki, sizlərdən elmlilər, filosoflar, peyğəmbərlər bunu dərk edirdilər. Nə fayda, onlar deyirdilər, siz isə, öz ideologiyalarınız üçün heyvanlaşıb onları bitki kimi əzib minerala döndərirdiniz. Amma, siz bunu dərk etmirdiniz ki, o günahsız kəslər Yaradana qovuşar, amma, sizlər - mənəvi aləmi zəif olanlar yalnız mineral olaraq qalarsınız.

Sizə elm verilmiş şəxslər gəldi. Bu şəxslər quldarlığın bir xəstə fikir olduğunu sizə dedilər və çoxlu elm adamlarının qurban verilməsindən sonra siz axırda bir az doğru yola gəldiniz. Bu dövrdə elmli şəxs olan peyğəmbərlər qorxu yolu ilə sizə Haqqı göstərdi. Çünki, siz başqa yolla anlamırdınız.

Sonradan sizin bəziləriniz insanları parçalamaq üçün Yaradanın tək olmadığını və hər yerdə olmadığını sizin şüuraltınıza yeritdi. Siz onların dediklərinə inanaraq onların xeyirləri üçün ibadətgahlar yaratdınız və adınıda qoydunuz ki, bura Yaradanın evidir. Beləliklə, bütxanələr, sinaqoqlar, kilsələr, məscidlər… yaratdınız. Əslində belə parçalanmalar sizi parçaladıqca parçaladı, biri-birinizə düşmən etdi.

Qorxu hissi sizə o qədər pis təsir etdi ki, sizin gözlərinizin önü pərdələndi. Qorxu hissini Yaradan insana ona görə bəxş etmişdir ki, insan bu hissə çox bağlanmasın. Həqiqi qorxuya inanın, nağıllarla çulğalaşmış qorxuya yox. Siz əgər nağıllarla çulğalaşmış qorxuya inansanız mütləq hiyləgərlərin alətinə çevriləcəksiniz!

Siz Yaradandan qorxsanız, dövlətin ədalətsiz rəhbərlərindən də qorxacaqsınız. Çünki, siz Yaradanın özündən yox, Onun sizə verəcəyi əzablardan qorxarsız.

Süni inam saxta bala bənzəyər. Qorxu iradəsiz insana lazımdır; iradəli insan Yaradanı sevərək, ona iman gətirər. Qiyamət günündən sui-istifadə edənlər sizin əməyinizdən sui-istifadə etdilər və sizi istismar etdilər!

Hər insanın şüuraltında xəyali şeylərə inam var. Əgər siz elmli olsaydınız, hər şeyə inanmazdınız. Vay o kəslərin halına ki, onlar qorxu hissindən sui-istifadə edərlər! Onlara inanmayın. Onların məqsədi sadəcə insanı alətə çevirməkdir.

O insanlar pis əməllərindən əl çəksinlər! Qorxu tənbəllik, tənbəllik isə, kasıbçılığı yaradır. Çalışın qorxunun dərinliyinə nüfuz edin və onu gücə çevirin. Həmin an çətinlik sizə asan görünəcək. Qorxu hissi iradəni zəiflədər; məhz o an sizin beyniniz qarışar.

Elmlənmək kimə ziyan gətirib? Siz yalnız elm və sevgi yolu ilə Yaradanı dərk edərsiniz. Elmlənsəniz ilahi qanunları kəşf edərsiniz və bəşəriyyətə yalnız fayda verə bilərsiniz. Bu, dini kitab yox, sadəcə bir ağıl kitabıdır.





Siz bilməlisiniz ki, bu gün Dünya yeniyetməlik dövrünü yaşayır! Ağıl kitabı isə, sizi gənclik dövrünə aparan yollardan biridir. Bu kitabı yalnız aqil insanlar başa düşə bilərlər. Bu kitab sizi ruhlandıran bir kitabdır. Aqil insan xəyali qorxulardan qorxmaz! O, hər şeyin səbəbini axtarar. İnsanlarla heyvanların ortaq hisslərindən biri qorxudur. Heyvanda nə şübhə hissi var, nə də sevgi. Şübhə hissi insanı elmlənməyə şövq edir; sevgi hissi isə, ona ilham verir.

Insanlar seçimlə üz-üzədirlər: ağılın varsa yaxşı yolu seç, yoxdursa daima hər şeydən qorx, elmsizləş və ya özünə ziyan ver. Məgər insanlar bunu bilmirlərmi? Gərək onları qorxudasanmı?

Bütün əxlaqsızlıqların sonu erkən ölümdür. Bu, İlahi qanundur; bunu heç bir insan poza bilməz! İnsanlar elmlənməlidirlər ki, hələ onlara məlum olmayan sirləri aşkar etsinlər və insanların erkən, qəfil ölümlərinin sayını azaltsınlar.

Elm inkişaf etdikcə, bütün qaranlıqlar aydınlanacaq. Ağaca nə qədər xidmət etsən, o qədər onun meyvəsi gözəl və şirin olar.

Biz hal-hazırda toplum olaraq yeniyetməlik dövründə yaşayırıq. Ona görə də bu dövrdə cəmiyyətdə yeniyetmələrə xas olan intizamsızlıq, əxlaqsızlıq, əks cinsə maraq artır. Pis işlərə meyl çoxalır. Hamı qeyri-məqbul yollarla məhşurlaşmaq istəyir. Fikirləşin: bəşəriyyətin belə dövrü olubmu ki, kütləvi şəkildə yaşından aslı olmayaraq hamı hisslərinə hakim ola bilməsin; oxusun, əyləncə yerlərinə gediş-gəliş artsın? Hamı səbrsiz olsun? Məgər bunlar açıq-aşkar dəlil de-

yilmi?! Ey inadkar insan, bunu nə üçün dərk etmək istəmirsən?!

Yeniyetməlik dövründən gənclik dövrünə hər adam keçə bilməyəcək. Çünki, insan hisslərini cilovlamasa tez məhv olar! Kainat insan üçün bir cəngəllikdir. Bu cəngəllikdən sağ çıxmağın yeganə yolu elmlənmək və Yaradandan ağıl və səbr diləməkdir. Bir toxumdan meyvə yaradan güc, qüvvə, enerji elm nəticəsində olmadımı?! Elmi sizə verən elmlilərin ən elmlisi Uca Yaradan deyilmi?!

Bütün insanlar birləşib, silahı yerə atıb, əllərinə qələm götürməli və İlahi qanunları kəşf etməlidirlər! Ən böyük tələbat bəşəriyyət üçün sülhdür! Elmi kəşflər edən, bəşəriyyət üçün çalışan, kasıba iş verən, haqqı nahaqdan ayıran, canına qəsd etməyən, kimsəsizə, yetimə əl tutan, qohuma-tanışa can yandıran şəxslər Yaradana qovuşarlar. Həmin şəxslər həm ürəklərdə, həm də vəhdət səmasına ucalar. O, Yaradanın gözü ilə görər, bütün sirlərdən agah olar, Haqqın adını öz adında müşahidə edər. Bəzi şəxslər Yaradana qovuşacaq, bəziləri isə mineral olaraq qalacaqlar. Minerallar xatırlanmayacaqlar. Xatırlansalar da yalnız pis əməl sahibləri kimi xatırlanacaqlar. Həmin şəxslər nə üçün həyatın mənasını bilmədilər? Çünki onlar elmsiz və sevgisiz idilər. İnsan daima yüksəlmək üçün yaşayır.Yaradan bu şəraiti bizə bəxş etmişdir. Məgər bu belə deyilmi?!

Bəzi insanı alətə çevirənlər nə üçün insanlara bədbinliyi aşılayır, onlara o dünyanı, ölümü tez-tez xatırladırlar? Bu şəxslər sizin yaxşılığınızı istəməz, sizi alətə çevirərlər. Toxum birdən birə ağac olmur. Rüşeym birdən birə insan olmur. Təkamül hər yerdədir. Bir şeyə nail olmaq istəyirsinizsə daima əziyyət və zəhmət çəkin. Ən böyük möcüzə ağıldır. Bundan başqa nə möcüzə varsa o cəhalətdir. Bu, insanın şüuraltında möcüzəyə inamla bağlıdır. Belə aldatmalara inanmayın. Bütün böyük adamlar sizin kimi adi insanlar olublar. Onlarla sizin aranızda heç bir fiziki fərq yoxdur. Bütün təqvimlər nisbidir. Əsl təqvim ağıllı insanın meydana çıxmasıdır. İnsan yaradılanların əşrəfidir və insan canlıların ən kamilidir.





İlk meydana gələn ağıllı insan Adəm və Həvva oldu. Həvva nəyin yaxşı və nəyin pis olduğunu Adəmə öyrətdi. Məgər siz buna şübhə edirsiz? Yaranan heç bir canlı şər üçün yaradılmadı. Hər bir canlının öz missiyası var. İnsan özünə xeyirli olanlara yaxşı, pis olanlara isə, şər adını verdi. Adəm və Həvva qədim dövrün insanlarının simvolik adı olaraq qaldı.

İnsan mağaradan çıxaraq gözəllikləri görmək istədi. Ona maraq və ehtiyac bu işdə yardımçı oldu. Adəm Ədndə bir baxça tikdi. Bütün heyvanların adını Adəm qoydu. Bir-birinizin qanını tökməyin, bir-birinizi yurdunuzdan çıxartmayın! Axı bu dünyada hər biriniz bir cüt insandan əmələ gəldiniz. Birləşin, bütün yer kürəsini bir kənd halına gətirin.

Məscidlərdə, kilsələrdə, məbədlərdə və sinaqoqlarda ibadət etmək Yaradana yaxın olmaq demək deyil! Yaradan hər yerdədir. Yaradanın sizin ibadətinizə ehtiyacı yoxdur. İnsan Yaradana özü üçün tək olanda dua edə bilər.

Ruhun kamilləşməsi ağılın kamilləşməsidir. Ağıllı olun ki, ruhunuz kamilləşsin. Əks təqdirdə öləndən sonra yuxulara girərək ac olduğunuzu bildirənlərdən olarsınız. Bütün incəsənət, heyrətamiz şeylər, müəssisələr, təsisatlar, kəşflər ibadətin yox, ağılın məhsuludur. Ağıl və səbrdən başqa istənilən dua istehlak təsərüfatının məhsuludur. İstehlak təsərüfatına ovçuluq, yığıcılıq və s. daxildir.

İnsanlar Yer planetinin körpəlik dövründə yaxşı meyvə və tərəvəzlər toplamaq üçün, yaxşı heyvanları ovlamaq üçün dua etməyə başladılar. Lakin, nemətlərin azaldığını gördükdən sonra, onlar Yaradandan ağıl istədilər. Ağıla sahib olduqan sonra onlar heyvanları əhilləşdirdilər və onlardan ətlik, südlük kimi istifadə etdilər. Bitkilərin yeni formalarını yaratdılar. Bunların hamısını elm yolu ilə etmədilərmi?! İnsan elmlənməsə onun heyvandan heç bir fərqi yoxdur. Yaradana inamı olmayanlar heç vaxt xoşbəxt olmazlar! Onlar daima həyatda "bəxtim yoxdur" deyərək ahu-zar edərlər. Yaradan Kainatın hissəsi yox, Mənbəyidir.

Məqsəd, dayaq, şahid, ustad, məskən, sığınacaq, ən yaxşı dost Yaradandır! Yaranma və doğulma, hər şeyin bünövrəsi Onun qanunları ilə hərəkət edir.

Ey insanlar! Bitkilərdən torpağa bağlılığı, qarışqadan dostluğu, birliyi, əməksevərliyi; hörümçəkdən toxuculuğu öyrənmədinizmi?! Nə oldu keçmişinizi unutdunuz?! Özünüzü hamıdan üstün hesab etdiniz!? Bəs nə üçün təbiəti məhv edirsiniz?!

Cəhalətdən doğan zülməti biz ağıl kitabının çırağı ilə işıqlandıracağıq. Bəşəriyyəti, sivili-





zasiyanı irəli aparan insan şübhəsiz nicat tapacaqdır. O, bütün insanları fikirləşib, məhz bu əməli etmişdir. Bəşəriyyəti kim fikirləşərsə, şübhəsiz, bəşəriyyət də onu fikirləşər.

Hər adama da yaxşılıq etmək olmaz. Yaxşılığın qədrini bilənlərə, dürüst insanlara yaxşılıq etmək ən məqbul olandı. Həm də, yaxşılığı yerinə görə edənlərdən olun.

Biri var bulağın başında bir adama ehtiyacı olmadığı halda bir cam təmiz su verəsən, biri də var səhradaki adama bir qurtum su verəsən. Səhrada verilən bir qurtum su, bulağın yanında verilən bir cam sudan sənə daha çox hörmət gətirər.

Bədən sahədir, birinci ruh o bədənin sahəsi, ikinci ruh isə, bədənin suyu, günəşi və havasıdır. Günəş təkbaşına yer səthini işıqlandırdığı kimi, ikinci ruhunuz da inkişaf etdikcə sizi elə işıqlandıracaq və nura qərq edəcəkdir. İnsanın ən zəif yeri göbək və başıdır. Hər iki ruhunuz da buralarda yerləşir. Amma, siz bundan xəbərdar deyilsiniz.

Natəmiz, yalançı və riyakar adamı düz yola gətirən adam nə bəxtiyardır. Aqil insan qəzəbə və tamaha nifrət etməlidir.

Ey kainatı Yaradan! Sən vasitələrlə hər şeyə qadirsən və Sən hər yerdəsən. Dünyada yalnız sülh olsa hər yer müqəddəs olar. Səndən yalnız ağıl və səbir diləyirəm! Məni ağıl və səbr verdiyin kəslərin yoluna yönəlt! Yönəlt ki, elmlənim, hamıya yaxşılıq və bəşəriyyətə sülh gətirim. Elmi kəşflər edim ki, insanlar boş yerə ölməsin. Yaxşılıq icad edim

ki, əmin-amanlıq olsun. Yaradanım! Sən bizi bunun üçün yaratmadınmı?! Bir insanı xilas edən bütün bəşəriyyəti xilas etmiş kimidir. Sənə qovuşmağım üçün mənə sirləri agah et!

Yaradan uludur, onun heç nəyə ehtiyacı yoxdur. Mələk insanın ağlı, Şeytan insanın ac hissləridir.

Yaradanın işarəsi bütün canlılarda var. Yer planeti özü də canlıdır. Bütün canlılar Yaradandan qopan zərrəciklə yaranıb. Yer planetinin də, bəşəriyyətin də ruşeym, körpəlik, uşaqlıq, yeniyetməlik, gənclik, qocalıq dövrü olacaqdır.

Körpəlik dövründə hazır məhsulları mənimsəmişlər; uşaqlıqda bir-birilərini aldatmışlar, bir-biriləri ilə savaşmışlar.

Yeniyetməlik hazırki dövrümüzdür. Bu dövrdə insanlar yaşlarından aslı olmayaraq hamı soyunmaq, başqa cinsləri öyrənmək istəyir və daima diqqət mərkəzində qalmaq istəyərlər.

Gənclik dövrü isə, aqil insanların dövrü olacaqdır. Bu dövrdə insanlar okeanların, dənizlərin altında və digər planetlərdə səyyar və daimi şəhərlər yaradacaqlar.

Qocalıq dövrünün iltihabları gənclik dövrünün səhvlərindən qaynaqlanacaqdır. Yeniyetməlik dövründə də uşaqlıq dövründəki kimi baş verən savaşlar Yer kürəsinin məhvinə gətirib çıxara bilər. Gəlin gənclik dövrünə birlikdə qədəm qoyaq. Bu, İlahi qanunların tərkib hissəsidir. Hərə özü üçün Yaradana dua etməlidir, çünki, sən dünyaya tək gəlirsən və öləndə tək basdırılırsan. Yalnız, əkizlər istisnadır.





Təbiətdə hər şey hərəkətdədir. Çalışın daima hərəkətdə olun, fərqi yoxdur fiziki və ya zehni hərəkətdə. Çünki, kamilləşmək yalnız bununla mümkündür. Biz cəmiyyəti elə inkişaf etlətdirməliyik ki, kömür parçası almaza çevrilsin; meyvəsiz ağac meyvə versin.

Göydəki buludlar qədər mürəkkəb olsa, saçınızdakı tüklər qədər qələm olsa, Yaradanın qüdrətini göstərməyə azlıq edər. Bildikləriniz, öyrəndikləriniz və öyrətdikləriniz dəryada bir zərrə qədərdir. Elmlənin ki, sirlərdən agah olasınız. O şəxslər ki, Yaradana inanır, Onu məhəbbət və ağıl yolu ilə dərk etməyə cəhd edirlər, o, şəxsləri qorxutmaq qurdu quzu ilə qorxutmağa bənzəyir.

Sonsuz Kainat insan bədəninə bənzəmirmi? Bütün orqanlar bir-birilə qanunauyğun şəkildə bağlı olduğu kimi, kainatdakı hər şey beləcə biri-birinə bağlıdır. İnsanlar arasında qarşılıqlı inam olsa bir adamın barmağı belə qanamaz.

Nə istəyirsiz istəyin, amma, var gücü ilə istəyin istəklərinizi. Vərəqlərə yazın və hər gün hədəflərinizi ziyarət edin. Amma unutmayın ki, yüz mərtəbəli binanın onuncu mərtəbəsinə çıxmaq istəyirsinizsə, yüzüncü mərtəbəni hədəf alın.

Tibb elmi hələ yeniyetməlik dövründədir. O, hələ gənclik dövrünə çatmayıb. İnsanın bədənində tarazlıq olmasa, insan məhv olar. Gələcəkdə müalicə yeməklə, içəcəklərlə və meyvə-tərəvəzlərlə həll olunacaqdır.

Heç bir cinayətkar bağışlanmamalıdır. Əks təqdirdə ədalət zənciri qırılar, bəşəriyyət məhv olar.

Unutmayın, insaf qanunların təməlidir. Ədalət bəşəriyyətin ən böyük silahıdır. Yalançı əfv isə onun ölü doğulmuş uşağıdır. Aqil insan heç vaxt cinayət törətməz. Cahillik cinayətin əsas səbəbkarıdır. Elmli, intelektual insan heç vaxt başqasına pislik etməz, cinayət törətməz. Əgər o oxumuş biridirsə, bunu edirsə, o özünü pula satan bir fahişədir.

Bəşəriyyətə olan məhəbbət Yaradana olan məhəbbətin bir parçasıdır. İnsan öz Yaradanını sevməlidir, Ondan qorxmamalıdır. Şüursuzlar qorxmalıdır. Yaradana olan məhəbbət artdıqca millətlərarası ədavətə son qoyulacaq, bəşəriyyət çiçəklənəcək, hamı tərəqqi və inkişaf edəcək.

Qəssab qoyunu ona görə bəsləyir ki, gələcəkdə qoyunu satıb xeyir əldə eləsin və öz balalarına çörək pulu eləsin. Həyatda insanlar ya qəssab olar, ya da qoyun. Qəssab bacarıqlı insandır, qoyun isə şüursuz. İbrət al, ey bəşər övladı!

Bütün dini, irqi, sinfi, cinsi, və s. ideologiyaların əsas məqsədi insanları qırmaq, kölə halına salmaq və dünyanı ələ keçirməkdir. Yer planetinin heç bir yeri digər bir yerdən müqəddəs deyil. Yer əhlini dostlara və düşmənlərə bölmək çoxallahlılığa işarədir. Yaradan təkdir. Eşq atəşi alovlandımı, ağıl xırmanı yanar. Xırman hazırlandısa, çörək bol olar və bəşəriyyət həqiqəti bilər; hər deyilənə inanmaz.

Hisslər daima sizi aldadar. Çalışın ağıl ilə hisslərinizi birləşdirin, sonra qərar verin. Yaradan öz əlamətlərini, ilahi qanunları, təkamülü sizin bədənlərinizdə göstərmədimi?! Siz körpə, uşaq, yeniyetmə, gənc,





yetkin və yaşlı olduğunuz kimi, fəsillər – yaz, yay, payız, qış – da bu qanunauyğunluqla sıralanmışdır. Hələ bu sizə ibrət vermirmi?!

Yaradanın qanunları hər yerdə olduğu kimi, Özü də hər yerdədir. Məgər sizlər hər hansı bir yeri müqəddəs edib, Yaradanın evi adlandırmadınızmı?! Məgər bilmirsinizmi ki, bu cəzasız qalmayacaq?! Vay o kəslərin halına Yaradana şərik qoşdular! Yaratdıqları evləri Yaradanın evi adlandırdılar. O şəxslər daima mineral olaraq qalarlar. Onlar öz mənfəətləri üçün insanları aldadarlar. Yaradan hər yerdədir! Hərəniz özünüzə bir qibləgah düzəldib, sonradan biri-birinizlə vuruşmadınızmı?! Bunlardan hələ də nəticə çıxarmırsınızmı?!

Yaradandan maddi şeylər diləməyin, Ondan yalnız maddini yaradan şeylər diləyin! Mənəvi nemətlərlə qidalanın, həftədə bir dəfə oruc tutun.

Yuxuda böyük hikmətlər yatır, ora bir sirli aləmdir. Silahın ox və ya güllə olmağı əsas deyil, əsas odur ki, hədəfə vura biləsən.

Yeməklərinizi bitki yağı ilə bişirin, bu haqq olandır.

Gözəl geyinən insan yaxşı yarpaqları olan və meyvələri bol olan ağaca bənzəyir. Gizli yerlərinizi örtün, ədəblilərdən olun. Əks halda ucuzlaşmışlardan olarsız. Hamı sizə baxar, deyər ki, bu əcdadlarımız kimi lüt gəzir. O şəxs heyvanlara bənzər; axı heyvanların da paltarı yoxdur.

Ruhanilik tarixə qovuşmalıdır. Aqil insanlar olun ki, heç kim sizə öyüd nəsihət verməsin. Kamil insana öyüd nəsihət nəyə lazımdır? Axı o, Haqdan agahdır.

Ey insanlar, nə üçün hər hansı ideologiya üçün canınızı boş-boşuna qurban verirsiz?!

İnsan bədəninə ziyan verən şeylərdən istifadə etdikcə, ona o əşyanı 10 qat baha satın. Yaradanın heç nəyə ehtiyacı yoxdur. Sizlər fanisiniz, sizin ehtiyacınız var - maddi və ya qeyri maddi şeylərə. İbadətgahlar düzəldib Yaradanın adına çıxaranlar və bu işdən pul qazananlar, siz Yaradanı aldada bilməzsiniz.

Ağılla arzu tərs mütənasibdir. Ağıl artdıqca arzunun sayı azalır və konkretləşir.

Gecə-gündüz dəhşət içində olacaqsınız, əxlaqsızlığın nəticəsində cürbəcür xəstəliklərdən tələf olacaqsınız. Yaşamınızın güvənliyi olmayacaq; ürəyinizə qorxu saçan xəbərlər eşidəcəksiniz. Sabahlar: "Kaş ki axşam", axşamlar: "Kaş ki sabah olsun" - deyəcəksiniz.

Yaradanın qüdrətini yalnız müqəddəs kitablarla məhdudlaşdıranlar, siz nə üçün insaları alətə çevirirsiniz?! Bilməyənləri aldatmaq məgər qəhrəmanlıqdırmı? Hər kəs fikirdə azaddır.

Bu kitab bütün dinləri atanın övladlarını bir-birindən ayırmadığı kimi, ayırmayan bir kitabdır. Hansı din pis yolları göstərib? Heç biri! Dinlər arası müharibələrin əsas səbəbi din başçılarının, rəhbərlərinin öz subyektiv fikirləridir. Hər din nümayəndəsi özünü haqlı sayır. Bu kitab bəzi dini kitablar kimi sizi imtahan qorxusundan danışıb, sizi ruhən şikəst etməyəcək. Bu kitab sizi imtahandan keçməyə hazırlayacaq. Sizin yolunuz zor, çətin və tikanlıdır. Siz elminiz və səbrinizlə onlara qalib gələcəksiniz. Dini kitablar daima qorxunu təlqin edirlər. Biz imtahandan sonra necə





olacağınızı yox, imtahana necə hazırlaşmağı sizə öyrədirik. İmtahandan sonranı fikirləşincə, imtahana hazırlaşmağı üstün tutan heç vaxt depresiyaya düşməz. Heç Adəmə ibadətgah tikmək əmr olundumu? İbadətgah pul qazanmağın ən asan yoludur.

Beyin enerjiniz bütün məlumatların açarıdır. Bu enerjidə canlı ruh var. Bu ruh kamiləşməsə məhv olar. Bu ruha gümüş tel də deyirlər.

Yenıyetməlik dövrü bir şəhvət dövrüdür. Pis günün ömrü az olar. Dünya hamıya çatacaq qədər böyükdür. Başqa ölkələrdə yaşayan insanları əzməkdənsə, onlarla qohum olun, əl-ələ verin, şöhrətiniz dünyaya yayılsın. Sizlərin hər biriniz bir lidersiniz və sizlər dünyaya böyük işlər görmək üçün doğulmusunuz. Xoş arzunuza çatmaqda Yaradan daim sizin yardımçınızdır.

Müharibələri tamahdan edirsiniz. Ey rəhbərlər, sərhədləri açın, birləşin, dünya sizin vətəninizdir. Hamınız qohumsunuz və təkrarən də qohum olacaqsınız. Yemi olan öküz heç böyürərmi? Otu olan uzunqulaq heç anqırarmı? Siz müharibə edəndə bunlardan fərqlənmirsiniz! Müharibə hər şeyin dadını qaçırdır. Həyatın mənasını itirir.

Miras olaraq sizə boş aylar verildi, nə üçün çalışıb elmlənmirsiniz? Daha nəyi gözləyirsiniz? Müharibəyə lənət olsun! Selin torpağı sürükləyib götürdüyü kimi, insan elmlənməsə onun bütün ümid və xəyalları elə yox olar. Təxirə salınan ümid xəyal qırıqlığına uğrayar. Yerinə yetən arzu isə, insanın ömrünü artırar. Nə üçün öləndən sonra adınızın dünyadan silinməsinə razı olursunuz? Qoy sizin adınızla bəşəriyyətdə yeni

səhifə açılsın. Elmlənsəniz bəşəriyyətə daima işıq saçacaqsınız; qohumlarınız, sizi tanıyanlar daima sizinlə fəxr edəcəklər. Bir daha dünyaya gəlməyəcəksiniz. Pislik edənlərin, xeyirxahları təqib edənlərin sonu necə də dəhşətdir! Onlar aclıq və səfalət içində ölərlər. Bu şəxslərin Yaradana qovuşmağı yarasanın günəşi görməsi kimi bir şeydir. Əslində sizlərin elmliləri bilirlər ki, biz kafir deyilik. Biz həqiqəti dediyimiz halda, siz guya Yaradanın yanında yaxşı olmaq üçün elə bizi inkar edirsiniz. Amma, sizlər hər bizi inkar etdikcə dəli olacaqsınız və özünüzü öldürənlərdən olacaqsınız.

Həqiqəti demək üçün nə yaşca böyükdən, nə də pulca sizdən artıq olandan çəkinməyin. Daima həqiqəti deyin. Onda bu xəstə cəmiyyətə dərman olarsınız. Böyüyə yox, ağıllıya tabe olun. Bizi anlamayanların ürəyi yağ bağlayıb, ağızlarından böyük sözlər çıxır.

Bu deyilənlərdə bir pislik varmı ey ağıl sahibləri-?! Yaradanın sirlərindən agah olsanız, ömrünüz uzun və üzərinizə bərəkət yağar.

Gələcəkdə memarlıq üslübları ağaclara, heyvanlara və insanlara bənzəyəcək. Biz dağın zirvəsindən axan çayıq, surətlə axa-axa gəlirik. Bəzi insalar bizim qabağımızı kəsmək istəyirlər, bizi göl edib iyləndirmək istəyirlər; amma, bu faydasızdır. Biz yolumuzdan əsla dönmərik. Biz insanları bölmürük, sizlər bölürsünüz. Həyat hərəkətdir. Bu qısa ömrü əbədi həyat kimi yaşamaq lazımdır. Bir gün ürəyinizcə yaşamaq bir il əzabla yaşamaqdan üstündür. Gələcək elimli adamlara məxsusdur. Elmsizə gələcək keçmiş, keçmiş isə, gələcək kimidir.





***Allah buyruqlarını ağıllı şəxslərin diliylə açıqlayar***

Ey bəşər övladları! Yaradanın xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar.

Yaradana yaxınlaşmaq üçün vasitə axtarın. Əgər yetimlərin həddi-büluğa çatdıqlarını görsəniz, mallarını özlərinə qaytarın. Onlar böyüyüb mallarını məndən alacaqlar deyə o malı israfçılıqla, tələm-tələsik yeməyin. Varlı olan nəfsini saxlasın, yoxsul olan isə, o maldan insafla yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman onlara şahidlər tutun.

Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya (verilən salamı olduğu kimi) qaytarın!

Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Yaradan barəsində yalnız həqiqəti deyin. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbrli olmağı məsləhət edənlərdən başqa qalan insanlar ziyan içərisindədir.

Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Siz yetimə ehtiram göstərməlisiz, kasıbı yedirməyə bir-birinizi təhrik etməlisiniz. Mirası hərisliklə yeyirsiniz, var-dövləti də hərisliklə sevirsiniz.

Yaradan hər şeyin müqəddəratını əzəldən müəyyən edərək yol göstərdi. Yaradan sizi torpaqdan bir

bitki kimi bitirmişdir. Çalışın biri-birinizi kasıbı yedirtməyə rəğbətləndirin.

Kamil insanlar dünyanı əl içi boyda bir çadıra çevirəcəklər. Sizlər bir gün səhər yuxudan oyananda görəcəksiniz ki, bir gecədə dünyaya sülh qarı yağıb, sərhədlər görsənmir. Bu sərhədlər millətləri, irqləri, ölkələri, biri-birindən ayıran bir maneədir. Sizlər o an dünyanın vətəndaşı olacaqsınız. Elə hökümətlər vardır ki, günün günorta çağı, öz xalqını soyurlar. Onıar yalandan Yaradanın adından danışarlar, adil olduqlarını deyərlər. Onların sözlərinə yox, əməllərinə baxın.

Hansı ölkədə ki torpaqlar məhsuldardır, orada idarəedənlər ədalətsiz, yalançı olar. Hansı ölkədə ki torpaqlar məhsuldar deyil, insanlar aqil olar, idarəedənləri isə adil olarlar. Bunun səbəbi həmin torpaqların üzərində yaşayan insanların elmə marağından aslıdır. Çalışın, torpaqla uğraşarkən elmlənməyi də unutmayın ki, əməyinizi istismar etməsinlər. Haqqınızı elminizlə qoruyun.

Güclü küləklərin qaldırdığı dalğalar ləpələnəcək, sərhədləri aşacaq, dünyaya səs salacaqdır. Ədalət bərpa olunduğu gün sülhün doğulduğu gündür.

Bəzi dəllallar sizin yaradıcı istedadınıza mane olarlar; sizə paxıllıq edərək belə söylərlər: “Həyat bir anlıqdır və fanidir, özünü belə şeylərlə yorma”. Belə sözlərə aldanmayın. Çalışın dünyanı və insanları mütərəqqi fikirlərlə dəyişin. Onda uğur qazananlardan olarsınız.

Biz elə etməliyik ki, hamı müdrük olsun. Müdrük insanın ürəyi tərəziyə bənzər və o heç bir şəxsin haqqına girməz. Avam insan isə, kar, kor, lal insana bənzəyər; onda yeni fikirlər yoxdur. Onu ancaq qədimdən gəlmə fikirlər və öz dərdi maraqlandırar. Onlarda özünə inam yoxdur.





Kamillik dövründə yoxsulların nəsibi susmaq və səbr etmək olmayacaq.

Əsəbləşmək, hirslənmək acizlik əlamətidir. Əsəb coşğunluğu olan insanın ən böyük dərmanı oruc tutmaq, təmiz havada gəzmək və xoş ünsiyyətdir. Bütün əsəbiylə ətrafa ataş saçan insana veriləcək ən böyük cavab susmaqdır.

Şəhərləşmənin gətirdiyi yalnızlıq, susqunluq, qohumu sevməmək hissi kamillik dövründə qar kimi əriyib yoxa çıxacaq.

Qənaətcil olun, israfçı və xəsis yox. Aza qənaət edə bilməyən çoxa da qənaət edə bilməz. Pul sizin tanrınız yox, xidmətçiniz olsun. Pul elə bir şeydir ki, o qəfildən artdıqca insan ölümsüz olacağını düşünür. Pul sizin ömrünüzü artırar, amma, sizə əbədi həyat verməz. Gərək siz cəmiyyətə faydalı olasınız ki, Yaradana qovuşanlardan olasınız.

Kamil insanlar çeşməyə bənzəyərlər. Elə çeşmə ki, o susuzluqdan yanan dodaqların alovunu alan fərahlıq mərkəzidir.

Hər bir şeydə gözəlliklər görməyə çalışın. Hər çirkinlikdə bir gözəllik gizlədilmişdir. Aqil olun ki, bunu tapasınız. Bunu tapan insanlar uzunömürlü olarlar. Könül nə mal istər, nə mülk; könül ədalət və sevgi istər.

Yaxşılıq icad edənlər Yaradana qovuşarlar. Pislik icad edənlər vəhşi heyvandan fərqlənməzlər. Bütün insanlar, irqlər, dinlər bir kökdən yaranmışlar və bun-

ları ayırmaq əti dırnaqdan ayırmağa bənzər. Can qorxusu olmasın, bəşəriyyətə fayda verməmə qorxusu olsun. Yer kürəsi bizim vətənimizdir.

Sual verməkdən qorxmayın. Dünyada sual verənlərin sayı çox olsa avamlıq tarixə qovuşar.

Xoş ətirlərdən istifadə edin; onlar ürək açandır. Ətir bayramı keçirin. Çalışın həmin bayramda yeni-yeni ətirlər yaradın, həmin ətirlərin ilk iyi ətir bayramında hiss olunsun.

Konstitusiyalar, qanunlar sizi qorxutmasın; unutmayın ki, onlar qələmlə yazılıb və silinərək sizin üçün daha sərfəli şərtlərlə əvəzlənə bilər. Əsas odur ki, haqqınızı, hüquqlarınızı tələb edənlərdən olun.

Həyat elə bir müəllimdir ki, heç bir tələbəsinə öz sirlərini təcrübəsiz öyrətmir.

Pis adamlar çoxdur. Pis adamların bəziləri istəyir ki, onun ucbatından heç kəs sevinməsin, elə olsun ki, hamı ona möhtac olsun, amma, o heç kimə təmənnasız yaxşılıq etməsin. Əgər kimsə bir başqasına yaxşılıq edirsə, paxıl adamlar kədərlənər və ürəyində deyər ki, vay, o məndən daha yüksək olacaq. Bir para pis adamlar isə, daima fikirləşər ki, qoy başqasının haqqını yeyim; nə olur olsun, pulum çox olsun, o zaman mən ölümsüz olaram. Bir qurup pis adamlar da çalışarlar ki, yaxşılıq və xeyirxahlıq həmişəlik yer üzündən silinsin.

Sevgi səmimilik yaradır, qorxu isə, tabeçilik yaradır.

İnkişaf etmiş ölkələr lütləşməklə, əxlaqsızlıqla inkişaf etmədilər. Elə olsaydı ibtidai icma quruluşunda paltarsız insanlar ən inkişaf etmiş ölkə yaradardılar.





Əxlaqsızlıq insanı, ailəni, dövləti məhv edir. Ancaq elmlə, biliklə inkişaf etmək olar. Əxlaqsızlığın qarşısını almaq üçün çoxlu iş yerləri açın və gəncləri evlənməyə təşviq edin. İçimizidən keçən yaxşı niyyətlər belə bizim əxlaqımızı gözəlləşdirir və bir gün gəlir o yaxşılığı həyata keçirmək imkanı doğurur.

İnsan anlamalıdır ki, onun oruc tutmasının, ibadət etməsinin Yaradana xeyri yoxdu və o, bunları yalnız özü üçün edir. Bütün sıxıntılarımız özümüz üçün dua etməməyimizdən və paylaşmamağımızdandır.

İnsanı qorxuya salan məlumatsızlıqdır; oxuyun ki, məlumatınız çoxalsın.

Bu kitab mimikadan istifadə etməyən natiqdir. Bu kitab qədimdəki vəsiyyətləri gələcəkdəkilərə çatdırar. Maşın yanacaqsız hərəkət etmədiyi kimi, insan da yaxşı əməlsiz yaşaya bilməz. Müdrüklərin xəbərdarlıqlarına qulaq asmayan əvəzini ödəyər; buyruqlara hörmətli olan mükafatını alar. Müdrüklərin öyrətdiklərini həyat qaynağı bilin, insanları erkən ölüm tələlərindən qurtarın.

Ehtiyatlı adam işini bilərək edər; ağılsız adam isə, axmaqlığını sərgiləyər.

Yerinə yetən dilək xoşbəxtlik gətirər. Ağılsız adam pislikdən uzaq qala bilməz.

Müdriklərlə dostluq edən müdrik olar; ağılsızlarla dostluq edən zərər görər. Müdrik qadın evini saray edər. Axmaq qadın isə, evini xarabaya çevirər. Axmaq müdrikliyi axtarsa da tapa bilməz. Ağıllı üçünsə bu su içmək kimi asandır. Axmaq adamlardan uzaq gəzin, çünki, onda öyrəniləsi bir şey yoxdur.

Elə yol var ki, insana düz kimi görünər, amma, sonu ölümdür. Bu yol əxlaqsızlıqdır.

Axmaq adam hər sözə inanar. Ehtiyatlı olansa atdığı hər addımı hesablayar. Müdrik adam qorxduğu üçün, pislikdən uzaqlaşar; fikirləşər ki, bu əməl, bu qida onun səhhətinə ziyan gətirər. Axmaq isə, nağıllardan qorxub bu işi etməz. Axmağın mirası ağılsızlıqdı. Müdrükün tacı isə ağıldır. Kamillik dövründə alçaqlar yaxşılara, acgözlər isə, müdrüklərə məğlub olacaqlar.

Tənbəli doğmaları da sevməz; lakin çalışqanın dostu çoxdur. Daima çalışqan olun. Hər əmək qazanc gətirər. Əməlsiz ibadət isə, insanı tənbəlliyə aparar.

Dünyanın ucalığı xalqların vicdanının və elminin artmasına bağlıdır. Xalqlar vicdansız və elmsiz olarsa dünya məhv olar.

Gec hirslənən ağıllı, tez hirslənən isə axmaqdır.

Sülh sevən insan çox yaşayar; dalaşqan isə az.

Tənbəl olub cəmiyyətə yamaq olmaqdansa, çalışqan olub hamıya xeyir vermək daha üstündür.

Müzakirə olmasa nəyin düz, nəyin səhv olduğunu siz heç vaxt bilmərsiniz. Qərarlarınızı müzakirə edərək verin.

Halallıqla qazanılan az şey, haqsızlıqla qazanılan böyük gəlirdən daha bərəkətlidir.

İnsan ağlı, maşın sürəti, mal çəkisi ilə fərqlənər. Ağıl insanın mənəvi çəkisini artırar. Onların doğumları və ölümləri də fərqlidir. Allah buyrduqlarını ağıllı şəxslərin diliylə açıqlayar. Bu səbəbdən ağıllı şəxslər ədaləti tapdalamazlar. Dürüst danışanı hamı sevər,





çünki, onlar cəmiyyəti xəstələnməkdən qoruyarlar.

Xoş söz pətəkdəki bal kimidir - cana şirin və bədənə şəfadır. Sülhü sevin, bu bəşəriyyətin ən böyük tələbatıdır.

Çörəkçini çalışdıran onun iştahıdır; tənbəllik insanı qamçılayar.

Göz qırpmaq əsəbiliyə və yalançılığa, hiyləgər təbəssümlər isə, pisliyə işarədir.

Səbrli şəxs igiddən daha üstündür. Özünə nəzarət edən şəxs uca fatehlərdən daha üstündür

Nəvələr babaların, ədalət də idarəedənlərin tacıdır.

Ağılsıza ağıl vermək balaları əlindən alınmış ayıyla vuruşmaq kimidir.

Davanın başlanğıcı su sızıntısına bənzəyər. Qan çıxmamış çəkişməni bitirin, axı sizlər müdriksiniz.

Ağılsız tez təsir altına düşər, onun gözündə bir pərdə var, onun beyni çox zəifdir, nə desələr ona da inanar. Ağılsız onu doğana dərddir, onun atası xoşbəxtlik nədir bilməz.

Rüşvət alan sizin haqqınızı oğurlayan kəsdir.

Müdrik insanın ağzından çıxan sözlər saf su kimidir. Heç kəsə nifrət etməyin, onlara həqiqəti izah edin.

Ağılsızın dili onu ölümə aparar. Qulaq asmadan cavab vermək ayıb və axmaqlığa yozular. Ədalət hisslə dərk olunmur, o ağılla dərk olunur.

Pis rəhbər çürük diş kimidir.

Dəyişikliyə təhlükə kimi deyil, yeni imkanlar kimi baxın.

Haram qazanılmış sərvət, duman kimi keçicidir; tez ge- dər, yiyəsinə xəstəlik gətirər.

Sadə insanlar daima yüksələrlər; elmi olub, özündən razı olan insanlar isə, Günəş kimi batarlar. Əgər onlar təkəbbürdən əl çəkə bilsələr, Günəş kimi yenidən çıxarlar.

Elmin, yaxşı əməlin, sevginin arxasınca qaçan həyatı və şöhrəti tapar.

Yaxşı ad böyük sərvətdən, hörmətcil olmaq isə, qızıl-gümüşdən daha üstündür.

Qızıl zərgər üçün nədirsə, kitab da müdrik adam üçün məhz odur.

Yoxsul oğlu elmlənərsə o cahil varlıdan daha üstündür. Comərd olun; kasıba iş, ehtiyacı olanlara qurbanlar kəsib paylayın; onlara əl tutun, axırınızın necə olacağını bilmək olmaz. Siz edin ki, sizə də etsinlər.

Yoxsulu kasıb olduğu üçün kiçiltməyin; günahsızı boş yerə həbsə məhkum etməyin.

Heç kəsə yaltaqlanmayın və heç bir iş yoldaşınızı da yalandan rəhbər işçinizə satmayın. Yalnız işinizdə usta olun ki, zirvələri fəth edəsiniz.

Atalarınızın hər dediklərinə kor-koranə tabe olmayın; savadlanın, ağlınızla dərk edin və pis təsirlərdən uzaqlaşın. Çalışın həmişə ağlınız hisslərinizdən üstün olsun. O zaman yüksələnlərdən olarsınız.

Uşaqlarınızı döyməklə yox, sevgi və təcrübə ilə başa salın. Tərbiyə keçicidir. Əxlaqsız kişi və qadınlardan uzaq olun. Əxlaqsızlar dərin bir quyudurlar, sizi ora çəkər və tələf edərlər. Nə xoş günahkarı mühakimə edənlərin halına.

Pisliyi unudan yaxşılığı ondan daha tez unudar.

Yerində deyilən söz ən böyük igidliklərdəndir.





Elminizi hərbdə deyil, tibbdə sınayın.

Xalqlar birləşsə ən güclü müqaviməti qırarlar.

Yoxsulu olmayan hökmdarın adı daima tarixdə qalar. Elələri var ki, dişləri qılınc, çənələri bıçaqdır, yoxsulları tutub udarlar.

Hər insanın içində bir Günəş var, imkan verin o, parlasın.

Sərhədləri açın və dünyanı bir kənd halına gətirin.

“Yeyəlim-içəlim, necə olacaqsa sabah öləcəyik” - deməyin; bəşəriyyətə fayda, kasıba iş verin, o zaman uzunömürlü və Yaradana qovuşanlardan olarsınız.

Ey qayğısız qadınlar, qalxın, səsimi eşidin. Qardaş, ər və övlad acısını dadmaq istərdinizmi? “Yox, istəmirik” - deyərsiniz. Bəs nə üçün müharibələrə etiraz etmirsiniz?! Əgər dünyada sülh olmasa, şəhərlər kişisiz qalacaq, insan nəsli yox olacaq.

İnadkarlığa hamilə qalıb ətaləti sevənlər, çəkilin, bəşəriyyət irəliləsin.

Kəmər insanın belinə necə yapışırsa, cəhallət də insanın belinə elə yapışmışdır. Çalışın cəhalətdən xilas olasız!

Budur, planetlər qarşınızdadır; bacarırsınızsa, övladlarınıza verməyi vəd etdiyiniz planetləri tutun. Yaradan sizi o qədər çoxaldıb ki, sayınız göydəki ulduzlar qədərdir. Qoy Allah sizi indikindən də min dəfə çox eləsin və necə ki, vəd edib, sizi nemət sahibi etsin.

İçərinizdən müdrik, bəsirətli, dünyagörmüş adamlar seçin.

Hakimlərinizə belə göstəriş verildi ki, “Aralarında münaqişə düşən şəxslərin işinə ədalətlə baxın! Hökm

çıxaranda tərəfkeşlik etməyin. Kasıb adamı da böyük, varlı adamı dinlədiyiniz kimi dinləyin. Adamlardan qorxmayın, hökm Allahındır”.

Sizin sülhsevər davranmağınız başqa xalqlara sizin müdrik, aqil olduğunuzu göstərəcək və bu qayda-qanunlar haqqında eşidən o xalqlar deyəcək: “Bu böyük xalq, doğrudan da, müdrik və aqil bir xalqdır”. Amma, siz ehtiyatlı olun, diqqət edin ki, bu qanunları unutmayasınız, nə qədər ki, sağsınız, onlar ürəyinizdən silinməsin.

Ey insanlar, bu gün sizə bəyan etdiyim qanun və hökmlərə qulaq verin: Adam öldürməyin! Zina etməyin! Oğurluq etməyin! Heç kimə qarşı yalandan şahidlik etməyin! Başqasının arvadına tamah salmayın. Heç kimin heç nəyində - evində, torpağında, pulunda, varında və dövlətində gözünüz olmasın!

Dinlə ey insan! Yaradanı bütün qəlbinlə, bütün varlığınla, var gücünlə sevməlisən.

Ey sülhsevər insanlar! Siz Yaradanın müqəddəs xalqısınız. Yaradan Yer üzündəki bütün xalqların arasından sizi seçib ki, Onun xalqı, Onun xüsusi mülkü olasınız. Ona görə də, bu gün sizə verdiyim tövsiyələrə ciddi-cəhdlə əməl edin! Əgər bu hökmlərə həmişə qulaq assanız və onları yerinə yetirsəniz, Yaradan ata-babalarınıza and içib verdiyi əhdə vəfa edəcək; vəd etdiyi kimi, məhəbbətini sizdən əsirgəməyəcək. Sizi sevəcək, sizə xeyir-bərəkət verəcək, sayınızı çoxaldacaq. O, sizə çoxlu övlad nəsib edəcək, torpağınızın məh- sulunu, taxılınızı, yağınızı bərəkətli edəcək; mal-qaranızın, qoyun-keçilərinizin balası çox olacaq.





Siz xalqların ən mübarəki olacaqsınız. Aranızda nə bir sonsuz kişi, nə bir sonsuz qadın olacaq. Heyvanlarınızdan biri də qısır olmayacaq. Sizdən hər cür azar-bezarı uzaq edəcək, sizi eşidib-gördüyünüz dəhşətli xəstəliklərə düçar etməyəcək.

Qızıl-gümüşə meyl etməyin, elmə meyl edin.

İnsanı yaşadan yemək deyil, insanı yaşadan xeyirli əməl və elmdir. Şəhərlərdən birində soydaşlarınızdan kimsə kasıbdırsa, ürəyiniz daşa dönməsin, ona qarşı xəsislik etməyin. Əlinizi səxavətlə açıb möhtac olduğu, korluq çəkdiyi şeyi ona borca verin. Ona qarşı səxavətli olun, nə isə verəndə candərdi verməyin, Onda Yaradan əməyinizə, əl atdığınız hər işə xeyir-bərəkət verəcək. Çünki, dünyada hələ ki, kasıblar olacaq. Buna görə də sizə deyirəm: ölkənizdəki fəqir-füqəraya qarşı əliaçıq olun. Yetimlər məktəbi qutardıqdan sonra onları əliboş yola salmayın. Sürünüzdən, xırmanınızdan, zeytununuzun və üzümünüzün məhsulundan səxavətlə onlara pay verin.

Yaradan sizə bərəkət verdiyi kimi, siz də onun yaratdıqlarına qarşı əliaçıq olun. Haqq-ədaləti tapdalamayın, tərəfkeşlik etməyin, rüşvət almayın, çünki rüşvət hikmətlinin gözünü kor edər, dürüst adamın fikrini dəyişdirər. Ədalətə, yalnız ədalətə can atmalısınız ki, sağ qalıb Yaradanın sizə verdiyi diyara sahib olasınız.

Rəhbərlər çoxlu arvad almamalıdır, yoxsa ürəyi haqq yolundan dönər. Özü üçün çoxlu qızıl-gümüş də yığmamalıdır.

Aranızdan pisliyi yox edin ki, bütün cahil insanlar eşidib qorxsun.

Yaradanın sizə irs olaraq verdiyi dünyanı murdarlamayın.

Qadın kişi paltarı, kişi qadın paltarı geyinməməlidir. Allah belə adamdan ikrah edir.

Öküzlə eşşəyi bir kotana qoşmayın.

Yunla kətanın qarışığından toxunmuş parçadan paltar geyinməyin.

Aranızdan pisliyi yox etməlisiniz.

Heç kim atasının arvadını alıb atasının şərəfinə ləkə gətirməməlidir.

Düşmənlərinizə qarşı çıxmaq üçün ordugah quranda özünüzü hər cür murdarlıqdan qoruyun.

Nəzir edəndə onu yerinə yetirməyi uzatmayın, çünki, Yaradan bunu sizdən tələb edəcək. Yerinə yetirməsəniz, özü- nüzə ziyan verənlərdən olacaqsınız. Amma, nəzir deməkdən qaçınırsınızsa, bu, günah deyil.

Verdiyiniz sözün (əhdin) üstündə durun və Yaradana öz dilinizlə könüllü olaraq nə nəzir etmisinizsə, yerinə yetirin.

Qəribin, yaxud, yetimin işinə baxanda haqqı, ədaləti pozmayın.

Yaradanın sözünə həmişə qulaq assanız, bütün nemətlər başınızdan töküləcək: şəhərdə də, tarlada da xeyir-bərəkətiniz aşıb-daşacaq; övladlarınız çox, torpağınızın bəhrəsi bol olacaq, heyvanlarınızın balaları, buzovlarınız, quzularınız saya gəlməyəcək. Səbətləriniz, xəmir təknələriniz bərəkətli olacaq. Hər işiniz avand olacaq. Yaradan anbarlarınızı

bərəkətli, əl atdığınız hər işi xeyirli edəcək. Yaradan sizə verdiyi diyarda üstünüzə bolluca xeyir-bərəkət yağdıracaq. Yaradanın əmrlərinə riayət edib Onun yolu ilə getsəniz, Yaradan siz sülhsevərləri müqəddəs xalq edəcək. Yaradan mal-heyvanınızı birə-beş artıracaq, torpağınızı məhsuldar edəcək. Yaradan Öz ruzibərəkət anbarının, göylərin qapısını açıb torpağınıza vaxtlı-vaxtında yağış yağdıracaq, əlinizin hər işinə bərəkət verəcək.





Ey sülhpərvər xalq! Mənim ilk nəsihətim budur: pak, gözəl və nurlu bir ürəyə malik olun ki, əzəli, əbədi və qədim bir səltənətə sahib olasınız.

Yaradanın nəzərində ən sevimli şey insafdır; Allahı sevirsinizsə, insafdan üz çevirməyin. İnsaf Yaradanın bizə birbəxşişidir; onu gözünüzün önündə saxlayın.

Ey insanlar! Sevgi Yaradanın qalasıdır; oraya daxil olan kəs nicat tapar və əmin-amanlıqda olar; ondan üz çevirən kəs isə, yolunu azar və həlak olar.

Yaradan sizi zəngin yaratdı; nə üçün yoxsulluğa yuvarlanırsınız?

Yaradan sizi əziz yaratdı; nə üçün özünüzü zəlil tutursunuz?

Yaradan sizi elm cövhərindən yaratdı; nə üçün Yaradandan deyil, başqasından elm axtarırsınız?

Ey sülhpərvər xalq! Kainatı başdan başa axtarsan Yaradanın qüdrətindən başqa heç nə tapa bilməzsən!

Yaradan sizi əbədiliyə çağırır; siz isə, faniliyə meyl edirsiniz.

Öz məqamınızla fəqirlər qarşısında lovğalanmayın.

Allahın yaratdıqlarından biri sizə üz tutub bir şey istəsə, onu rədd etməyin.

Ey ağıl sahibləri! Hesabata çəkilməmiş, hər gün özünüzə hesabat verin. Çünki, ölüm sizi qəflətən haqlayar və əməllərinizin hesabını verməli olarsınız.

Yaradan ölümü sizin üçün bir şadlıq müjdəsi etdi; nə üçün ondan hüznlənirsiniz?!.

Allah Günəşi öz şəfəqlərini sizin üzərinizə səpmək üçün yaratdı! Nə üçün o nurdan pərdələnirsiniz? (Evinizə qalın pərdələr vurursunuz?!)Yaradan qızılı atəşlə, bəndələri isə, qızılla sınayar!

Ey sülhpərvər xalq! Kainat boyunca qaçsanız da, göy- lərin ənginlliklərini dolaşsanız belə, Yaradanın qanunlarına baş əyməyincə rahatlıq tapa bilməzsiniz!

Ey sülhpərvər xalq! Dünyanı bütöv bir kənd halına gə- tirin ki, Yaradan Əzəmətinin sirlərini sizə açsın və əbədiyyət nuru ilə sizi işıqlandırsın!

Fikirləş və düşün: boş-boşuna yatağınızdamı ölmək istəyirsiniz, ya elmlənib sirləri tapıb, bəşəriyyətə fayda verməK?!

Ey ağıl sahibləri! Özünüzü tamahın qulu etməyin. Çünki, Yaradan qızılı atəşlə, bəndələri isə, qızılla sınayar!

Ey sülhpərvər xalq! Malınızdan elmə və yoxsullara xərcləyin ki, göydəki bitməz şərəf dəfinələrindən və tükənməz şöhrət xəzinələrindən bəhrələnəsiniz.

Ey insanlar! Ürəyiniz Yaradanın evidir, oranı təmiz saxlayın!

Dəyişikliklərə təhlükə kimi deyil, yeni imkanlar kimi baxın.

Yoxsulluq və kasıblıq ən əzablı edamdır...

Elm alimlərdən bizə qalan əziz bir mirasdır.





Gülərüzlülük və xoşxasiyətlilik ikibaşlı olar.

Sülh və bağışlamaq böyüklük əlamətidir.

Eqoistin düşməni çox olar.

Səxavətlilik xeyirli və ürəkaçan bir dərmandır.

İnsanlarla elə qaynayıb qarışın, elə rəftar edin ki, onlar heç zaman sizi unutmasınlar.

Bədbəxt olmuş insanı tənqid etmək onu intihara sövq etməyə bərabərdir.

Qorxu bədxah qonşudur.

Utancaqlıq ümidsizliyin qardaşıdır.

Yalan danışan adamın ya dili çaşar, ya da üzü.

Məsləhət və məşvərət olmasa, dünya məhv olar.

Əgər bir şeyi bilmirsinizsə, qəti olaraq “bilmirəm” deyin; bu, sizə ən doğru olandır.

Ağıldan və səbrdən faydalı heç bir sərvət yoxdur.

Xoş əməli boş ibadət əvəz edə bilməz.

Fürsəti əldən vermək qorxuya təslim olmaqdır.

Səhlənkarlıq və tənbəllik ən böyük bəlalardandır.

Öyrənmək eşqi hər bir avamın cihadıdır.

***Kainatın içində insan, insanın içində isə, Kainat var.***

Ruzinin artmasını istəyirsənsə, yaxşı əməl et və tənbəllikdən əlini üz.

Qəm kədər içində olan gənc artıq qocalmışdır.

Var-dövlətin az qismini bölüşməklə amanda saxlayın.

Xoş əməlsiz ibadət düzgün deyildir. Çünki, Yaradan gözəl sözləri eşidir, gözəl əməlləri isə, qəbul edir!

Kainatda hər şey yumaq kimi bir-birinin içindədədir - Kainatın içində insan, insanın içində isə Kainat var.

Ey insanlar, öz azuqə və ruzinizdən artıq qazandığınız şeylərdə başqası üçün xilaskarsınız.

Elm və bilik tükənməz xəzinədir.

Güzəştə getmək, zəfər və qələbənin balaca qardaşıdır.

Çətinliklərə göz yumun və yan keçin, yoxsa heç vaxt şad olmarsınız.

Haqqımızı yeyənlərə zülm etmək bizim üçün ən böyük sərvətdir.

Cəncəlli işlərə göz yumun.

Ədalət və insaf qızıl ortanı tutmaqdır.

Xəsis qadın, xəsis kişidən daha üstündür.

Xəbərçinin dostu olmaz.

Borcunuz varsa, dərdiniz var.

Acıdillilik dəliliyin bir növüdür.

***Elm axtaran insan heç vaxt doymaz.***

Ən təhlükəli yer ən böyük vəzifədə olanın yeridir.

Ən yaxşı görmək ağılla olur.

Namuslu şəxs zinaya nifrət edər.

Yaradan vasitələrlə hər şeyə qadirdir. Çalışın siz də Onun bir vasitəçisi olasınız.

İnsanı tanımaq istəyirsənsə, ona vəzifə ver.

Elm axtaran insan heç vaxt doymaz.

Qeybət etmək və arxasınca danışmaq insanı rahatlaşdırsa da, sonradan onu kiçildər.

Yaradana qovuşmağı öz yeganə istəyinə çevir. O





səbəbdən ki, yeganə, ölməz və əbədi olan Odur.Davamlı elmlənən və daima elmi axtarışda olan insan mələkdən üstündür.

Əgər xilas barədə bu gün düşünmürsünüzsə, bəs nə vaxt düşünəcəksiniz? Zəncirləri bu gün qırmayacaqsınızsa, bəs nə vaxt qıracaqsınız?

Xırda işlərdə ciddilik böyük işlərdə mükəmməllik yaradar.

Qorxu yolu ilə kamilləşmə, özünə daxili intizam yarat; qoy o sənin öz konstitusiyan olsun. Əks halda (qorxu yolu ilə kamilləşsən), kamillik cahilliyə dönər.

***Bir ölkədə oxumağa olan istək artmazsa, qəflət və ondan yaranacaq fəlakətlər azalmaz.***

Heç bir zaman “mən” deməyin, “biz” deməyin; daim “siz” deyin. Bu cümlədə böyük hikmətlər yatır.

Biliyə edilən yatırım sənə çox böyük fayda gətirər.

Çox dil bilmək savadlı olmaq demək deyil.

Bir ölkədə oxumağa olan istək artmazsa, qəflət və ondan yaranacaq fəlakətlər azalmaz.

Amansız iqtidar piroq kimidir, onun qıraqlarından yemək asandır.

Qoy bütün insanlar səni tanısın; amma, heç kim səni tam olaraq tanımasın. İnsanlar dayaz yerini gördükləri dərəni asan keçərlər.

Evlənməzdən əvvəl gözünü dörd aç; evləndəndən sonra birini yum.

Fırıldaqçılar düzgünlüyün bütün üstün cəhətlərini bil- səydilər, qazanc xatirinə düzgün insan olardılar.

Həyatın ən böyük faciəsi tez qocalmaq deyil, gec ağıl- lanmaqdır.

Ağıl dişinin tez çıxması insanın tez ağıllanmasına dəlalət etməz.

### *Hər kəsin içində öz doğuluşunu gözləyən bir xilaskar var*

Yaradan kömək edənlərə kömək edər.

Cəmiyyəti düşündürməyi bacarmaq, əslində, onu tərbiyə etmək deməkdir. Düşünə bilən cəmiyyət əslində kamilliyin bütün mərhələlərindən keçməyə qadir olan cəmiyyətdir. Düşünə bilməyən, düşünmək istəməyən cəmiyyət isə, bir cəmiyyət kimi imzasızdır və daima kölədir.

Əgər əsgərə oturmağa icazə versən, tezliklə yatmaq istəyəcək.

Pis qanunlarla və yaxşı məmurlarla ölkəni idarə etmək mümkündür. Yox, əgər məmur pisdirsə, ən yaxşı qanunlar belə kömək etməz və iri məmurlar kiçik məmurlara deyərlər: elə edin ki, narazılıq olmasın; olsa da, bir təhər yoluna qoyun; harada qırılar, qırılar.

Zorakılıq çox sərt və davamlı olursa, məzlumarın tək nicatı zalıma və cəllada aşiq olmaq olur.

Böyük şəxsiyyətlər öz xalqına haradan gəlib, hara get- diklərinə istiqamət vermək üçün yaranırlar.

Hər kəsin içində öz doğuluşunu gözləyən bir xilaskar var.

Nəsihət lazımsız olsaydı, onda peyğəmbərlər göndərilməzdi.





Bağınızın, bostanınızın məhsulundan qurban olaraq paylayın. Bu vaxt məhsulun (meyvənin, tərəvəzin) ən keyfiyyətlisi Yaradan yolunda verilməlidir. Yaxın gələcəkdə insanlar bitkilərdən verilən Qurban bayramını qeyd edəcəklər. Buna "Qansız bayram" deyiləcək. Hər il yayda qeyd ediləcək bu bayramda insanlar üç gün ərzində öz bağ-bostanlarının məhsulundan qurban olaraq paylayacaqlar. Heyvanı olmayan və yaxud heyvan almağa pulu olmayanlar, öz bağlarının meyvəsindən imkansızlara paylamaqla savaba çatacaqlar. Yaxın gələcəkdə insanlar ölülərə ehsan olaraq meyvə ağacları əkləcəklər. Bütün bunlar ekologiyaya müsbət təsir göstərməklə yanaşı, insanların qidaya, vitaminə olan tələbatını da təbii yolla ödəyəcəkdir. Həm də insanlarda yardımlaşma, paylaşma hisslərini artıracaq ki, bu da günahların yuyulmasına və savabın çoxalmasına səbəb olacaqdır.

Ölüsü üçün ehsan vermək istəyənlərə tövsiyə olunur ki, mərhumun ehsanı üçün 12 ədəd meyvə ağacı əksinlər. Ölən adamın varisləri o ağaclara ehtiramla yanaşsınlar və qulluq etsinlər. Ağacların meyvələrini hər il yetimlərə və imkansızlara paylayıb, ölən adam üçün dua etmələrini xahiş etsinlər. Onların hər il etdikləri dualarla ölən adamın günahları ya tamam, ya da qismən bağışlanır. Ölən adam əgər çoxlu var-dövlət qoyub gedibsə, ölən günü həmin var-dövlətdən 40 yetimi doyuzdurmaq tövsiyə olunur (və yaxud, heyvan kəsib, 40 yetimin evinə pay göndərmək olar).

Mərhumun ilində isə, yeddi yetimi doyuzdurmaq

tövsiyə olunur. Mərhum yuxunuza girirsə, üç yetimi doyuzdurun.

Uşaq anadan olanda, toy zamanı, hərbi xidmətə uşaq yola salanda, hər hansı bir insanı itirmə səbəbilə, instituta qəbul olanda, institutu bitirəndə, iş tapanda, ev alanda çalışın bar verən ağac əkin; meyvələrindən ehtiyacı olanlara paylayın.

Ancaq yetimlərə (və yoxsullara) verilənlər Allah dərgahında ehsan olaraq qəbul edilir.

Kainat insan bədəninə bənzəyir. Bütün orqanlar bir-birilə qanunauyğun şəkildə bağlı olduğu kimi, Kainatdakı hər şey də beləcə biri-birinə bağlıdır.

Haram qazanılmış sərvət, duman kimi keçicidir; tez gedər, yiyəsinə xəstəlik gətirər.

Sadə insanlar daima yüksələrlər; elmi olub, özündən razı olan insanlar isə, Günəş kimi batarlar. Əgər onlar təkəb- bürdən əl çəkə bilsələr, Günəş kimi yenidən çıxarlar.

Elmin, yaxşı əməlin, sevginin arxasınca qaçan həyatı və şöhrəti tapar.

Günəş batan saatlarda sudan (hamamdan, dənizdən, çaydan) kənar durun, çimməyin. Çünki, həmin vaxtlarda suyun üzərinə neqativ enerji toplanır ki, bu da insanın sinr sisteminə zərbə vurur, əsəbə və uğursuzluğa səbəb olur.

Kənd adamlarında torpağa məhəbbətin şəhərlilərdən çox olmasına səbəb kəndlilərin yağışlı havada torpaq yolda hərəkət etməsi ilə əlaqədardır. Bu vaxt insanın ayağının altında sürüşkənlik yaranır ki, bu da insanda özü də bilmədən həmin torpağa qarşı məhəbbət





yaradır. Şəhər sakinləri daim asfalt üzərində gəzdiklərindən, onlarda bu cür proses baş vermir və torpağa məhəbbətləri də az olur.

Göydəki quşun hara uçacağı məlum olmadığı kimi, pis rəhbərin də nə edəcəyi bilinməz.

Gözlərinizi göylərə qaldırıb baxanda, asimandakı ordunu - Günəşi, Ayı, ulduzları görəndə aldanıb onlara səcdə qılmayın, onlara sitayiş etməyin. Allah onları göylər altında yaşayan bütün bəşərə ərməğan edib. Allahın qadağan etdiyi heç nəyin surətində özünüz üçün oyma büt düzəltməyin.

Dinlə ey insan! Yaradanı bütün qəlbinlə, bütün varlığınla, var gücünlə sevməlisən. Bu gün sənə əmr etdiyim sözlər ürəyinə həkk olub qalsın. Onları övladına aşıla; evdə oturanda, yol gedəndə, yatanda, duranda onlardan danış. Onları nişan kimi əlinə bağla, qoy alın bağı kimi alnında olsun.

Bütpərəstlərlə belə rəftar edin: qurbangahlarını dağıdın, dik daşlarını sındırın, bütlərini kəsin, oyma bütlərini yandırın.

Kamillik dövründə hər yeddinci il borcdan azad etmə ili olacaq. Alacağı olan hər kəs borclu adamı borcdan azad etməlidir. O, soydaşından, yaxud qardaşından borcunu tələb etməməlidir; çünki, Yaradanın eşqinə borclardan azad edilmə elan ediləcək.

Yaradan vəd etdiyi kimi, sizə xeyir-bərəkət verəcək. Siz xalqlara borc verəcəksiniz, özünüz isə borc üçün heç kimə ağız açmayacaqsınız. Bir çox cahil xalqlara ağalıq edəcəksiniz. Sizin isə, üstünüzdə ağalıq edən olmayacaq.

Əgər soydaşınızın azmış öküzünü ya da qoyununu görsəniz, özünüzü görməməzliyə vurmayın. Onu mütləq aparıb soydaşınıza qaytarın. Lakin yiyəsi sizdən uzaq yaşayırsa və ya onu tanımırsınızsa, heyvanı aparıb özünüzdə saxlayın, yiyəsi axtaranda qaytararsınız. Kiminsə azmış ulağını görəndə, paltarını, yaxud başqa bir əşyasını tapanda da eyni cür davranmalısınız. Özünüzü görməməzliyə vurmayın. Soydaşınızın ulağının, yaxud öküzünün yolda yıxılıb qaldığını görəndə yan keçməyin. Mütləq yiyəsinə heyvanı qaldırmağa kömək edin.

Əgər ağacda, yaxud yerdə içində bala və ya yumurta olan quş yuvasına rast gəlsəniz və görsəniz ki, ana quş yuvanın üstündə oturub, onun balalarına toxunmayın. Belə edin ki, güzəranınız xoş, ömrünüz uzun olsun.

Ev tikəndə damına məhəccər çəkin ki, kimsə damdan yıxılmasın və qanı sizin boynunuzda qalmasın.

Qonşunuzun üzümlüyünə girəndə ürəyiniz istəyən qədər üzüm yeyə bilərsiniz, amma, səbətə yığıb aparmayın.

Qonşunuzun zəmisinə girəndə əlinizlə sünbül dərib yeyə bilərsiniz, amma zəmiyə oraq vurmayın.

Yadellinin, yaxud yetimin işinə baxanda haqqı, ədaləti pozmayın.

Dul qadından verdiyiniz borcun əvəzinə girov kimi paltarını almayın.

Tarlanı biçəndə yaddan çıxıb tarlada qoyduğunuz dərzi götürmək üçün geri qayıtmayın. Qoy qərib, ye-





tim, dul üçün qalsın. Belə etsəniz, Yaradan hər işinizi avand edər.

Zeytun ağacını çırpandan sonra qayıdıb budaqları ikinci dəfə çırpmayın. Qoy yerdə qalan qəribin, yetimin və dulun olsun.

Bağınızdakı üzümü yığandan sonra tənəklərdə qalanı yığmağa qayıtmayın. Qoy o, qəribin, yetimin və dulun olsun.

Torpaq bizim deyil, biz torpağınıq. İnsan oğlu bu hikməti dərk edəndə müharibələr bitəcək və Dünyada sülh yaranacaq.

Ata-anasına sayğısızlıq göstərənə lənət olsun!

Qonşusunun sərhədini dəyişdirənə lənət olsun!

Koru azdırana lənət olsun!

Qəribin, yetimin, dulun işinə baxarkən ədaləti pozana lənət olsun!

Atasının arvadı ilə yaxınlıq edib atasının şərəfini ləkələyənə lənət olsun!

Heyvanla cinsi əlaqəyə girənə lənət olsun!

Doğma bacısıyla, atabir bacısıyla, anabir bacısıyla yaxınlıq edənə lənət olsun!

Qayınanasıyla yaxınlıq edənə lənət olsun!

Pusqu qurub soydaşını öldürənə lənət olsun!

Rüşvət alıb günahsız qan tökənə lənət olsun!

Əgər bu gün sizə verdiyim nəsihətlərin hamısına dəqiqliklə əməl edib, Yaradanın sözünə qulaq assanız, Yaradan sizi bütün xalqlardan üstün edəcək.

Yaradanın sözünə həmişə qulaq assanız, bütün bu nemətlər başınızdan töküləcək: şəhərdə də, tarlada da xeyir-bərəkətiniz aşıb-daşacaq; övladlarınız çox, tor-

pağınızın bəhrəsi bol olacaq, heyvanlarınızın balaları, buzovlarınız, quzularınız saya gəlməyəcək. Səbətləriniz, xəmir təknələriniz bərəkətli olacaq. Hər işiniz avand olacaq. Yaradan anbarlarınızı bərəkətli, əl atdığınız hər işi xeyirli edəcək. Yaradan sizə verdiyi diyarda üstünüzə bolluca xeyir-bərəkət yağdıracaq. Yaradanın əmrlərinə riayət edib Onun yolu ilə getsəniz, Yaradan siz sülhsevərləri müqəddəs xalq edəcək.

Yaradan mal-heyvanınızı birə-beş artıracaq, torpağınızı məhsuldar edəcək.

Yaradan Öz ruzi-bərəkət anbarının, göylərin qapısını açıb torpağınıza vaxtlı-vaxtında yağış yağdıracaq, əlinizin hər işinə bərəkət verəcək.

Siz bir çox xalqlara borc verəcəksiniz, özünüz isə borc üçün heç kimə ağız açmayacaqsınız. Əgər Yaradanının əmrlərinə, sizə tapşırdığı əmrlərə həmişə boyun əysəniz, Yaradan sizi quyruq deyil, baş edəcək; siz aşağıda deyil, yuxarıda olacaqsınız.

Yox əgər Yaradanın əmrlərinə qulaq asmasanız, bütün əmrlərə və qanunlara dəqiqliklə əməl etməsəniz, bu lənətlər sizi qarabaqara izləyib yaxanızdan yapışacaq:

Şəhərdə də, tarlada da lənətli olacaqsınız. Səbətləriniz xəmir təknələriniz lənətli olacaq. Övladlarınız da, torpağınızın bəhəri də, mal-heyvanınızın balaları da lənətli olacaq. Hər işiniz nəhs gətirəcək. Bəd əməllərinizə, Yaradanı unutduğunuza görə gördüyünüz hər işdən lənət, çaşqınlıq, cəza biçəcəksiniz; tez bir zamanda məhv olub yer üzündən yox olacaqsınız. Tutmağa getdiyiniz diyardan kökünüz tamamilə kəsilənəcən Yaradan azar salıb sizi qıracaq. Axırınıza çıxana qədər Yaradan canınıza vərəm, titrətmə, iltihab, qızdırma salacaq, üstünüzə qılınc göndərəcək. Səmum yelindən məhsulunuz yanacaq, onu kif basacaq. Başınızın üstündəki göylər misə, ayağınızın altındakı torpaq dəmirə dönəcək.





Başınıza yağış əvəzinə toz-torpaq yağdıracaq, siz məhv oluncaya qədər ölkələrinizdə belə olacaq.

Yer üzündə bütün məmləkətlər üçün dəhşət rəmzi olacaq.

Meyitinizi göydəki quşlar didəcək, yerdəki heyvanlar parçalayacaq, onları ürküdüb qovan olmayacaq.

Yaradan sizi çibanlarla, babasillə, və digər yeni xəstəliklərlə cəzalandıracaq, dərdinizə dərman tapılmayacaq.

Yaradan ağlınızı alacaq, gözünüzü kor edəcək, sizi çaşqınlığa salacaq.

Günün günorta çağı, zülmət məhbusu olan kor kimi, əllərinizi sürtə-sürtə gəzəcəksiniz. Bütün işləriniz tərs gətirəcək. Daim sizə fırıldaq gələcək, soyacaqlar, köməyiniz olmayacaq.

Nişanlandığınız qızı gəlib başqa kişi zorlayacaq.

Ev tikəcəksiniz, içində yaşamayacaqsınız.

Üzümlük salacaqsınız, bəhrəsindən dadmayacaqsınız.

Öküzünüzü gözünüzün qabağında kəsəcəklər, amma, ətindən bir tikə də yeməyəcəksiniz.

Gözünüz görə-görə miniyinizi oğurlayacaqlar, geri qaytaran olmayacaq.

Qoyun-quzunuzu düşmənlər aparacaq, hayınıza gələn olmayacaq.

Gözünüz baxa-baxa oğlunuzu, qızınızı yadellilər aparacaq.

Onların həsrəti sizi üzəcək, amma əliniz heç yana çatmayacaq.

Torpağınızın bəhrəsini, yığdığınız bütün məhsulu yadlar yeyəcək.

Daim aldanacaq və sıxışdırılacaqsınız.

Gördüklərinizdən başınıza hava gələcək.

Yaradan dizlərinizdə, ayaqlarınızda, təpədən dırnağadək bütün bədəninizdə ağrılı, sağalmaz çibanlar çıxaracaq.

Çox səpib, az biçəcəksiniz.

Məhsulunuzu çəyirtkələr yeyəcək.

Üzümlüklər salıb becərəcəksiniz, barından bir gilə belə, dərməyəcəksiniz. Qurdlar onun axırına çıxacaq.

Torpağınızın hər yerində zeytun ağacları olsa da, bədəninizə sürtməyə yağ tapmayacaqsınız, çünki bütün zeytunlar töküləcək.

Oğullarınız, qızlarınız olacaq, amma onları gözüdolusu görməyəcəksiniz, çünki əsir aparılacaqlar.

Ağaclarınıza, torpağınızın bəhərinə həşəratlar daraşacaq.

Aranızda yaşayan müharibəsevərlər yüksəldikcə yüksələcək, siz isə, alçala-alçala gedəcəksiniz. Siz ona yox, o, sizə borc verəcək. O, baş olacaq, siz isə quyruq.

Yaradanın sözünə qulaq asmadığınız, sizə buyurduğu qayda və qanunlara riayət etmədiyiniz üçün





bütün bu lənətlər yaxanızdan yapışıb sizə zərbələr endirəcək, ta o vaxta qədər ki, tam məhv olasınız.

Bu lənətlər sizin də, övladlarınızın da üstündə bir nişan, bir əlamət olacaq. Ona görə ki, bolluqda yaşayanda Yaradana sevinclə, könül xoşluğu ilə qulluq etmədiniz.

Yaradan düşmənlərinizi üstünüzə göndərəcək. Ac-susuz, yarıçılpaq, hər şeydən korluq çəkə-çəkə onlara qulluq edəcəksiniz.

Yaradan orada ürəyinizi həyəcanla dolduracaq, gözlərinizin nurunu alacaq, sizi çarəsizliyə düçar edəcək.

Həyatınız tükdən asılı olacaq, gecəniz-gündüzünüz səksəkə içində keçəcək, bu gündən sabaha ümidiniz olmayacaq.

Qulaq verin, ey göylər, görün nə deyirəm!

Ey yer üzü, eşit ağzımdan çıxan kəlmələri!

Nəsihətim yağmur olub yağacaq, sözlərim şeh olub damacaq - çəmənliyə çiskinləyən narın yağışlar kimi, yaşıllığa tökülən leysanlar kimi.

Yaradanın böyüklüyünü vəsf edin! O, hər işi mükəmməl, bütün yolları haqq; nahaq iş görməyən etibarlı Allah Adildir, Haqqdır! Haqdan öz çevirməyin!

## Mündəricat

İnsanda paralel aləmə çixiş nöqtələri var........................ 5
İnsan “@” işarəsi ilə öz enerjisini ünvanlaya bilər......... 7
Məhəbbət hissi akumulyator funksiyasini yerinə yetirir............................................................................ 9
13 ədədi insani niyə həyəcanlandirir?............................ 12
İnsan anatomiyasi niyə 220 sümüyün birləşməsindən yarandı?......................................................................... 14
Tester cihazindaki funksiyalar insanda da var............... 17
İnsan ana bətnində niyə 286 gün qalir?........................... 20
İnsan orqanizminin astronomik hadislərlə uyarlığı var..................................................................... 24
Əsəb xəstəliyinin sirləri ................................................. 27
Biometrik sirkulyar proqramla xərçəngin müalicəsi mümkündür.................................................................... 35
Xərçəng xəstəliyi nədən yaranır?................................... 35
Doğurdanmı, xərçəngin dərmanı yoxdur? ...................... 36
Mendeleyev cədvəli niyə saxtalaşdırıldı?....................... 38
Neqativ enerji insana necə yüklənir?............................. 42
Biometrik sirkulyar proqram necə yüklənir?.................. 46
Meyvəni yuxarıdan dərin ................................................ 50
İnsana sevinc və kədər limiti ayrılıb .............................. 51
Əllər belə danışır............................................................ 54
Gül becərməyin insan xarakterinə təsiri ......................... 56





Cəmiyyətin çürüməsi ilə narin çürüməsi bənzər prosesdir..............................................................................57
Cəmiyyətdə gedən çürümə prosesini bu cür dayandırmaq olar ...........................................................58
Cahil insan kal əncir kimidir – diyirlənib kökündən uzaqlaşar .........................................................................62
Bar verən ağac əkin ........................................................69
Ölüsünə ehsan vermək istəyən 12 ədəd meyvə ağacı əksin.................................................................................70
İçkini belə tərgitdim........................................................72
Müasir telekommunikasiya sənayesi cinlərin xidməti üzərində qurulub ...........................................................75
Cibində CİN gəzdirənlər cinlərin varliğina niyə inanmırlar?......................................................................75
Insani keyfiyyətlər uşağa ana südü ilə keçir....................79
Ayın üzərindəki ləkə deyil, xəritədir ...............................84
Mənə inanmayan axşam Aya baxsın ...............................84
Pangeyizmin düşməni eqoizmdir....................................88
Dövlət quruluşu bu cür olsa rüşvət almaq mümkün olmaz ...............................................................91
Yaradılış və svilizasiya ...................................................98

**Müəlliflə əlaqə**

Tel.: 050  375 30 97  Dr. Paşa Yaqub
Facebook.com paşa.yaqub
www pashayaqub.weebly.com
Youtube: Pasha Yaqub
TikTok: Pasayaqub
Teleqram: Paşa Yaqub

Çapa imzalanmışdır: 23.10.2023. Formatı 84x108 1/16.
Həcmi 9 ç.v. Sifariş № 26. Tiraj 500

“Zərdabi Nəşr” MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru